# Azərbaycan-Türkiyə

Beynəlxalq iqtisadi, ictimai-siyasi jurnal

## BİR MİLLƏT, İKİ DÖVLƏT





**İki dövlətin vəkili.**
**səhifə 16-17**



**Kerkükden Can Azerbaycana selamlar getirdim.**
**səhifə 54-55**



**Quranın Azərbaycan dilinə ilk tərcüməsi.**
**səhifə 78-79**



**Nizami Gəncəvi-880 Ukrayna.**
**səhifə 93**




QARABAĞ
AZƏRBAYCANDIR!
























**Təsisçi-redaktor**
**Anna Şahbazqızı**

**Baş redaktor**
**Zərnişan Turan**

**Direktor**
**Hakan Aktürk**

**Baş redaktor müavini**
**Esmira Balayqızı**

**Koordinator**
**Amil Abbasov**

**Yayım direktoru**
**Elçin İsgəndərov**

**Müxbir heyyəti**
**Valeh Çərkəzoğlu**
**Əli isgəndərov**
**Aydan Dursunova**

**TƏMSİLÇİLƏRİMİZ**
**Cholponai Kavılbekqızı-**Qırğızıstan
**Akgül Jexenbayeva-**Qazaxıstan
**Zera Bekirova-**Krım
**Hüseyn Soytürk Şərqidərəcək-**İran
**Mikael Kumuk**-Kumuklar Dərnəyi

**TÜRKİYƏ**
**Kemal Tozlu-**İstanbul
**Ceyhun Şamxalov-** İstanbul
**Hakan Sezeren**- Sivas
**Süleyha Kara-**Sivas
**Veysel Ateş**- Sivas
**Ali Kan** -Ankara
**Elmira Məmmədova**-İzmir
**Bəhlul Əliyev**-İstanbul
**Məhəmməd Osmanov**-İstanbul
**Pərviz və Ruhəngiz**-İstanbul
**Cəmilə və Müzəffər**-Qara Dəniz bölgəsi

**REDAKSİYANIN**
**FƏXRİ HEYYƏTİ**
Fuad Muradov- Azərbaycan Respublikasının
Diasporla İş üzrə Dövlət Komitəsinin sədri
**Nizami Cəfərov**-akademik
**Qənirə Paşayeva**-Millət vəkili
**Aygün Attar**-professor
**Yılmaz KARACA-**
Türkiye Gazeteciler Federasyonu
Genel Başkanı
**Andraş Biro**-professor
**Maarifə Hacıyeva**-professor
**Tamella Abbasxanlı Əliyeva**-professor
**Yılmaz Okuklu-**iqtisadçı, politoloq
**Orhan Kayıhan**-avukat
**Ziya Zakir Acar**-yazar

"Azərbaycan-Türkiyə"
jurnalı Ədliyyə Nazirliyində
qeydiyyatdan keçib № 2338
VÖEN: 2901255252
Ünvan: Azərbaycan Nəşriyyatı 8-ci mərtəbə.
www.azerbaycan-turkiye.az
amilabbasov@mail.ru
Mob.: 050 271 02 77
050 325 59 15
2021-ci il oktyabr
№144, sayı-3000 ədəd



# BİLGE KAĞAN YASASI:



## BİLGE KAĞAN YASASI:

1. Tengri (yaratan) Tektir.
2. Her kim ki, Tengri'den kut almak dilerse, başkasına yakarmasın.
3. Bir İl (Ülke), bir Kağan, bir Tengri..
4. Bir kına iki kılıç girmez. Bir hatun iki er alamaz ve bir budunda iki töre olmaz! Töre tektir. Töre kesin ve keskindir! Kim ki, töreye uya kutlanır. Kim ki, töreye kıya katlanır!..
5. Kimse töreden üstün değildir. Dirlik ve birlik için töre budur.
6. Bir çoban sürüsünden, bir er ailesinden, bir Kağan budunundan sorulur.
7. Her er eşine, atına, pusatına sahip çıkacak.
8. Ana-babaya ve ataya saygı duyulacak.
9. Hısmına sarılacak, komşusunu gözetecek.
10. Er kişi, yalan söylemeyecek.
11. Mal çalan, mülk çalan misliyle ödeyecek. Hesabı ya malıyla ya canıyla sorulacak.
12. Kim ki, bir ırza musallat olursa, canından olacak.
13. Her kim olursa olsun haksız, aldatıcı iş tutarsa hesabı hemen sorulacak.
14. Cenkten beri duran ya da kaçan tamuya(cehennem) uçacak.(Kellesi alinacak)
15. Aman dileyene kılıç üşürülmeyecek, sığınana arka dönülmeyecek.
16. Baş kaldıranın, başı alınacak, hak isteyenin hakkı verilecek.
17. Kimse kimseye üstünlük taslamayacak. Ne ak etin karadan, ne karanın kızıldan, ne kızılın sarıdan farkı olmayacak.
18. Kin ve gururdan uzak olunacak.
19. Mazluma merhamet, zalime azap duyulacak.
20. Zayıfa, yaralıya, çocuğa ve kadına el kaldırılmayacak.
21. Kızı isteyen Kağan da olsa, bey de olsa, kız istediğine verilecek.
22. Gereksiz yere ağaç kesmeyeceksin, suyu kirletmeyeceksin.
23. Bilmeyip de bildim demeyeceksin, bilene danışacaksın.
24. Bugünün işini yarına bırakmayacaksın.
25. Kusur görmeyecek, kusur aramayacaksın.








26. Güçlüyken affet, zayıfken sabret.

27. Yazgına asi olma.

28. Yaptığın iyiliği unut, yapılan iyiliği unutma.

29. Herkes adaletle iş görecek.

30. Her ne edersen et, yargılanacağını her daim akılda tut.

31. Milletine yaban kalma. İpeğin iyisine, sözün güzeline kanma, onlara boyanma.

32. Kağan o dur ki, adaleti üstün tutsun, töreyi yaşatsın. Töre yok olursa, İl yok olur. İl olmazsa, budun kul olur.

33. Ey Türk Oğuz beyleri, ey Milletim işitin!

"Üstte mavi gök çökmedikçe, altta yağız yer delinmedikçe senin İlini ve töreni kim bozabilir?"

*(Bilge Kağan Yazıtı : 725- 730 illər Orhun ve Selenge Irmağının suladığı, Ötügen-Ormanlar'nın da, bulunduğu Kuzey Moğolistan Bölgesinde Yer Alıyor.)*




# Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında

# Şuşa Bəyannaməsi



Azərbaycan Respublikası və Türkiyə Respublikası,

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində görüşünün tarixi əhəmiyyətini vurğulayaraq,

İki dost və qardaş ölkə arasında imzalanmış bütün beynəlxalq sənədlərə, bununla əlaqədar 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq edərək, 9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"ni və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"u, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"ni rəhbər tutaraq,

İki ölkə və onun xalqları arasındakı dostluq və qardaşlıqdan çıxış edərək Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı münasibətlərin keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldırılmasının iki ölkə və onların xalqlarının maraq və mənafelərinə xidmət etdiyini vurğulayaraq,

Ümumi maraqların qorunmasında hər iki ölkənin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsinin mühüm əhəmiyyətini dərk edərək,

Beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin vacibliyini vurğulayaraq,

Müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin zəruriliyini ifadə edərək,

Azərbaycan Respublikası və Türkiyə Respublikasının müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edərək, Türk dünyasının davamlı inkişafına yönəlmiş qarşılıqlı fəaliyyətlərin regional və beynəlxalq müstəvilərdə irəli aparılmasında səyləri birləşdirərək,

Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının ümummilli lideri Heydər



Əliyevin müdrikcəsinə söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" ifadələrinin xalqlarımızın milli-mənəvi sərvəti kimi dəyərləndirildiyini xüsusi vurğulayaraq,

Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı ikitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi perspektivlərini hərtərəfli nəzərdən keçirərək, bəyan edirlər:

Tərəflər iki dost və qardaş ölkə arasında strateji səviyyədə inkişaf edən münasibətlərin durumundan məmnunluq ifadə edərək siyasi dialoqun bütün səviyyələrdə davam etdirilməsinin və qarşılıqlı yüksək səviyyəli səfərlərin əhəmiyyətini qeyd edirlər.

Tərəflər fəxarət hissi ilə bildirirlər ki, Azərbaycan 44 günlük Vətən müharibəsi ərzində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoydu, torpaqlarını işğaldan azad etdi, tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi.

Azərbaycan Ermənistanın 30 illik təcavüzünə son qoyulmasında, işğal olunmuş torpaqların azad olunmasında, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində Türkiyə Respublikasının mənəvi-siyasi dəstəyini yüksək qiymətləndirir. Tərəflər Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər. Bu kontekstdə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyəti nəzərə alınacaqdır.

Tərəflər Türkiyənin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyətinə verdiyi töhfənin regiondakı sülhün, sabitliyin və rifahın təmin edilməsində mühüm rol oynadığını vurğulayırlar.

Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər.

Tərəflər xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyini qeyd edirlər və bu istiqamətdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətlərin əhəmiyyətini vurğulayırlar.

Tərəflər öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirirlər. Tərəflər regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər.

Tərəflər aktual xarakter kəsb edən, qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək yaxın və ya üst-üstə düşən mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığı dərinləşdirəcəklər və Birləşmiş Millətlər Təşkilatı, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərəcəklər.

Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və

bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır. Tərəflərin Təhlükəsizlik Şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclasları keçiriləcəkdir və bu iclaslarda milli mənafe, Tərəflərin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsi həyata keçiriləcəkdir.

Tərəflər iki qardaş ölkənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səy göstərməyə davam edəcəklər.Tərəflər minalanmış ərazilərin təmizlənməsi əsas götürülməklə Ermənistan işğalından azad edilmiş rayonlarda həyatın normallaşdırılması istiqamətində fəaliyyətləri dəstəkləyəcəklər. Tərəflər müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn şəxsi heyət mübadiləsini, birgə təhsil və təlimlərin keçirilməsini, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsini təşviq edəcəklər. Azərbaycan və Türkiyə digər dost dövlətlərin orduları ilə birlikdə hərbi təlimlərin keçirilməsini dəstəkləyəcəklər.

Tərəflər milli və beynəlxalq öhdəliklərini nəzərə almaqla dəniz, hava və kosmos sahələrində qarşılıqlı texnologiya mübadiləsini həyata keçirərək müştərək qabiliyyətlərin inkişaf etdirilməsi məqsədilə birgə layihələrin yerinə yetirilməsini təşviq edəcək və qarşılıqlı müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsinə müsbət töhfə verəcəklər, sahib olduqları silah və sursatla təchiz edəcək, onların istehsal texnologiyalarını qarşılıqlı şəkildə təşviq edəcək və hazırda onların ölkələrində mövcud olmayan istehsal sahələrinin yaradılmasını, birgə tədqiqat və istehsalat işlərinin həyata keçirilməsini, iki ölkənin müdafiə sənayesi qurumlarının texnologiyalar, hərbi təyinatlı məhsullar və xidmətlər sahəsində daxili və beynəlxalq bazarlarda əməkdaşlıq etməsini dəstəkləyəcəklər.

Tərəflər bildirirlər ki, iki dövlət arasında inkişaf etdirilən və onların milli maraqlarına cavab verən hərbi-siyasi əməkdaşlıq üçüncü dövlətlərə qarşı yönəlməmişdir.

Tərəflər kiber təhlükəsizlik sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayırlar və bu sahədə birgə elmi tədqiqat işləri, mütəxəssis hazırlığı həyata keçirəcək, qarşılıqlı texniki əməkdaşlığı təşviq edəcəklər.

Tərəflər ticarət-iqtisadi münasibətlərdə milli iqtisadiyyatlarının və ixracın şaxələndirilməsi, eləcə də perspektiv sahələrdə birgə istehsalın qurulması, investisiya əməkdaşlığının qarşılıqlı faydalı inkişafı üçün daha əlverişli şəraitin inkişaf etdirilməsi istiqamətində səylərini artıracaqlar. Bu xüsusda Azərbaycan və Türkiyə malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində tədbirlər görəcəklər.

Tərəflər regionun və Avropanın enerji təhlükəsizliyinə töhfə verən, təbii qaz mənbə və marşrut saxələndirilməsini təmin edən strateji Cənub Qaz Dəhlizinin həyata keçirilməsində Türkiyə və Azərbaycanın qabaqcıl rolunu vurğulayırlar. Tərəflər Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəlmiş səyləri əlaqələndirilmiş şəkildə davam etdirəcəklər. Tərəflər, həmçinin qlobal enerji sektorundakı prosesləri nəzərə alaraq regionun enerji təchizatı təhlükəsizliyinin gücləndirilməsi üçün elektrik sahəsində də regional əməkdaşlığa töhfə verəcək səylərin artırılaraq davam etdirilməsi üzrə niyyətlərini ifadə edirlər.

Tərəflər iki ölkənin ərazisindən keçən Şərq-Qərb/Orta beynəlxalq nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılması məqsədilə qarşılıqlı əməkdaşlığı möhkəmləndirəcəklər. Azərbaycan və Türkiyə intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialını daha da inkişaf etdirəcəklər.

Tərəflər Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında dəhlizin (Zəngəzur dəhlizi) açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd edirlər.

Tərəflər Türkiyə ilə Azərbaycan arasında əlaqələrin mövcud səviyyəsinin ümumi regional və beynəlxalq sülh və rifaha töhfə verdiyini, əlaqələrin sadəcə iki ölkəyə deyil, eyni zamanda, regiona sülh və rifah gətirərək başda region ölkələri olmaqla beynəlxalq birliyin sabitlik, sülh və maraqlarına xidmət edəcəyini vurğulayırlar.

Tərəflər regional və beynəlxalq sabitliyə və təhlükəsizliyə mənfi təsir edən müxtəlif təhdid və çağırışlara, xüsusilə terrorçuluğa, onun bütün forma və təzahürlərinə, maliyyələşdirilməsinə, həmçinin kütləvi qırğın silahlarının yayılmasına, mütəşəkkil cinayətkarlığa, çirkli pulların yuyulmasına, narkotiklərin qanunsuz dövriyyəsinə, insan alverinə, qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində birgə səylərini və əməkdaşlıqlarını genişləndirəcək və dərinləşdirəcəklər.

Azərbaycan Respublikası Türkiyə Respublikasının suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına, sabitliyinə və təhlükəsizliyinə qarşı yönəlmiş bütün fəaliyyətləri, o cümlədən terrorçuluğun bütün forma və təzahürlərini pisləyir və Türkiyə Respublikasının terrorçuluğa qarşı apardığı mübarizəni qətiyyətlə dəstəkləyir.

Tərəflər müxtəlif ölkələrdə yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, onların məruz qaldıqları ümumi problemlər qarşısında birlikdə addımlar atılması və ardıcıl həmrəylik göstərilməsi məqsədilə səylərini birləşdirəcəklər.

Tərəflər ölkələrinin təqdim edilməsi və milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporal fəaliyyətin əlaqələndirilməsini və qarşılıqlı dəstəyi təşviq edəcəklər.

Tərəflər Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin təhrif olunması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhə və sabitliyə ziyan



vurduğunu vurğulayaraq bu kontekstdə 1915-ci il hadisələri ilə bağlı olaraq öz arxivlərini açan Türkiyənin Ermənistandakı və digər ölkələrdəki arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səylərini qətiyyətlə dəstəkləyirlər.

Tərəflər 10 dekabr 2020-ci il tarixində imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu"na uyğun olaraq Azərbaycan-Türkiyə Media Platformasının imkanları nəzərə alınmaqla, iki ölkənin aidiyyəti qurumları arasında informasiya, kommunikasiya və ictimai diplomatiya sahələrində əməkdaşlığı daha da gücləndirəcəklər və bu çərçivədə xarici işlər nazirlikləri arasında davamlı olaraq informasiya üzrə sıx məsləhətləşmələr və mübadilələr həyata keçiriləcəkdir.

Tərəflər parlamentlərarası əməkdaşlığın daha da gücləndirilməsini və bu istiqamətdə qarşılıqlı fəaliyyətin artırılmasını təşviq edirlər.

Tərəflər hər iki xalqın müştərək dəyərlərinin ümdə təzahürlərinə lazımi ictimai dəstəyin göstərilməsini təmin edəcək, tarixi və mədəni irslərinin qorunması üçün birgə fəaliyyət həyata keçirəcəklər.

Tərəflər Türk dünyasının birlik və rifahına xidmət edəcək milli və beynəlxalq səylərin artırılmasına diqqət çəkdilər.

Tərəflər Türk mədəni irsinin beynəlxalq səviyyədə təbliğ və təşviq edilməsi sahəsində birgə əməkdaşlığı gücləndirəcəklər.

Tərəflər Türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, TÜRKSOY və Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində həyata keçirilən fəaliyyətlərə təkan verəcəklər.

Tərəflər bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisinə şəxsiyyət vəsiqəsi ilə səyahət etmələri haqqında əldə edilən razılaşmadan məmnunluq ifadə edirlər və həmin razılaşmanın xalqlarımız arasında yaxınlıq və insanlar arasında əlaqələr baxımından müstəsna əhəmiyyətini qeyd edərək, bir Tərəfin vətəndaşlarının digər Tərəfin ərazisində yaşamaq hüququ əldə etmələrini qarşılılıq prinsipinə uyğun olaraq asanlaşdırmaq üçün müvafiq tədbirlər görülməsini təqdir edirlər.

Tərəflər lazımi dövlət dəstəyini təmin edərək xalqları arasında müştərək dəyərlərə söykənən sıx əlaqələri humanitar, sosial müdafiə, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman sahələrində daha da inkişaf etdirəcək və dərinləşdirəcəklər. Bu məqsədlə iki ölkənin aidiyyəti qurumları tərəfindən birgə davamlı fəaliyyətlər həyata keçiriləcəkdir.

Bu Bəyannamə Şuşa şəhərində 15 iyun 2021-ci il tarixində, Azərbaycan və türk dillərində olmaqla iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

**Bəyannaməni imzalayıblar:**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev,**
**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan**



*Zərnişan Turan*
*"Azərbaycan-Türkiyə" jurnalının baş redaktoru, əməkdar jurnalist. "Turan" "Türk Xalqlarının Mədəniyyətinin İnkişafına Dəstək" ictimai birliyinin sədri*

Sizinlə qürur duyuruq, Ali Baş Komandan!!! Qələbəmizin, Zəfərimizin təminatçısı, Şərəfimiz-Şanımız, Qəhrəman Ordumuz, İgid Əsgərimiz!!! Bizə yaşatdığınız qələbə sevincini, qalibiyyət müjdəsini ulu əcdadlarımızın müqəddəs ruhları da bayram etməkdə:- "Ey Türk Törəsi-yuxarıda mavi göy çökmədikcə, aşağıda qara torpaq dəlinmədikçə, sənin elini, sənin yurdunu, sənin törəni kimsə pozammaz, pozammaz..." hayqıran Ulularımız... (Orhon-Yenisey Abidələri) "Bir olaq, İri olaq, Diri olaq"-nidalı böyüklərimiz... (Yisif Xas Hacib), "Sözdə, işdə, əməldə birlik" tərcümanlarımız-(İsmayıl bəy Qaspralı), "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" vəsiyyətli öndərlərimiz (Mustafa Kamal Atatürk), "Biz bir Millət iki Dövlətik" (Heydər Əliyev) böyüklərimizin də Qələbəmizə, Zəfərimizə, Birliyimizə xeyir-duası, ruhları da bu anda, bu məqamda bizimlə... Azərbaycan Xalqının Milli Qurtuluş Günündə, tarixi "Qars Müqaviləsi"nin 100-cü ildönümündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində mütəffiqlik münasibəti haqqında "Şuşa Bəyannaməsi"ni imzaladılar. Bu bəyannamə iki qardaş ölkə arasında bütün strateji əlaqələri ən yüksək səviyyəyə qaldırır. Ən vacib məqam tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dölətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə birgə müdafiə addımlarının atılmasıdır. Bu bəyannamə Türk Dünyasına qədim Oğuz yurdu Zəngəzurdan açılacaq qapılar, birliyimizin, bərabərliyimizin daha bir nişanəsi, gələcəyimizin qarantıdır. Qısa bir zaman içində böyük quruculuq, bərpa işləri görülən və hələ çox böyük işlərin görüləcəyi planlaşdırılan Şuşamız kimi, cümlə Qarabağımızın qardaş, dost ölkələrimizin birliyi ilə dirçəldilməsidir. Müqəddəs Vətən görəvimiz sərhədlərimiz boyunca yurdlarımızı qorumağa, torpaqlarımızı abadlaşdırıb, əkib-biçməyə, ucaltmağa, Haqqımızı-Ədalətimizi dünyaya sərgiləməyə, haydi irəli!



***Hakan Aktürk TÜRKBİRKON-Türk Dünyası və Uluslararası İş Dünyası Yatırım Birligi Konfederasyonu genəl başkanı "Azərbaycan-Türkiyə" jurnalının direktoru***

Sevgili Azərbaycanlı həmsoylarım-Ali Baş Komandanımızı, Qalib Ordumuzu bacılarımı, qardaşlarımı, bütün Türk Dünyasını, hər kəsi Qarabağ Zəfərimiz münasibətilə ürəkdən təbrik edirəm. Birliyimiz, bərabərliyimiz, Qələbələrimiz əbədi olsun, baqi olsun, kutlu olsun! Qardaşlıq damarlarımızdakı eyni qanla yanaşı, eyni ülküyü, eyni duyğuyu, eyni sevdanı daşımaqla olur həm də. Bizim Azərbaycan Cümhuriyyəti, Azərbaycan xalqı, vətəndaşı ilə sevdamız birdir. Hər zaman belə olub keçmişdə də, bu gün də, gələcəkdə də belə olacaq! Azərbaycana işim gərəyi səfərlərim çox olub. Bu gəlişi isə,elə özləmişəm ki… Qarabağın düşməndən xilas ediləcəyi günlərə gələcəyimi...Canlarını, Vətəninə, Torpağına fəda edərək şəhadət şərbətini içib, Şəhidlik Zirvəsinə ucalan igidlərimizin valideynlərinin əlini öpmək, qəhrəman qazilərimizi ziyarət etmək, Qələbə müjdəli, Zəfər nidalı Azərbaycanımızın havasını udmaq,"Azərbaycan-Türkiyə" dərgimizi birgə araya-ərsəyə gətirmək..

TÜRKBİRKON-Türk Dünyası və Uluslararası İş Dünyası Yatırım Birligi Konfederasyonu, öncü addımlarını yılmadan, yorulmadan dünyanın harasında bir Türk varsa, ona ulaşaraq acılarına, sevinclərinə, ortaq duyğularına tərcüman olmağı öz üzərinə götürür. Hədəfimiz Türk İş Dünyası və Beynəlxalq Ticarət Arenasında Türksoylu Dövlətlər araslnda bir körpü qurmaq, kültürəl, sosial-ekonomik, ticarət münasibətlərinə gəlişmə və öncüllük etmək, Qardaşlıq-Birlik sözləşməsidir. Bu qardaşlığımızın daha bir simgəsi "Azərbaycan Türkiyə" dərgimizlə bir daha xoş gördük!




# Bir nəslin dörd Qəhrəmanı

...Səndən ötrü can verməyə cümlə hazırız, səndən ötrü qan tökməyə cümlə qadiriz... Milli düşüncəmizin təməl prinsiplərindən biri olan “Dövlət Himni”mizdə əks olunan bu ifadələr heç də təsadüfi deyilməmişdir. II Qarabağ Savaşı -Vətən Müharibəsində xalqımızın igid əsgərləri və qəhrəman oğulları bu kəlmələrin nə qədər gerçək həqiqət olduğunu canları və qanları ilə təsdiq edərək, doğma vətənimiz uğrunda düşmənin qanını tökərək müqəddəs torpaqlarımızı azad etdilər. Qəhrəmanlarımızın bu igidliyi ədəbi əsərlərdə, folklor nümunələrində, xalqımız haqqında tarixi qaynaqlarda əks olunan qəhrəmanlıq nümunələrinin mif deyil, həqiqət olduğunu bir daha üzə çıxardı.

Bizim Vətən müharibəmizdə-Qarabağ döyüşlərində Azərbaycanın minlərlə igid oğlu xüsusi fədakarlıq, qəhrəmanlıq nümunəsi göstərərək, dünya hərb sənətini heyran edən döyüş əməliyyatları ilə üçrəngli bayrağımızı bir daha qürurlandırdılar. II Qarabağ müharibəsində vətən torpaqlarının azad edilməsində iştirak edən və qəhrəmanlıq göstərən igidlərimiz arasında bir nəslin dörd qəhrəmanı da var. Bu qəhrəmanlar doğma Naxçıvan diyarını təmsil etsələr də, Azərbaycanın hər bir bölgəsini, müqəddəs Qarabağın hər bir daşını canları qədər sevən Ağalarovlar nəslinin nümayəndələridir. Bu igidlər üçün Vətən anlayışı, bayraq anlayışı bütün dəyərlərdən yüksək, yüksək olduğu qədər də müqəddəs bir məfhumdur. Bu müharibədə Ağalarov soyadını daşıyan 4 əmioğlu - kapitan Elşən Zakir oğlu Ağalarov, baş leytenant Vüsal Abbas oğlu Ağalarov, gizir Emin Arif oğlu Ağalarov, çavuş Seymur Zahid oğlu Ağalarov 44 günlük Vətən Müharibəsində doğma Azərbaycan üçün, Qarabağ üçün müsəlləh əsgər olaraq vətənin xidmətində dayandılar.

Qarabağ Müharibəsinin qəhrəmanlarından biri olan Ağalarov Elşən Zakir oğlu 1990-cı il iyun ayının 10-da Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində hərbçi ailəsində anadan olmuşdur. O, 1997 -2005-ci illərdə Naxçıvan şəhər Cəmşid Naxçıvanski adına 11 nömrəli orta məktəbdə təhsil almışdır. 2005-2008-ci illərdə Heydər Əliyev adına hərbi liseydə təhsil alan Elşən Ağalarov, 2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirmişdir. Leytenant Elşən Ağalarov 2012-2013-cü illərdə Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində təkmilləşdirmə kursunda iştirak etmişdir. 2013-cü ildən etibarən müxtəlif hərbi vəzifələrdə çalışan Elşən Ağalarov kapitan rütbəsinə qədər yüksəlmişdir.

Müharibə başlayan ərəfədə N saylı hərbi hissədə tabor komandirinin müavini vəzifəsində çalışan kapitan Elşən Ağalarov, müharibənin ilk dövrlərindən etibarən rəhbərlik etdiyi taborla birlikdə Ağdərə istiqamətində gedən döyüşlərə qatılmış, böyük qəhrəmanlıq nümunəsi göstərmişdir. İgid komandir və əsgərləri düşmənin çoxsaylı canlı qüvvəsinin və hərbi texnikasının məhv edilməsində yaxından iştirak etmişlər.

Kapitan Elşən Ağalarov Ağdərənin düşməndən azad olunması uğrunda gedən döyüşlərdə yaralanmışdır. Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə, Ağdərə döyüşlərində göstərdiyi şücaətə görə “Cəsur döyüşçü” medalı ilə təltif olunmuşdur.

Qarabağ müharibəsinin iştirakçısı olan və döyüşlərdə böyük şücaət göstərən igidlərdən biri də Ağalarov Vüsal Abbas oğludur. O, 1993-cü ildə



Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində hərbçi ailəsində anadan olmuş, 1999 - 2007-ci illərdə Naxçıvan şəhər 705 saylı tam orta məktəbdə təhsil almışdır.

2007-2010-cu illərdə Heydər Əliyev adına hərbi liseydə təhsil alan Vüsal Abbas oğlu Ağalarov, 2010-cu ildən etibarən öz təhsilini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində davam etdirmişdir. 2014-2015-ci illərdə Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində təkmilləşdirmə kursunda iştirak edən leytenant Vüsal Ağalarov 2015-si ildən etibarən N saylı hərbi hissədə xidməti vəzifəyə başlamışdır.

II Qarabağ müharibəsində bölük komandiri olan baş leytenant Vüsal Ağalarov öz igid əsgərləri ilə Xocavənd rayonunun düşmən işğalından azad olunmasında böyük qəhrəmanlıq göstərmişdir. Bu döyüşlərdə çoxsayda düşmən əsgəri və hərbi texnikasını məhv edən igid komandir noyabr ayının 7-də yaralanmışdır. Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı ilə “ İgidliyə görə” medalı ilə təltif olunmuşdur.

Qarabağ müharibəsinin igid qəhrəmanlarından biri də Ağalarov Emin Arif oğludur. O, 1994-cü ildə Naxçıvan şəhərində ziyalı ailəsində dünyaya göz açmışdır. Naxçıvan şəhər 1 saylı tam orta məktəbi bitirmişdir. 2013-2016-cı illərdə Ərzurum Atatürk Universitetində ali təhsil almışdır. Emin Ağalarov 2018-ci ildə Sərhəd qoşunlarında kiçik gizir rütbəsiylə xidmətə başlamışdır.

Vətən müharibəsi başlayan andan Zəngilan-Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak etmiş, böyük qəhrəmanlıq nümunəsi göstərərək düşmənin çoxsaylı canlı qüvvəsi və döyüş texnikasının məhv edilməsində fəal iştirak etmişdir. Gizir Ağalarov Emin Arif oğlu Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə "Zəngilanin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Məlumdur ki, tarixlər boyu erməni faşistləri təkcə müqəddəs Qarabağa deyil, Azərbaycanın dilbər guşələrindən biri olan və “Şərqin Qapısı” adlandırılan Naxçıvan bölgəsinə də göz dikmiş, bu ərazini ələ keçirmək üçün zaman-zaman öz mənfur planlarını işə salmışdır. I Qarabağ Müharibəsi zamanı Qarabağla bərabər Naxçıvanı da ələ keçirmək istəyən erməni faşistləri öz çirkin niyyətlərinə çata bilməmiş, bu istiqamətlərdə gedən döyüşlərdə yüzlərlə qəhrəman igidimiz şəhid olmuşdur.

II Qarabağ müharibəsi başlayandan etibarən həm Qarabağ döyüşlərində iştirak etmək, həm də düşmənin hədəfində olan Naxçıvan bölgəsini erməni quldurlarından qorumaq üçün hərbi səfərbərlik elan edilmiş, doğma vətəni qorumaq, müqəddəs Qarabağı mənfur düşmən işğalından azad etmək üçün minlərlə igid könüllü olaraq hərbi xidmətə yollanmış, Vətən Müharibəsində böyük şücaət göstərmişlər.

Müharibə dövründə könüllü olaraq doğma torpaqların müdafiəsinə və Qarabağın düşməndən azad olunması uğrunda mübarizəyə qatılanlar sırasında Şahbuz rayonunun Ayrınc kənd orta məktəbinin müəllimi çavuş Seymur Zahid oğlu Ağalarov da vardır.

Seymur Zahid oğlu Ağalarov 1989-cu ildə Şahbuz rayonunun Ayrınc kəndində anadan olmuşdur. 1996-2007-ci illərdə Ayrınc kənd orta məktəbində təhsil almışdır. 2008 - 2009-cu illərdə N saylı hərbi hissədə



xidmətdə olmuşdur. Hərbi xidmət dövründə "Daşınan zenit-raket kompleksi" kursunu bitirərək çavuş rütbəsi almışdır.

Hərbi xidmətdən qayıdan Seymur Ağalarov 2010-2014-cü illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil almışdır. 2014 -cü ildən etibarən Şahbuz rayonu Ayrınc kənd orta məktəbində Bədən tərbiyəsi və idman müəllimi vəzifəsində çalışır.

Çavuş Seymur Ağalarov Vətən Müharibəsi başlayanda könüllü olaraq müharibəyə getmək üçün müraciət etmiş və Hərbi Səfərbərlik İdarəsi tərəfindən hərbi xidmətə çağrılmışdır. Hərbi xidmət dövründə N saylı hərbi hissədə ehtiyat taborunun tağım komandirinin birinci müavini vəzifəsini icra etmişdir. 44 günlük Vətən Müharibəsi qələbə zəfəri ilə başa çatdıqdan sonra ehtiyata buraxılmışdır. Hal-hazırda dərs dediyi məktəbdə müəllimlik fəaliyyətini davam etdirir.

II Qarabağ müharibəsində yuxarıda adlarını sadaladığımız qəhrəmanlar kimi minlərlə igidimiz böyük şücaət göstərərək, özünəməxsus qəhrəmanlıq nümunələri yaratmışlar. Bu qəhrəmanların tək amalı Bütöv Azərbaycan və bu müqəddəs ölkənin işğal olunmuş ərazilərinin düşməndən azad edilməsi olmuş, bu yolda Şəhid və Qazilik mərtəbəsinə yüksəlmişlər.

Azərbaycan igidlərinin müstəsna dərəcədə uğurlu, şərəfli və dünya hərb sənətini heyran edən döyüş əməliyyatları nəticəsində, illərdir həsrət qaldığımız doğma torpaqlarımıza müqəddəs üçrəngli bayrağımız sancılmışdı. Azərbaycanın müzəffər ordusu üçrəngli bayrağımızın müqəddəs Şuşa şəhərinin Cıdır meydanında dalğalanmsına vəsilə olmuş, Azərbaycanın ən qədim sivilizasiya beşyi olan Qarabağ bölgəsi düşmən tapdağından azad edilmişdir.

Əziz Qəhrəmanlarımız! Sizin döyüşlərdə göstərdiyiniz qeyri-adi cəsurluq və igidlik nümunələri dünya hərb sənətinin daha da zənginləşməsinə səbəb oldu. Siz xalqımızın birlik və bütövlük simvolu olan Xudafərin körpüsü üzərində üçrəngli bayrağımızı sancmaqla tarixi ədaləti bərpa etdiniz. Bu möhtəşəm zəfərlə siz uzun illərdir Arazın o tayından göz yaşı ilə Qarabağa baxan Cənublu soydaşlarımızın həsrətinə son qoydunuz. Azərbaycanın qəhrəman igidləri! Siz Şah Əsərimiz olan Bütov Azərbaycanın Şah Qəhrəmanlarısınız...

Qəhrəman Əmioğlanları! Siz şərəfli bir nəslin nümayəndələri olaraq bizim fəxrimiz, qürurumuz, Azərbaycan xalqının isə Qəhrəmanlarısınız. Allah Sizləri, tarix yaradan və tarix yazan Şanlı Ordumuzu qorusun.

***Mübariz Ağalarlı***
***Azərbaycan Milli Elmlər Akademiyası***
***Tarix İnstitutunun aparıcı elmi işçisi,***
***tarix üzrə fəlsəfə doktoru, dosent***

# Prezidentlərin tarixi Şuşa görüşü Amsterdamda buraxılan beynəlxalq poçt markasında əks olunub




Niderland Krallığının Amsterdam şəhərində yaşayan həmyerlimiz Səltənət Rəvanqızının təşəbbüsü ilə Azərbaycan və Türkiyə Prezidentlərinin tarixi Şuşa görüşünə həsr olunmuş beynəlxalq poçt markası buraxılıb.

"Azərbaycanın inciləri" layihəsi çərçivəsində gerçəkləşdirilən markanın üzərində Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və birinci xanım Əminə Ərdoğanın qədim Şuşa şəhərinin məşhur Cıdır düzündə birgə çəkdirdikləri foto əks olunub. Markaları Niderlandın rəsmi poçt rabitəsinin PostNL milli operatoru çap edib.

Qeyd edək ki, bundan öncə sözügedən layihə çərçivəsində dahi siyasətçi və görkəmli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə, Xalq rəssamı Sakit Məmmədovun əsərlərinə, Qarabağın rəmzi sayılan "Xarı bülbül" çiçəyinə, Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunovun, Kəlbəcərdə mina partlayışı nəticəsində həlak olmuş jurnalistlər Məhərrəm İbrahimovun və Sirac Abışovun xatirələrinə həsr olunmuş poçt markaları da buraxılıb.

# "Tovuzdan Qarabağa" kitabı Mayamidəki "Holokost Memorial Muzeyi"nə təqdim olunub




Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Florida Azərbaycan–Amerika Mədəniyyət Assosiasiyasının təşkilatçılığı ilə tanınmış pakistanlı jurnalist-analitik Malik Ayyub Sumbalın "Tovuzdan Qarabağa" ("Tovuz to Karabakh") kitabı Mayami şəhərindəki "Holokost Memorial Muzeyi"nə hədiyyə edilib.

Florida Azərbaycan–Amerika Mədəniyyət Assosiasiyasının prezidenti Töhfə Eminova bildirib ki, bu münasibətlə muzeyin rəhbərliyi ilə görüşüb. Görüş zamanı Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasətindən bəhs edən kitab haqqında muzey rəsmiləri məlumatlandırılıb. "Muzey rəhbərliyi ermənilərin günahsız azərbaycanlılara qarşı törətdiyi dəhşətli cinayətlərdən xəbərdardırlar. Bu səbəbdən də kitabın muzeyə hədiyyə olunmasını yüksək qiymətləndiriblər", - deyə T.Eminova söyləyib.

Qeyd edək ki, ABŞ-ın bir neçə ştatında və böyük şəhərlərində fəaliyyət göstərən "Holokost Memorial Muzey"ləri hər il on milyonlarla amerikalılar və turistlər ziyarət edirlər.

Xatırladaq ki, "Tovuzdan Qarabağa" adlı kitabda Azərbaycanın ötən 30 ildə keçdiyi tarixdən söz açılıb, Cənubi Qafqazdakı hazırkı geosiyasi vəziyyət təhlil edilib. Bu, 44 günlük Vətən müharibəsindən sonra bu mövzuda yazılan ilk kitabdır.

# Türkiyədə fəaliyyət göstərən diaspor təşkilatlarının Şuşa Bəyannaməsi ilə bağlı müraciəti

Türkiyədə fəaliyyət göstərən diaspor təşkilatlarının nümayəndələri olaraq, 15 iyun 2021-ci il tarixli "Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında Müttəfiqlik Münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanmasını məmnuniyyətlə qarşıladığımızı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın siyasi iradəsi ilə həyata vəsiqə qazanan, iki qətiyyətli Lider tərəfindən imzalanan sənədi yüksək dəyərləndirir və bütün gücümüzlə dəstəklədiyimizi bildiririk.

Bəyannamə yalnız iki qardaş ölkənin deyil, bütün Türk Dünyasının həmrəyliyini ifadə edən və gücləndirən, eləcə də Avrasiya coğrafiyası üçün sülh, sabitlik və inkişaf vəd edən bir çox müddəanı özündə ehtiva edir. Odur ki, Azərbaycan və Türkiyə diaspor təşkilatları birlik və həmrəyliyimizin əhəmiyyətli olduğunu diqqətə çatdırmaqla digər türkdilli ölkələrin, həmçinin digər sülhsevər icmalarla birgə fəaliyyətin əhəmiyyətli olduğunu vurğulayırıq.

Xüsusi olaraq qeyd etmək istəyirik ki, sözügedən sənədin imzalanma tarixinin seçilməsi özündə iki böyük tarixin nişanələrini əks etdirir. Hesab edirik ki, Azərbaycanın Milli Qurtuluş günündə və Qars müqaviləsinin yüzüncü ildönümündə belə bir sənədin imzalanması hər iki liderin Türkiyə Cümhuriyyətinin banısi Mustafa Kamal Atatürkə və ümummilli lider Heydər Əliyevə olan tükənməz sevgi və ehtiramının nişanəsidir.

Həmrəylik və birlik çağırışlarımız yalnız türksoylu xalqların tərəqqisi üçün deyil, bütün dünyada mehriban dostluq, səmimi qonşuluq, birgəyaşayış mədəniyyətinin nümayişi olaraq örnəyə çevrilib. Bütün bunlar milli simamız və dəyərlərimizdir.

Əziz və dəyərli yurddaşlar, soydaşlar yaşadığımız dünyada sülh və sabitliyin qorunması, təbliği və təşviqi diaspor təşkilatları və media qurumlarının da üzərinə ağır və şərəfli məsuliyyət qoyur. Bu məsuliyyətin bir istiqaməti də Azərbaycan və Türkiyəyə aid həqiqətlərin dünya birliyinə düzgün çatdırılması, xalqlarımıza, ölkələrimizə qarşı yalan və iftiraların dəf edilməsidir. Son illər, məhz birgə səylərimiz nəticəsində saxta “erməni məsələsi”ndən doğan bütün irtica fəaliyyətlərin ifşası istiqamətində əhəmiyyətli addımlar atmışıq. Lakin bütün bunlar yetərli deyildir. Sözügedən Bəyannamə əməkdaşlıq, inkişaf, tərəqqi və rifah üçün unikal imkanlar yaratmaqdadır.

Ermənistanın, erməni millətçi dairələrin, lobbi təşkilatlarının Türkiyəyə qarşı əsassız iddialarının, tarixin təhrif olunması və faktların saxtalaşdırılması əsasında siyasiləşdirilmiş qərarların həqiqət kimi təqdim olunması son dərəcə təhlükəlidir və birgə səylərlə bunları dəf etməliyik. Bu kontekstdə 1915-ci il hadisələri ilə bağlı olaraq öz arxivlərini açan Türkiyənin Ermənistandakı və digər ölkələrdəki arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səylərini qətiyyətlə dəstəkləməklə real işlərə rəvac verməliyik.

Prezident cənab İlham Əliyevin söylədiyi və qardaş Türkiyənin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın da dəstəklədiyi kimi: bir millətin iki diasporu ola bilməz.

Birmənalı olaraq qeyd etmək istəyirik ki, müxtəlif ölkələrdə yaşayan Azərbaycan və Türkiyə diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, məruz qaldığımız ümumi problemlərin qarşısında birlikdə addımlar atılması və ardıcıl həmrəylik göstərilməsi səmərəli fəaliyyət üçün yeganə düzgün yoldur.

Milli mənafelərin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diaspor təşkilatlarının koordinasiyalı fəaliyyətləri gücümüzü daha da artırar.

Bu bəyanatı yazmaqda və yaymaqda məqsədimiz bir daha Azərbaycan və Türkiyənin müttəfiqliyini təsdiqləyən Şuşa Bəyannaməsinin tarixi əhəmiyyətini yüksək dəyərləndirdiyimizi nümayiş etdirmək, güclü, qüdrətli, yenilməz, xalqların birliyi və dostluğunun qarantı olan ittifaqın qorunması və inkişafı naminə yumruq kimi birləşmiş diaspora çevrilmək niyyətimizi ifadə edirik. Azərbaycan və Türkiyənin diaspor təşkilatları yalnız və yalnız ittifaq şəklində birləşmiş fəaliyyət göstərməklə əsas hədəflərə çata bilər: bir olaq, birlik olaq, güclü olaq, müttəfiq olaq.

### *Müraciəti imzalayan təşkilatlar:*

1. Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondu (Azərbaycan Evi)
2. Hatay Azərbaycan Evi
3. Yalova Əsassız Erməni İddilaları ilə Mübarizə Dərnəyi
4. Yeni Azərbaycan Yardımlaşma və Mədəniyyət Dərnəyi
5. İstanbul Türkiyə Azərbaycan Kültür və Dayanışma Dərnəyi
6. Azərbaycan Təhsil və Kültür Dərnəyi





7. Eskişəhər Azərbaycanlılar Dərnəyi
8. Gənc Azərbaycanlılar Dərnəyi
9. Kocaeli Dərincə Azərbaycan Evi Dərnəyi
10. Azaflı Sosial Yardım və Mədəniyyət Dərnəyi
11. Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası
12. Azərbaycan Türkləri və Dost Dərnəklər Federasiyası
13. Türkiyə Azərbaycan Dostluq Dərnəkləri Federasiyası
14. Manisa Azərbaycan Kültür və Həmrəylik Dərnəyi
15. İğdır- Azərbaycan Dil, Tarix və Kültür Birliyini Yaşatma və Dəstəkləmə Dərnəyi
16. Türkiyə Azərbaycan Dərnəyi
17. Iğdır Azərbaycan Evi
18. Adana Azərbaycan Kültür və Dayanışma Dərnəyi
19. Antalya Azərbaycan Kültür və Dayanışma Dərnəyi
20. İzmir Azərbaycan Qardaşlıq və Əməkdaşlıq Dərnəyi
21. İzmir Azərbaycan Kültür Evi və Həmrəylik Dərnəyi
22. Azərbaycan Qadınları Kültür Mərkəzi Dərnəyi
23. Çağdaş Azərbaycan Kültür Dərnəyi
24. Ədirnə Azərbaycan Evi Dərnəyi
25. Azərbaycan Dil, Tarix, Mədəniyyət Araşdırma Mərkəzi
26. Azərbaycanlı Həkimlər Dərnəyi
27. İstanbul-Azərbaycan Dostluq Dərnəyi
28. "Buta" Azərbaycan Mədəniyyətini Yayma və Yaşatma Dərnəyi
29. Dünya Azərbaycanlıları Yazarlar və Media Dərnəyi
30. Kayseri Azərbaycan Mədəniyyət,Təhsil və Həmrəylik Dərnəyi
31. "Xəzər" Azərbaycan Xalq Rəqsləri Dərnəyi
32. Xəzər Folklor Təhsil və Araşdırma Mərkəzi
33. Anka - Azərbaycan Rəqs və Sənət Klubu
34. İstanbul Universiteti Azərbaycan Mədəniyyət və Həmrəylik Birliyi
35. Araz Doğa Sporları və Kültür Klubu Dərnəyi
36. Azərbaycan Turkiyə Ortaq Milli Düşüncə Dərnəyi
37. İstanbul Azərbaycan Kültür Evi
38. İstanbul Heydər Əliyev adına Azərbaycan məktəbi
39. Azərbaycan Təhsil, Mədəniyyət və Sosial Həmrəylik Dərnəyi
40. Balıkesir Azərbaycan Evi Dərnəyi
41. "Azərbaycan Xalqlar Dostluğu" Dərnəyi
42. Azərbaycan Gənclərinin Ankara Həmrəylik Dərnəyi
43. "Mübariz" Kültür Təhsil və Sosial Yardımlaşma Dərnəyi
44. Azərbaycan Gənclərinin İstanbul Hərəkatı
45. İstanbul Universiteti Azərbaycan Türkiyə Qardaşlıq və Həmrəylik Topluluğu
46. Celal Bayar Üniversitesi Manisa Azərbaycanlı Tələbələr Topluluğu
47. Düzce Üniversitesi Türk Dünyası Topluluğu
48. Bülent Ecevit Universitetinin nəzdində Azərbaycan Kültür Topluluğu
49. Azərbaycan Gənclərinin İstanbul Həmrəyliyi
50. Konya Azərbaycanlı Tələbələr Birliyi
51. Sakaryada Azərbaycan Kültür və Həmrəylik Topluluğu
52. Manisa Azərbaycanlı Tələbələr Birliyi
53. Kayseri Azərbaycanlı Tələbələr Birliyi
54. Kastamonu Universiteti Azərbaycan Mədəniyyət və Həmrəylik Birliyi
55. Bursa Azərbaycan Mədəniyyət və İncəsənət Birliyi
56. Azərbaycan Kipr Dostluq Cəmiyyəti
57. Kahramanmaraş-Azərbaycan Təhsil, Mədəniyyət və Həmrəylik Birliyi
58. Elazığ Azərbaycan Mədəniyyət və Tələbə Gənclər Birliyi
59. "Bilecik Azərbaycan Qardaşlıq Dərnəyi"
60. Qars Azərbaycan Evi Dərnəyi
61. İğdır Vakfı
62. Azərbaycan Çanaqqala Dərnəyi
63. "Gəlcəyin İnsanları Məkanı, Gələcəyin İmkanları Məkanı
64. "Azərbaycan Deyincə" Dərnəyi
65. AzArt - Türkiyədə Yaşayan Azərbaycanlı Rəssamlar Qrupu
66. Alanya Azərbaycanlılar Dərnəyi
67. Zile Azərbaycan Qarabağlılar Yardımlaşma və Dayanışma Dərnəyi
68. Azərbaycan Kültür Mərkəzi Dərnəyi
69. Kocaeli Azərbaycan Heydər Əliyev Kültür Evi Dərnəyi
70. Türkiyə Anadolu Aydınlar Ocağı
71. Türkiyə Azərbaycan Dev Kardeşlik, Candaşlık və Strateji Platformu
72. Türk Kültür Platformu
73. Yeşil İğdır qəzeti
74. Azərbaycan Kipr Gənclər Təşkilatı

# İKİ DÖVLƏTİN VƏKİLİ



***Qonağımız uşaqlıqdan hüquqşünas olmağı qarşısına məqsəd qoyub. Bu arzusu ilə valideynlərinin də istəyini yerinə yetirən, orta məktəbi Türkiyədə, ali təhsilini Azərbaycanda alıb, iki qardaş ölkənin vəkili adını qazanan-Azərbaycan Vəkillər kollegiyasının üzvü, İstanbul 2 nolu Baronun üzvü, Türkiyənin Beynəlxalq Hüquqşünaslar Birliyinin üzvü, Türkiyədəki Azərbaycanlı İş Adamları Birliyinin baş katibi, Aygün Əliyevadır.***

**-Aygün xanım, belə gənc yaşında bu adları qazanmaq, karyera pillələrini adlamaq, böyük zəhmətin bəhrəsidir. Sizi həm təbrik edir, həm də oxucularımız adından başarlarınız bol olsun deyirik.**

-Təşəkkür edirəm, çox saq olun Amil bəy.

**-Təhsil, əmək, karyera fəaliyyətinizi öz dilinizdən oxucularımıza təqdim etmək istərdik.**

-Valideynlərim, Türkiyə dövləti tərəfindən Ankara Universitetində çalışmaq üçün dəvət aldıqlarından, mən də orta məktəbi qardaş ölkə Türkiyədə oxumalı oldum. Atam Ankara Universitetinin professoru, anam doçenti idi.

O zamanlardan Azərbaycanda hər kəs mənə türk ləhcəsində danışırsan söylədiklərində yalnız bir cavabım olurdu ki, biz birik, eyni xalqlar, eyni insanlarıq. Və həmişə də Azərbaycanla-Türkiyə arasında bağlantılı, birgə işlər görmək arzum olub. Bakı Dövlət Universitetinin bakalavr və magistraturasını bitirdikdən sonra Milli Elmlər Akademiyasında dissertanturaya daxil oldum, elmi işimlə bağlı beynəlxalq konfranslarda iştirak etməyə başladım. Həm Azərbaycan, həm də Türkiyədə məqalələrim nəşr olunmağa başladı. Görürdüm ki,Azərbaycanla Türkiyə arasında hüquq sahəsində toplantılar, bağlantılar demək olar ki, heç yoxdur. Hüquq sahəsində Türkiyədə keçirilən konfranslarda azərbaycanlı görmürdüm, ölkəmi tək mən təmsil edirdim.

2011-ci ildə Türkiyədə keçirilən Beynəlxalq Hüquqşünaslar Birliyinin təşkil etdiyi "Uluslararası Anayasa Kongresi"ndə mənə Beynəlxalq Hüquqşünaslar Birliyinin üzvlüyü və Azərbaycan təmsilçisi olmaq təklifi edildi.

Təklifi qəbul edən Aygün Əliyeva, 36 ölkədən üzvü olan böyük bir təşkilatın bu statusda ilk azərbaycanlı hüquqşünasıdır.

-Özümə söz vermişdim ki, Azərbaycanda hüquq sahəsində ən böyük konfransı təşkil edəcəyəm. Bu təcrübəni Bakıya daşıyacağam. İlk ondan başladım ki

Türkiyənin məşhur hüquqşünaslarını Azərbaycana dəvət edim. Qarşı tərəfdən də buna böyük istək görüncə, Millət vəkillərindən başlamış, Ali məhkəmə, hüquq, qeyri-hökumət təşkilatlarının rəhbərlərini heyət olaraq Azərbaycana gəlişlərini təşkil etməyə başladım.




İlk olaraq 2016-cı ildə Azərbaycan Konstitusiya Məhkəməsində böyük konfransımız baş tutdu. Konfransın ardından Azərbaycan-Türkiyə Hüquq Platformasını qurduq. Platforma Azərbaycan və Türkiyədə hüquq sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları arasında səmərəli əməkdaşlığı təsis etmək məqsədi ilə qurulmuşdur.

2018-ci ildə "2-ci Avrasiya Hüquq Qurultayı"nı Azərbaycanda təşkil etdik. Nəhayət böyük arzum reallaşdı. 26 ölkədən 350-dən yuxarı məşhur qanun keşikçiləri, ədliyyə nazirləri, deputatlar, vəkillər, prokurorlar, keçmiş baş nazirlər, ictimai xadimlər Azərbaycana gəldi. 3 gün ərzində çox maraqlı, dolu-dolu konfransımız oldu.

Bu konfransda hüquqi məsələlərlə yanaşı Qarabağ məsələsi də müzakirəyə qoyuldu. Hər zaman olduğu kimi haqqın bizim tərəfdə olduğu qərarı da çıxarıldı. Nəhayət o haqq-ədaləti də, Ali Baş Komandanımızın rəhbərliyi ilə qəhrəman əsgərlərimiz xalqımıza qazandırdı. Elə o vaxtlar Türkiyədə ali təhsil diplomumun tanınmasının ardınca düşdüm. Ankarada Hacı Bayram Universitesində iki il ərzində 22 fərq imtahanını verərək, Diploma Denklik Belgesini aldım və İstanbul 2 nolu Barosuna müraciət etdim və Vəkillik ruhsatımı aldım.

Aygün xanım həm də akademik fəaliyyətini davam etdirməkdədir. Dissertantura ilə yanaşı bu yaxınlarda mediasiya imtahanını verərək, Azərbaycanda da bu, artıq məcburi olacaq desək, bu sahədə də ilk mediatorlardan olacaq.

Aygün Əliyeva hazırda Türkiyədəki Azərbaycanlı İş Adamları Birliyinin baş katibidir.

Türkiyədəki Azərbaycanlı İş Adamları Birliyi Türkiyə Cümhuriyyətində fəaliyyət göstərən Azərbaycanlı İş adamlarını bir mərkəz altında birləşdirmək, onların ticarət və iqtisadi sahələrdəki iş birliyini inkişaf etdirmək, bu mövzularda qarşılıqlı təcrübələrdən faydalanmaq, yeni investisiyalara təşviq etmək, üzvlərinin müvafiq özəl və rəsmi təşkilatlarla münasibətlərinin effektiv şəkildə həyata keçirilməsini təmin etmək məqsədi ilə mərkəz olaraq İstanbulda qurulmuşdur.

Hazırda Azərbaycan və Türkiyə arasında həm hüquq, həm iqtisadi layihələr üzərində işləyirəm. Çox yaxında yeni layihələr və uğurlu xəbərlərimizi yenə Sizinlə paylaşacağam.

**İnşallah-uğurlar olsun.**
**Sizə və "Azərbaycan-Türkiyə" jurnalınıza da uğurlu fəaliyyətlər arzulayıram.**

***Amil Abbasov***

# Öncə Vətən, sonra sən... incimirsən, qurban olum, ay ana?

**-Niyə inciyirəm, ay bala... sən bir tikə yaşından, gözlərimizin qabağında, hər bir hərəkətinlə Vətənin xilasına hazırlaşmırdın-mı?! Qubadlını özüm xilas edəcəm. Bayrağımızı da ən hündür zirvədən özüm asacam, demişdin.**





Verdiyi sözə də əməl etdi, 6 aylıq Hüseyn balasının adını da bayrağın bir ucuna yazıb Vətən göylərinə ucaltdı...Ali Baş Komandana Qubadlının azad olunduğunu məruzə edən heyətdə Fərrux Həşimov da var idi.

Həyat yoldaşı Fərqiyyə Həşimova:

-Baş qoyduğu məzarı ilə evimizin arası heç 5 dəqiqəlik yol deyil. O qədər yaxınıq ki, di gəl bu qədər dərdindən ölənləri qovuşa bilmir ona...Onun dünyasına düşəndə elə xoşbəxt oluram ki...Elə ki, xəyaldan ayrılıram yoxluğu məhv edir məni...Niyə axı, bu uşaqları bu qədər özünə öyrətdin, Fərrux?! Özləm və Sərxan hər gün səni soruşurlar. Necə olar ki, əmi gəlməsin?..Onlar həyatdan atasızlıq zərbəsini almışdılar, bununla barışmışdılar. Amma səndən ayrılığı çəkə bilmirlər. Balam deyə əzizlədiyin Özləm üçün evə psixoloq gəlir.

Bu həm mənim, həm də Fərruxun ikinci evliliyi idi. Nə mən tərəf, nə də onun tərəfi bu evliliyə razı deyildilər. Validenylərim - iki uşaqla nə ailə qurmaq, - deyib durmuşdular. O tərəfdən də narazılıqlar var idi. Hamısını Fərrux əhdindən dönmədən həll etdi. İnsanlığı ilə mənə də özünü elə sevdirdi ki...bütün qohum-əqraba, tanıyıb-bilənlər də eləcə sevdilər, qəbul etdilər Fərruxu. Uşaqlarıma əsil ata qayğısı ilə özgüvən verdi. İndi əmi hanı deyə aram tapa bilmirlər. Hüseyn iməkləyə-iməkləyə əlini uzadıb divardakı şəklini istəyir, səs-küy salır, almasa əl çəkmir, sonra da öz dilində qığ-bığla şəkillə danışır. Elə xoşbəxt, elə bəxtəvər idim ki...bütün qayğılarımızı üzərinə götürüb, yetər ki, nəsə istəyindeyirdi. İşdə də hamının Fərruxa böyük hörməti var idi. Silahlı Qüvvələrdə bir yerdə işləmişdik,



dum, peraşki mama, kotlet mama, sənə qurban olum, ay bala. (Gözlərinin yaşına qurban, Cəmilə ana...)

Fərqiyyə:

-Evdə hamımıza ad qoymuşdu, Matroşkin deyən kimi Hüseyn boylanıb gülürdü üzünə, qızıma Krujok deyirdi...O qədər şən, zarafatcıl idi ki...Çöldə-bayırda ciddi, evdə deyib-gülən. Yayda paraşütdən tullananda ayağı zədələnmişdi, ayaqqabılarını da güclə geyinirdi. Nə qədər həkimə get desəm də, getmədi ki, birdən müharibə başlar, məni ayağıma görə müharibəyə aparmazlar. Hər axşam ayağını evdə müalicə edir, ağrıdan yata bilmirdi. Bir dəfə ağrılı ayağını qucaqıma alıb dərmanla massaj elədiyim yerdə yuxuya getdi. Səhərə qədər tərpənmədim ki, oyanar. Onsuz da yata bilmir, heç olmasa indi yatsın. Səhər özünü günahlandırırdı. O mənə qıymırdı heş bir çətinliyi, mən də ona. Sevinə-sevinə getdi müharibəyə, -nəhayət yetişdi mənim günüm-sözləri qulaqlarımdadır. Ya şəhid qayıdacam, ya da əlimi-ayağımı yurduma qurban verəcək qazi kimi dönəcəm.

Cəmilə ana:

-Mənim Cənnətlik anam, burda görüşməsək də, Cənnətdə bir yerdəyik. Hər zəngləşəndə, bala, özünü qoru deyəndə,-ana, sən dua elə ki, vəzifəmizi tez yerinə yetirək, 30-u oktyabrda zəng eləmişdi, danışdıq, 31-də ölüm xəbəri gəldi...Cəmi 32 il yaşadı.

1988-ci il martın 24-də Fərrux dünyaya göz açanda Qərbi Azərbaycandan ölüm-zülüm köçləri yollardaydı. Qarabağ barıt çəlləyinə dönmüşdü. Ağlı kəsəndən el-obanı qaçqın-köçkün, ata yurdlarını əsir gördü. Valideynlərinin yanında topdağıtmaz evlərindən sonra yataqxanalara sığınan qohumları ziyarət etdikcə böyüyüb elə güclü olacam ki, torpaqlarımızı özüm alacam həsrəti ilə tez böyümək istəyirdi. Odu məktəbə də yaşından əvvəl gedir. Orta məktəbi bitirməyə səbri çatmır, Naxçıvanski adına Hərbi Liseyə qəbul olur. Pillə-pillə hərbinin ən çətin, cavabdeh ön xəttinin ağır-ağır dərslərini alır. Xarici ölkələrdə təlimlər keçir, Azərbaycan Ordusunun Hərbi Dəniz Qüvvələrinin "Sualtı Hücüm (SAH) Xüsusi Təyinatlı Qüvvələrinin kapitan-leytenantı olan Fərrux Həşimov artıq özü igidlərini yetişdirməyə başlayır. Elə özü ruhda olan bir gözəli həyatının xanımı edir. Hüseyni dünyaya gəlir, ailəsini kirayələrdən öz damı altına yığır. Evinin ən adi əşyasından divar kağızına qədər hər şeyi ömür-gün yoldaşının seçimi ilə alır. O evdə məndən çox sən yaşayacaqsan, hər şey ürəyincə olmalıdır xahişi ilə onu da dükan-bazara dartıb əyər-əskikləri düzəldir. Və Qarabağının xilasına, Vətən torpaqlarını əsirlikdən qurtarmağa gedir. Cəbrayıldan başlayan döyüş yolu qələbə ilə Füzulidən keçir. Heç vaxt görmədiyi ata yurdu

ordan tanış olmuşduq. Mən də hərbçiyəm, snayperəm. Yenidən ailə qurmağı da heç ağlıma gətirmirdim. Müsbət keyfiyyətləri ilə necə könlümə girdisə razılaşdım və dünyanın ən xoşbəxt qadını oldum. Bir kəlmə sözlə də incitmədi məni.

Fərruxun anası Cəmilə Adil qızı:

-Uşaqlıqdan belə idi. Hamıya, hər kəsə diqqətli, kömək eləyən, qayğıkeş, kimsəni incitdiyi, xətrinə dəydiyi yadıma gəlmir heç. Hər günü, hər anı yadımdadır. Gözlərimin qabağındadır balam. Birinci sinifə tez getmişdi, yaşı çatmırdı, odu, möhkəmcə imtahana çəkdilər uşağımı, şeir dedirtdilər, hamısı Vətənə aid idi. Mahnı oxutdurdular-onlar da hərbi mahnılar oldu. Həvəslə məktəbə götürdülər, əla oxuyurdu,- ya hərbçi, ya da tarixçi olacağam-deyirdi. Bir gün gəldi ki, ana, iczə ver, Naxçıvanskiyə oxumağa gedirəm.

-Get dedim, bala.

Oranı bitirdi, -Hərbi Akdemiyaya gedirəm-dedi, özü də dənizçiliyə. Oranı da başa vurub leytenant adı qazandı, sonra kəşfiyyata, Hərbi Dəniz Qüvvələrinin Xüsusi Təyinatlılarının sırasına üz tutdu. 2 il getdi-gəldi, bir dəfə ayağı qırıldı, bir dəfə qolu sındı, axır ki, istədiyinə çatdı. Hər işin çətinliyinə gedən idi. Vətənini çox sevirdi. Müharibəyə gedəndən evə zəng edəndə deyirdi:

-Ana, çoxlu dua elə ki, tezliklə qələbə çalaq, müharibəni zəfərlə bitirək, torpaqlarımız düşməndən xilas olsun. İtgilərimiz az olsun. Çox inamcıl idi.

–Dərmanların varmı, çətinliyin yox ki, mənim mişko mamam. Dolma bişirəndə dolma mama olur-



Qubadlı üçün atası Mirzəmməd kişiyə, anası Cəmilə xanıma, uşaq yaşlarında balaca Fərruxa-özünə söz verdiyi kimi, döş cibində ürəyinin başında gəzdirdiyi Azərbaycan bayrağını nəhayət ki, ata yurduna dikir. Fərqiyyəsinə zəng edib, Allahım mənə bu şansı verdi, həyatımın ən böyük arzusuna çatdım. Bu mənim uşaqlıqdan varlığımın mənası olan, mənimlə böyüyən ən böyük arzum-diləyim idi. Yaradan bu qələbə uğrunda vuruşu, bayrağımı yurduma dikməyi mənə ata eldi-elə xoşbəxtəm ki...Qubadlıdan sonra Xocavənd uğrunda döyüşlər, Qırmızı Bazar istiqamətində düşmən gülləsi qəhrəmanımızı nişan alır.

-Həyat yoldaşım sevdiyim peşəmlə vuruldu. Silahlı Qüvvələrdə dərs deyəndə işimi çox bəyənmişdi, snayper gülləsinə də tuş gəldi Fərruxum.

Vətən müharibəsinə qədər Fərrux Həşimovun "Qüsursuz Xidmətə görə" medalı daxil "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" Yubiley medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 95 İlliyi" Yubiley medalı, "Azərbaycan Silahlı Qüvvələrinin 100 İlliyi" Yubiley medalı,




ölümündən sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə Azərbaycan Silahlı Qüvvələrinin kapitan-leytenantı, Vətən müharibəsinin şəhidi Fərrux Həşimov "Qarabağ" Ordeni, "Vətən Uğrunda" Medalı, "Cəbrayılın Azad Olunmasına Görə" Medalı, "Füzulinin Azad olunmasına Görə" Medalı, "Xocavəndin Azad Olunmasına Görə" Medalı, "Qubadlının Azad Olunmasına Görə" medalı ilə təltif edilir.

Cəmi 32 il...bu qısa ömürə sığdırdı bütün arzularını, üzərinə götürdüyü görəvlərini...Fani dünya deyilən zaman çərçivəsini-Əbədiyyət Ömrünə çevirdi, Şəhidlik zirvəsinə ucaldı. 33 yaşının tamamı 2021-ci il martın 25-də qəhrəmanımızın adına bulağın açılışı oldu. Hüseyninin yaşı tamam oldu, artıq Mirzəmməd babasının əlindən tutub həyatda ilk addımlarını atır, möhkəm olsun, uğurlu olsun... Özləmlə Sərxanı onun şərəfinə dərslərində birinci olacaqlarına söz veriblər. Ailə "Fərrux Həşimovun evi" yazılan qapılarından onun adına gələn qonaqları qarşılayıb yola salmaqda... Fərrux Həşimov və onun kimi haqq-ədalət, Vətən Aşiqi şəhidlərimizin, qazilərimizin qəhrəmanlığı fəxarətlə dillərdə dastan olmaqda, kitablar yazılıb, dərgilər basılmaqda.

Yenilməz igidlərimiz, sizlərdən hələ o qədər deyiləcək, o qədər yazılacaq, o qədər danışılacaq ki... Qəhrəmanlığınızdan yazılacaq daha bir kitabın ilk səhifəsinə Bismillahla, Ruhunuza Fatihələr deyibən başladıq... Onlar Vətənin xilası üçün doğulmuşdular, Vətən yaşasın, düşmənlərdən qurtulsun deyə bu yolda da əbədiyyətə qovuşdular...

***Zərnişan Turan***



# İKİ DEVLET TEK MİLLET

Aynı kökten doğmuşuz soyumuz Oğuz bizim,
Aynı sancak altında tuğumuz dokuz bizim,
Türklüye ilham veren çalgımız kopuz bizim;
Bu dostluk bu kardeşlik sürecek ilelebet,
Kıyamet kopana dek iki devlet tek millet.

Koç Köroğlu bizimdir, kardeşi Ayvaz bizim,
Şahta Baba bizimdir, Atamız Ayaz bizim.
Dedem Korkut dilinde en güzel niyaz bizim;
Geçmişte beraberdik gelecek bizim elbet,
Kıyamet kopana dek iki devlet tek millet.
Gence menem, Muş menem,
Simurg menem kuş menem,
Bu gardaşlıg yolunda
Yakılan ataş menem.

Bakü'de rüzgâr esse İstanbul'da yar üşür,
Aras'ın suyu üşür, Karabağ'da kar üşür,
Kardeş hasreti çeken bir garip diyar üşür;
Bu ayrılık bu hicran bulacaktır nihayet,
Kıyamet kopana dek iki devlet tek millet.

Aynı teli titretir Nizami'nin sözleri,
Aynı kaynaktan akar umudun alın teri,
Bir Türkmen balasının ufka bakan gözleri;
Yarına koşmak için alacak bizden kuvvet,
Kıyamet kopana dek iki devlet tek millet.

Gövde  menem baş menem
Esastaki taş menem
Bu yas için ağlasan
Gözündeki yaş menem
Marmara'da seyr edip garba dalan güneşi,
Hazar'dan mı sormalı eşi, dostu, kardeşi?
Destanlardan yonttuğum on bin yıllık ateşi;
Sonsuza dek yakacak bu asil güç bu gayret,
Kıyamet kopana dek iki devlet tek millet.

Bayrakları süsleyen yıldızlar bir, hilal bir,
Beşikte belediğim efsane bir masal bir,
Kirpikteki gözyaşı yürekteki melal bir;
Atamdan miras bize bu güzellik asalet
Kıyamet kopana dek iki devlet tek millet.

Bulak menem göz menem,
Nizami'den söz menem,
Kulak ver üreğine,
Könüldeki köz menem.

***YUNUS KARA***

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN yaranmasında siyasi məktəbin rolu

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması siyasi məktəb olmadan mümkün deyildi. 19-cu əsrin sonlarında siyasi məktəbi tarixi zərurətə çevirən başlıca səbəb Rusiya imperiyasının müstəmləkəçilik siyasətini get-gedə daha çox sərtləşdirməsi, müsəlman türklərinin hüquqları ilə açıq-aşkar hesablaşmaması idi. AXC qurulandan sonra parlament sədri kimi Türkiyədə danışıqlar aparan Əlimərdan bəy Topçubaşov həmin dövrü belə xarakterizə edirdi: "Azərbaycan türkləri... müstəqil sosial-siyasi həyat barədə düşünməkdən və buna can atmaqdan heç vaxt əl çəkməmişlər. Loyal olmalarına baxmayaraq, ruslara arzuolunmaz millət kimi təqdim olunmaları, çar Rusiyasının azərbaycanlılara xoşagəlməz münasibəti buna güclü təkan vermişdir".Əslən Gəncədən olan, Cümhuriyyətin xaricdə təhsil almağa göndərdiyi 100 tələbədən biri- İsmayıl Saryal illər sonra bu mənzərəni müəllifi olduğu xatirə kitabında belə təsvir etmişdi: "Bir vaxtlar Gəncə böyük əhəmiyyətə malik idi. Şəhər türklüyün mərkəzinə çevrilmiş, ziyalıların və qabaqcıl fikirli adamların əksəriyyəti burada toplaşmışdı. Aralarında rus idarə üsulunu bəyənməyənlər, milləti-ni azadlığa çıxarmaq istəyənlər vardı... Həmin adamlar rus məmurları tərəfindən uzaqdan və ya yaxından tanınır, fəaliyyətləri izlənir, ən kiçik tərpənişin qarşısı dərhal alınırdı".

Bu acınacaqlı mənzərə, təkcə, azərbaycanlılara deyil, imperiyanın "ucqarlar" deyib aşağıladığı ərazilərdə yaşayan bütün müsəlman türklərinə aid idi. Mövcud vəziyyəti dəyişmək, insan hüquqlarının müdafiəsi, milli müstəqilliyin əldə edilməsi, millətin mövcudluğunun qorunub saxlanılması üçün siyasi-ideoloji mərkəzin mövcudluğu vacib idi.

Həmin dövrdə siyasi məktəb ideyasını Azərbaycanda və ya imperiyanın müstəmləkəsi olan hər hansı bir ərazidə reallaşdırmaq mümkün deyildi. Çünki bunun üçün hər hansı millətin içində ayrı-ca fəaliyyət göstərməyə qadir olan kifayət qədər ziyalı təbəqə for-malaşmamışdı. Siyasi elitanın qüvvələrini birəlşdirməsinə tarixi zərurət yaranmışdı. Həmin dövrdə, dünyanın siyasi müstəvisindən xəbərdar olan millət yanğılı dərin zəka sahibləri- İsmayıl bəy Qaspralı, Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov kimi nəhəng şəxsiyyətlər səyləri birləşdirməyin vacibliyini dərk etdilər və bunu siyasi məktəb səviyyəsinə qaldıra bildilər. Onların hər biri siyasi lider idi. Çünki bütün fəaliyyətlərini tarixin gedişində dönüş yaratmağa yönəltmiş və buna nail olmuşdular. Bu səbəbdən Azərbaycan tarixində siyasi liderliyin ilk nümunəsi də məhz onlara aiddir.

Siyasi məktəbin baniləri 20-ci əsrin ikinci yarısında bütün bəşəriyyətin geninə-boluna bəhs edəcəkləri demokratiya, qlobal-laşma anlayışlarını uzaqgörənliklə dərk edir və milli azadlığa qovuşmağın yollarını müəyyənləşdirmək üçün həm nəzəri, həm də əməli baxımdan ciddi addımlar atır, əl-ələ, çiyin-çiyinə verib siyasi məktəbin bünövrəsini qoyurdular. Nəyi necə qurmaq lazım gəldiyini həm zaman, həm dünya təcrübəsi, həm də ayrılıqda və bütövlükdə şəxsiyyətlərin müəyyənləşdirdiyi istiqamətlər diqtə edirdi. Əslində milli qurtuluş düsturunu ilk əvvəl İsmayıl bəy Qaspralı kəşf etmişdi: "Dildə, fikirdə, işdə birlik!" Bu kəlam tərəqqi yolu seçən hər bir millətin konstitusiyasına bərabər tutula biləcək dəyərdə idi. Fərq burasında idi ki, həmin deyim bir millətin deyil, bütün müsəlman dünyasının nicat və tərəqqi yoluna işıq salmaq üçün düşünülmüşdü. Bu, gələcəyə daha qlobal baxışın təzahürü idi. Tarixi məramı və məsuliyyəti üzərlərinə götürən lid-erlərin özləri bu düsturun canlı nümunələri idilər. Onların dil, fikir və əməl birliyi siyasi məktəbin həm qurulmasına, həm də fəaliyyətinə güclü təkan verdi. Fikrimizcə, bu məsələnin həllində səylərini birləşdirən aydınların uyğun şəxsi keyfiyyətləri və



***İsmayıl bəy Qaspiralı, Həsən bəy Zərdabi və Əlimərdan bəy Topçubaşov. Bakı. 1907***

mövqeləri mühüm rol oynamışdı. Bunları belə sistemləşdirmək olar:

**1. Yüksək təhsil və dünyagörüşü**
**2. Əqidə, məslək və əməl birliyi**
**3. Vətənpərvərlik**
**4. Siyasi strategiya və taktikanın düzgün müəyyənləşdirilməsi**
**5. Çoxşaxəli ictimai-siyasi fəaliyyət**
**6. Milli və dini ayrı-seçkiliyə qarşı barışmaz mövqe**
**7. Fədakarlıq**
**8. Mübarizlik**
**9. Dürüstlük**
**10. Şəxsi nümunə göstərmək iqtidarı**

Siyasi məktəbin özü, məramı və baniləri bəlli olsa da, əhatə dairəsi bütün türk-müsəlman dünyası idi. Ədalətli cəmiyyət qur-maq üçün siyasətçilər hazırlamaq lazım idi. Siyasi məktəbin quru-cularının hər biri öz ixtisaslarının peşəkarı olmaqla yanaşı, istedadlı qələm sahibi, publisist, maarifçi, pedaqoq, naşir, natiq idilər, bir neçə dil bilirdilər və bütün sahələrdə paralel fəaliyyət göstərirdilər. Siyasi liderlər buna həm məcbur idilər, çünki qüvvə çox az idi, həm də bunu sidq-ürəkdən edirdilər, çünki vətən, millət təəssübü çəkmək, xalqa təmənnasız xidmət etmək kimi müqəddəs duyğular hər birinin qəlbinə və ağlına hakim idi. Onların sələfi M.F.Axundzadənin vaxtilə özü barədə dediyi fikri bu şəxsiyyətlərin hər birinə şamil etmək olardı: "Mən xalq işi yolun-da mübarizəyə girişmiş bir adamam. Bu mübarizədə qarşıya olmazın çətinliklər çıxır, lakin mən məsləkimdən əl çəkən dey-iləm. Odur ki, bir təşəbbüs baş tutmayanda, başqa bir işə, başqa bir mübarizə üsuluna müraciət etməli oluram".

20 milyonluq Rusiya müsəlmanlarının, əslində isə bütün türk-müsəlman dünyasının lideri İsmayıl bəy Qaspralı siyasi məktəbin qurucusu kimi çox böyük işlər görmüş, bütün ömrünü türk-müsəl-man millətinin oyanmasına sərf etmiş, bu yolda şəxsi vəsaitindən başlamış, hər cür fədakarlığa, fasiləsiz ictimai-siyasi fəaliyyətə qədər heç nəyini əsirgəməmişdi.

Siyasi məktəbin baniləri fəaliyyətlərini ümumbəşəri, ümumtürk, ümummüsəlman mövqeyindən həyata keçirir, milli düşüncəni müstəqillik ideyalarına yönəldirdilər. Onlar bütün mil-lətlərə eyni sayğı ilə yanaşırdılar. Dinə münasibətləri də müsbət idi. Amma hamısı fanatizmə, xalqın avamlığından sui-istifadə



*Əlimərdan bəy Topçubaşov Paris Sülh Konfransında iştirak edən Azərbaycan nümayəndə heyətinin toplantısında. Paris. Hôtel Claridge.1919*

edən hoqqabazlara qarşı barışmaz mövqedə dayanırdı. Tam 25 il ortaq türk dilində nəşr olunan, türk-müsəlman dünyasının maariflənməsinə, öz hüquqlarını dərk etməsinə xidmət edən "Tərcüman" qəzeti 23 may 1883-cü il tarixli nömrəsində bu fikri ifadə edərək yazırdı: "Quran" və maarifləndirmə bir-birinə mane olmur, tamamilə əksinə... Ruhumuzun rahatlığı üçün "Quran", bədənimizin rahatlığı üçün bilik lazımdır.

Rusiyanın ərazisinə qatılan uzaq türk-müsəlman elləri ilə yanaşı, İrana, Türkiyəyə, Tunisə, Əlcəzairə, Hindistana, Pakistana, Çinə qədər gedib çıxan, Avropanı gəzən İsmayıl bəy dili və təhsili olmayan müsəlmanların məhvə doğru getdiyini dərk etdiyi üçün yazırdı: "İnsanın əlindən milliyyətini almaq, onu vicdan azadlığından məhrum etmək ... ailəsini dağıtmaqdan heç də az zorakılıq deyil...".

Millətlərin hüquq bərabərliyinin, müstəqilliyinin təmin edilməsi məqsədi ilə yaradılan siyasi məktəbin hədəfləri konkret prinsiplər əsasında müəyyənləşdirilmişdi. Həmin prinsipləri belə sistemləşdirmək olar:

**1.İnkişaf etmiş ölkələrin təcrübəsindən bəhrələnmək**
**2.Maarifləndirmə**
**3.Mətbuatın gücündən istifadə etmək**
**4.Siyasi fəallıq**
**5.Siyasi təşkilatlanma**
**6.Siyasi mədəniyyətin formalaşdırılması**
**7.Siyasi liderlərin və siyasətçilərin hazırlanması**

Yüksək təhsilə, sağlam düşüncəyə və zəngin dünyagörüşünə malik olan müstəqillik ideyasının müəllifləri və liderlərinin mövqeyi belə idi ki, imperiya buxovlarından xilas olmaq üçün tərəqqi yolu ilə addımlayan millətlərin müsbət təcrübəsindən bəhrələnmək mühüm əhəmiyyət kəsb edir. Avropa təcrübəsindən bəhs edən İ. Qaspralı yazırdı: "Bura məktəbdir-dedilər, içəri girdik. Böyük-böyük otaqlar gördük. Birində kitabxana yerləşirdi, o birində torpaq işlərini öyrənmək üçün hər növ alət var idi... Burada kənd həyatı üçün lazım olan sənət və əl işləri də öyrədirlər. Qızlar isə oxuyub-yazmağı biləndən sonra ev işləri, tikiş, naxış örənir, analıq üçün gərək olan bilgilərə yiyələnir, sağlamlıq dərsləri keçirlər".

Göründüyü kimi, gələcək nəslin təhsil alması ilə yanaşı, həyata hazırlanması da təqdir edilirdi. Cəmiyyət üçün yararlı insan, vətəndaş yetişdirmək işində bunun da mühüm şərt olduğu diqqətə çatdırılırdı. Və ya elmin vacibliyi bu cür əsaslandırılırdı: "Elm padşahları da şərəfləndirir. Teymurləngin topal olması və axsaqlığı dünyanı zəbt etməsinə əngəl olmamışdır. Axsaq Teymur bəsirətsiz, gözsüz, elmsiz, irfansız biri də deyilmiş. Əgər elə olsa idi, dünyanın yarısına sahib ola bilməzdi. Cəhalətlə zəfər və qəhrəmanlığın ortaya çıxması mümkün deyildir". "Bir dövlət ya da millət yox olacaqsa, ən əvvəl elmsiz və irfansız qalır. Bu hali ilə qoyun kimidir xalq". Siyasi məktəbin yetirmələri də baniləri kimi reallığı dəyərləndirməyi bacarır, nəyin əxz olunmasının vacib olduğunu ayırd edə bilirdilər.

İsmayıl bəy Qaspralının yetirməsi, gələcəkdə AXC-nin baş naziri olan Nəsib bəy Yusifbəyli sonralar evlənəcəyi Şəfiqə xanıma 6 iyul 1904-cü il tarixli məktubunda üç tələbə yoldaşı ilə birlikdə Yelizavetpol quberniyasındakı alman kəndlərindən birində gördüklərindən yazırdı: "Burada almanların qurduqları koloniyada evlər Avropadakı kimi yaraşıqlı qotik üslubda tikilib. Küçələr düm-düzdür... Əhali arasında oxuyub-yazmağı bilməyən yoxdur. Maddi vəziyyətləri ilə maraqlanmaq istəsən, Yelizavetpol (Gəncə) quberniyasının bəlkə də yarısı onlarındır. Şərab və pivələrini Rusiyanın hər yerində satırlar".

Nəsib bəy almanlar arasında təhsilsiz insana rast gəlmədiyini vurğulayarkən, təbii ki, həm qeyri-millətin müsbət cəhətlərindən nümunə götürməyin, həm də siyasi məktəbin ikinci vacib hədəfi olan təhsil və maariflənmənin vacibliyini diqqətə çatdırırdı.

Təhsil insanların düşüncə tərzini dəyişmək yolunda mühüm amil idi. Rusiya imperiyasının əsarəti altında hər cür hüququ tapdanan Azərbaycan bu cəhətdən çox-çox geridə qalmışdı.

Avropanı, Asiyanı qarış-qarış gəzən, dünyadakı yenilikərdən xəbərdar olan İsmayıl bəy Qaspralı Krımda üsuli-cədid məktəbləri açmaqla xəyalı həqiqətə çevirdi. Özü dərsliklər yazdı, özü müəllim kimi fəaliyyət göstərib yeni bir müəllim ordusu yetişdirdi. Əlimərdan bəy Topçubaşov yazırdı ki, Qaspralı məktəblərinin şəbəkəsi bu gün, təkcə, Rusiya müsəlmanlarını deyil, xarici ölkələrdə yaşayan müsəlmanları da əhatə edir.

Milli nüstəqillik uğrunda mübarizəni başlıca strategiya hesab edən siyasi məktəbin baniləri qadınların maariflənməsini ictimai-siyasi həyata inteqrasiyanın mühüm amili hesab edirdilər. İsmayıl bəy Qaspralının qızı Şəfiqə xanımın Şərqdə ilk dəfə "Aləmi-nisvan"("Dünya qadınları") adlı jurnal buraxması həmin strategiyanın prinsiplərinə xidmət edirdi. "Aləmi nisvan" jurnalınının ilk nömrəsinin çapdan çıxması münasibəti ilə "Tərcüman" yazırdı: "Jurnalda başqa ölkələrdə yaşayan qadınların həyat və fəaliyyəti, dövlət və mənəvi qanunlar, müsəlman qadınlarının hüquqları, evdarlıq, uşaqların tərbiyəsi, əl işləri və xalçaçılıqla bağlı tövsiyələr, ədəbiyyat, tarix və coğrafiya ilə bağlı illüstrasiyalı xəbərlər öz əksini tapacaq..." Qəzet daha sonra yazırdı ki, bu jurnal çox tez populyarlıq qazandı. Artıq onu, təkcə, Krımda yox, Misirdə, Türküstanda, Hindistanda, hətta Yaponiyada da oxuyurlar.

Beləliklə, üsuli-cədid məktəbləri kimi, görülən hər bir səmərəli işdən bütün müsəlman dünyasının bəhrələnməsinə və faydalanmasına imkan yaradılırdı. Bu çox düzgün siyasi strategiya idi. "Tərcüman" bütün buraxılışlarında bu strategiyanı yoluxdurmağa çalışırdı və buna da nail olurdu. Qəzet 14 noyabr, 1905-ci il nömrəsində yazırdı: "Bu yaxınlarda Bağçasarayda açılan kitabxananın oxu zalına gələn müsəlmanların sayı artıb. Hər gün zalda oxuyan, yaxud söhbət edən 50-60 oxucu görmək olar". Təsadüfi deyil ki, maariflənmə dalğası digər bölgələrlə yanaşı Azərbaycana da gedib çıxmışdı. İsmayıl Saryalın "Bakı rüzgarı" kitabında həmin məsələ belə ifadə edilir: "Həmid Yusifbəyli (Nəsib bəy Yusifbəylinin qardaşı-Q.X.) hökumətdən icazə alıb bəzi yoldaşlarıyla birgə mətbəə açdı. Xalqın maariflənməsinə fayda verəcək kitabları və jurnalları türk dilində çap edib ya maya dəyərinə, ya da pulsuz olaraq camaata paylamağa başladılar. Fəaliyyətləri qısa müddətdə genişlənib əhali tərəfindən rəğbətlə qarşılandı".

Maarifçilik hərəkatına qoşulmaq asan başa gəlmirdi. Xalqın oyanması imperiyanın siyasi maraqlarına zidd olduğu üçün ciddi cəza tədbirləri görülür, lakin axının qarşısını tamamilə almaq mümkün olmurdu. Həsən bəy Zərdabi bu yolu tutanları çətinlikdən qorxmamağa, ruhdan düşməməyə çağırırdı: "Ey elm, təhsil edən cavanlarımız! Doğrudur, bizim vətən qardaşlarımız ilə üns tutmaq çətindir, siz danışdığınızı onlar başa düşməyib əhvalınızı şəriətə namüvafiq hesab edib, sizə kafir deyib incidəcəklər. Pəs ləzzəti-dünyaya tamah etməyib öz qardaşlarınızı əməli-xeyrə vadar edin, qoy şüaralar sizi həcv etsin, mollalar lənət oxusun, əvamünnas daşa bassın, siz millət üçün zəhmət çəkirsiniz və bişək gələcəkdə millətin gözü açılanda sizi şəhid hesab edib, sizə rəhmət oxuyacaq."

Azərbaycanda bu tarixi məsuliyyəti Həsən bəy Zərdabi öz



*Paris Sülh Konfransı üçün Parisdə olarkən Əlimərdan bəy Topçubaşov*

öhdəsinə götürmüşdü. Həsən bəy şəxsi mənzilində pansionat açır, hər il on nəfər azərbaycanlı uşaq bu pansionata qəbul olunur və gimnaziyaya daxil olmaq üçün hazırlanırdı. H.Z.Tağıyevin təşəbbüsü və maliyyə dəstəyi ilə 1901-ci ildə Bakıda açılan Qızlar məktəbi, müsəlman gənclərinin təhsilinə kömək məqsədi ilə ilk xeyriyyə cəmiyyətinin təşəbbüskarı, ilk milli teatrın yaradıcısı Həsən bəy Zərdabinin maarifçilik fəaliyyətində növbəti mərhələ oldu.

O dövrdə teatr maarifçiliyin bir qolu kimi fəaliyyət göstərir, savadsız təbəqə üçün məktəb rolunu oynayırdı. Avam millətin milli mənlik şüurunu oyatmaq üçün mədəni-kütləvi tədbirlərdən, xüsusən də teatrın imkanlarından geniş istifaə olunurdu. Teatr dolayısı ilə siyasətə xidmət edirdi. Bu məqsədlə uğurlu repertuar seçilir, bir sıra mətləblər onun köməyi ilə tamaşaçı kütləsinə ötürülürdü. Kimin əsərinin harada tamaşaya qoyulması elə bir əhəmiyyət daşımırdı. Əsas məsələ tamaşaların insan psixologiyasına, milli hüquqların dərk edilməsinə təsir etməsinə nail olmaq idi. Bu zaman gələcəyin siyasi simaları siyasi uğurlar naminə aktyorluq etməkdən belə çəkinmirdilər. Bu, ayrı bir fədakarlıq idi. Nəticəsini də verirdi. “Tərcüman”ın 17 yanvar 1906-cı il nömrəsində yazılır ki, yanvarın 13-də Bağçasarayda ilk dəfə Əbdürrəhim bəy Haqverdiyevin “Dağılan tifaq” əsəri tamaşaya qoyulub. Nəsib bəy Yusifbəyli Nəcəf bəy rolunda çıxış edib.

“Azərbaycan türk teatrosunun müxtəsər tarixçəsi” kitabında yazılır ki, “Dağılan tifaq” pyesində Nəcəf bəy rolunu ilk yaradan N. Nərimanov olub və onun bu rolu indiyə qədər türk səhnəsində görünməyib”.

“Tərcüman” qəzetinin 11 dekabr 1883-cü il tarixli sayında dərc olunmuş “Nuxadan məktub” məqaləsində isə daha maraqlı detallar var: “Şıxlinski və Əmircanovun təşəbbüsü və müsəlman gənclərinin iştirakı ilə tatar dilində M.F. Axundovun “Hacı Qara” əsərinin tamaşası göstərilib... Tamaşadan yığılan 162 rubl vəsait oxuyan gənclərin təhsilinə yönəldilib”.

Tək bu xəbərdə milləti qəflətdən oyatmağa səsləyən neçə-neçə vacib mesaj var. Tamaşanın ideyası və təsir gücü öz yerində, gənclərin təhsil almasının təqdir olunması, onlara yardımın vacibliyi və xalqın bu yardıma səfərbər edilməsi, üstəlik bunun qəzetdə dərc edilməsi xalqı oyatmaq spektrlərinin nə qədər zəngin və düşünülmüş olduğunu aydın göstərir.

Siyasi məktəbi idarə edən bütün ziyalılar həm bir-birindən öyrənir, həm də bir-birinə dəstək verirdilər. Bu, siyasi məktəbin üçüncü hədəfi olan mətbuatın gücündən istifadə etməkdə də özünü göstərirdi. Siyasi liderlərin fikrincə, geridə qalmış, daha doğrusu, buna məhkum edilmiş müsəlmanların şüurunda inqilab etməyin ən böyük vasitələrindən biri qəzet idi. Bu yöndə Həsən bəy Zərdabinin “Əkinçi” qəzeti Şərqdə inqilabi-siyasi düşüncənin rüşeymini yaradan ilk mətbuat orqanı oldu. “Əkinçi” “Şərq Qərb” məqaləsində yazırdı: “Məşriqdə elm və ədəb artıq idi. Məğrib, yəni Avropa əhli onların elm kitablarını gətirib öz dillərinə tərcümə edib uşaqlarına oxutmaq ilə bir qərinədən sonra tərəqqi edib, təzə elmlər ixtira edib, əhli-islamdan çox irəli gedib, onlara hər bir yolda faiq gəldilər”.

Tərəqqinin sirrinin yaxşı olan hər şeyin qavranılıb qorunması ilə bağlı olduğunu bu qədər aydın və konkret şəkildə ifadə etmək Zərdabi qələminə məxsus bir ustalıq və siyasi yönləndirmə idi.

Hər mövzuya toxunan “Əkinçi” savadsız millətin gözünü açmaq üçün əkinçilikdən başlamış siyasətə, dünya xəbərlərinə qədər hər şeydən və hər yerdən yazılar verirdi. “Əkinçi” “Uşaqlı qadınlar” məqaləsində yazırdı: “Keçən il hakimlər Qras şəhərinə cəm olan zaman uşaqlar və övrətlərin karxanalarda fəhləlik etmələri barəsində belə yazırlar: gərək onlar gecələr və cümə günləri işləməsinlər... hamilə övrətlər yeddi həftə doğandan irəli və 8 həftə doğandan sonra gərək heç işləməsinlər.

Mətbuatın gücü və səmərəsi göz qabağında idi. Çar Rusiyası “Əkinçi”ni bağlayandan sonra Ünsizadə qardaşlarının yaratdıqları "Ziya" ("Ziyayi-Qafqaziyyə"), "Kəşkül" və s. kimi nəşrlər "Əkinçi"nin yolunu davam etdirdilər. Bu estafetin ən uzunömürlü daşıyıcısı isə İsmayıl bəy Qasprालının rəhbərliyi ilə 25 il ortaq türk dilində nəşr olunan “Tərcüman” qəzeti oldu.

Yeni ruhlu qəzet çıxarmaq, həm də ortaq türk dilində çıxarmaq ideyası Zərdabiyə məxsus idi. O, böyük ideoloq və strateq idi. İctimai-siyasi ideyaları çox uzaqgörənliklə müəyyənləşdirir və özü onun pionerinə çevrilirdi. Yenilik etməyin, model yaratmağın başında Zərdabi dururdu. Təbiət, riyaziyyat elmləri üzrə sayılıb-seçilən mütəxəssis kimi tanınması ilə yanaşı, humanitar sahəyə bələd olması onun öz siyasi strategiya imkanlarını daha bariz şəkildə ifadə etməsinə şərait yaradırdı. Vətəndə də, Vətəndən uzaqlarda da öndə gedən ziyalılar onunla hesablaşırdılar və bəhrələnirdilər. Zərdabi xalqın düşüncəsində dönüş yaratmaq üçün hər vasitədən, eləcə də bütün ictimai-siyasi vasitələrdən kompleks şəkildə istifadə etməyi məqsədəuyğun sayırdı.

Siyasi məktəbin baniləri siyasi fəallığın önündə gedirdilər. Bütün başqa fəaliyyət sahələri ilə yanaşı, İsmayıl bəy Qapralı Bağçasaray bələdiyyəsinin sədri, Əlimərdan bəy Topçubaşov Rusiya Dövlət Dumasının, Həsən bəy Zərdabi isə Bakı şəhər Dumasının üzvü kimi fəaliyyət göstərmişdilər. Onlar bütün cəbhələrdə eyni şövqlə, fədakarlıqla mübarizə aparırdılar. Bu səlahiyyətlər onların soydaşları ilə daha çox təmasda olmaq, siyasi məqsədləri həyata keçirmək imkanlarını daha da artırırdı. Eyni siyasi əqidə və məsləkə sahib olan şəxsiyyətlər müstəqilliyin ictimai-siyasi dayaqlarını qururdular. “Güc birlikdədir” kəlamının ən səmərəli nəticə verdiyi dövr, bəlkə də, həmin illərə daha çox aiddir. Təqiblər, həbslər onları öz yollarından döndərə bilmirdi. Sonralar AXC-nin parlament sədri Əlimərdan bəy Topçubaşovun yazılarında bu mövqe çox dəqiq ifadə olunurdu. 1918-ci il noyabrın 8-də Türkiyənin Maliyyə naziri Hüseyn Cavid bəyin: “Deməli, Siz inqilabçısınız! Rusiya Dövlət Dumasının üzvü olmusunuz” fikrinə, Əlimərdan bəy Topçubaşov: “Bəli Dumanın üzvü olmuşam - deyir. Amma inqilabçı deyiləm. Əsrin 4-də biri qədər mən Rusiya müsəlmanlarının, xüsusən də Qafqazın mənafeyinə xidmət etmişəm və edirəm. Buna görə, təbii ki, Rusiya hökuməti mənim başımı sığallamayıb. Bu, nəinki Nikolayın jandarmlarının, hətta bolşevik hökumətinin də xoşuna gəlməyib. “Vıborq

bəyannaməsi"nə görə Nikolay hökuməti və bolşeviklər məni həbs ediblər

Siyasi liderlərin siyasi fəallığı siyasi mədəniyyətin formalaşdırılmasına güclü təkan verirdi. Neçə on il sonra "Siyasət" haqqında elm yaranacaq, siyasi mədəniyyətin "...cəmiyyəti dərk etməyə kömək etmək, siyasi cəhətdən tərbiyələndirmək, fəaliyyəti istiqamətləndirmək və tənzim etmək kimi funksiyalar"ı müəyyən ediləcəkdi. Siyasi məktəbin baniləri bunu hələ bu elm formalaşmamışdan çox-çox əvvəl praktik şəkildə uğurla yerinə yetirirdilər.

Milli müstəqillik uğrunda mübarizə, liderlərin başlıca strategiyası idi. Və bu istər siyasi fəaliyyətin, istər çıxışların, istərsə də yazıların ana xəttini təşkil edirdi.

Siyasi gücləri birləşdirmək üçün siyasi təşkilatlanma- partiya yaratmaq da zamanın tələbi idi. Və bütün hallarda yenə də birgə fəaliyyətə üstünlük verilirdi. 1905-ci ildə Sankt-Peterburqda "İttifaqi-Müslimin" adlı partiyanın yaradılması ilə bağlı gizli yığıncaqda azərbaycanlılar da iştirak etmişdilər. İsmayıl bəy qlobal yanaşma termininin hələ heç xəyala gəlmədiyi vaxtlarda- 19-cu əsrin ikinci yarısında bütün türk-müsəlman ellərinin problemlərinə və onların çözümünə qlobal yanaşa bilmiş, bunu əməli surətdə icra etmək yolunda siyasi təşkilatlanmanın rolunu görmüş və bu sahədə həlledici addımlar atmağa nail olmuşdu. Təsadüfi deyil ki, o, silahdaşları ilə birgə, imperiya müstəmləkəçiliyində ola-ola, 4 dəfə Rusiya müsəlmanlarının qurultayını təşkil etmiş, Əlimardan bəy Topçubaşovla birgə həmin qurultaylara sədrlik etmişdi. Bu, çox böyük cəsarət və fədakarlıq idi.

Sonralar Gəncədə " Difai", "Türk ədəmi mərkəziyyət", Bakıda "Müsavat", Müsəlman Sosial-Demokrat Təşkilatı olan "Hümmət" və s. partiyalar bu amalı uğurla davam etdirdilər.

Siyasi məktəbin yaradıcıları ilə daim təmasda olan, onların ideyalarından bəhrələnən, əqidə və məsləklərindən güc alan, siyasi fəaliyyətlərində iştirak edən Rəsulzadə sonralar öz çıxışlarında bu yolun nəticələrindən danışaraq deyirdi: "...bizim istəyimiz digər millətlər üzərində ağalıq etmək, yaxud başqa millətləri susdurmaq deyil. Bizim istəyimiz digər millətlərlə birlikdə sakit və xoşbəxt yaşamaqdan ibarətdir. İnsan cəmiyyətinin üzvü olmaq və bütün millətlərlə birlikdə mədəni və tərəqqipərvər millət olmaq"dır.

20-ci əsrin əvvəllərində siyasi məktəbin hədəflərinin reallaşmasında Əli bəy Hüseynzadənin ictimai-siyasi fəaliyyəti mühüm rol oynadı. Məşhur tədqiqatçı alim Tadeuş Svyataxovski yazırdı: "XX əsrin əvvəllərində türk xalqlarına kimliyini bildirən bir nəfər var idi. O da Əli bəy Hüseynzadə idi". Əli bəy əvvəl Sankt-Peterburqda sonra isə Türkiyədə ali təhsil almış, inqilabçı "İttihad və tərəqqi" partiyasını yaradanlardan biri olmuş, böyük siyasi təcrübə keçmişdi. Əli bəy Hüseynzadənin "Türkləşmək islamlaşmaq,



***Dekabr 1919 Aslan bəy Səfikürdski, Xudadat bəy Məlik-Aslanov, Səməd bəy Mehmandarov, Nəsib bəy Yusifbəyli, Məmməd Yusif Cəfərov, Rəşid xan Qaplanov, Ağa Əminov, Camo bəy Hacınski, Nəriman bəy Nərimanbəyli***

müasirləşmək" ideyası son nəticədə milli bayrağımızın rəmzinə çevrildi və Azərbaycan vətəndaşının ideya-mənəvi dəyərlərini özündə ehtiva etdi.

AXC-nin qurulmasına zəmin yaradan siyasi məktəbin araşdırılmasının başlıca elmi nəticələrini belə sistemləşdirmək olar:

1.Azərbaycanda siyasi məktəb ənənəsinin əsası qoyuldu, modeli quruldu.

2.Siyasi məktəbin strukturunun, səmərəli idarəetmə və fəaliyyyət mexanizminin nümunəsi yaradıldı.

3.Xalqın mənafeyinə xidmət etmək naminə, vətənpərvərlik, fədakarlıq, tarixi təcrübə, həmrəylik, bəşəri dəyərlərə inteqrasiya zəminində istənilən hədəflərə çata bilməyin mümkünlüyü sübut olundu.

4.Siyasi liderlik fəaliyyəti üçün yüksək intellekt, milli mənafeyə sadiqlik, siyasi fəallıq, uğurlu siyasi təşkilatlanma, düzgün siyasi taktika və strategiya, şəxsi nümunə, inandırma qabiliyyəti və s. kimi keyfiyyətlərin vacibliyi müəyyənləşdirildi.

5.Siyasi məktəbin yetirmələrinin öhdəsinə düşən vəzifələrin, siyasi məktəbin prinsiplərinə riayət etmək, liderlərin nəzəri və praktik fəaliyyətindən nümunə götürmək, bəhrələnmək, irəli sürülən ideyaların mahiyyətini dərindən öyrənmək və onları daha da inkişaf etdirib zənginləşdirməkdən ibarət olduğu isbat edildi.

6.Siyasi fəallıq, siyasi təşkilatlanma, siyasi mədəniyyəti formalaşdırma, siyasi elita ilə işləmə metodlarının əsası qoyuldu, insanların siyasi şüuruna təsir vasitələri müəyyənləşdirildi.

7.Siyasi partiyaların modeli yaradıldı.

8.Tərəqqinin "Dildə, fikirdə, işdə birlik!" düsturu gələcək nəsillərə ötürüldü.

9. Cəmiyyətin inkişafının istənilən mərhələsində siyasi məktəbə ehtiyac olduğu və bu məsələnin tarixi təcrübə, mənəvi varislik üzərində qurulmasının daha çox səmərə verə biləcəyi əsaslandırıldı.

10.Azərbaycanda, təxminən, 100 il sonra formalaşacaq "Siyasətşünaslıq" elminə zəngin töhfə verildi.



*Qərənfil Xəlilova*
*Siyasi elmlər üzrə fəlsəfə doktoru, əməkdar jurnalist*

# Nə ola bir şadlıq zamanı gələ...

***Deyəsən agrılı bir söhbətin üstünə gəlib çıxmışdıq. Güclə, məcburən tərk edildikləri yurdunun gözəlliyindən, buz kimi suyunun min bir dərdə əlacından, gül qoxulu havasından, gözü-könlü tox insanlardan danışırdı- gözəl bir xanım, dumanlı gözləri yol çəkə-çəkə, həyətdə açılmış çay süfrəsi arxasında əyləşmiş rəfilqələrinə. Biz də onlara qoşulub, dinşək kəsildik danışılanlara.***

Göyçə gölünün cəmi 3 kilometrliyindəydi kəndimiz... Krasnoselski rayonuna bağlı Toxluca kəndi... Ordan ayrılalı bir ürəkcə şadlanıb, köks dolusu sevindiyim olmayıb heç, elə bil yalandan gülürsən, sevincinin içində kədər, şadlığın alaqəmli... Dünya alayarımçıqdı sanki məndən ötrü. Bircə yuxularım etibarlıdı. Yuxularımda burada keçən həyatımın sanki orda vaqe olduğunu görürəm... Dillər Universitetini də Toxlucada bitirmişəm elə bil. Hər gün ordan işə gedirəm. Toxlucadan təyyarələrlə xarici ölkələrə uçuram. Kitablarımı Toxluca nəşriyyatları çap eləyir... Biz uşaqlıqdan atasız böyümüşük. Atamın məzarı oradadı, anamın qəbri burada- Bakıda. Amma mənim yuxularımda, o da Toxlucadadı. Atamla eyni qəbiristanlıqda yanaşı məzarlarda uyuyurlar. Tovuz hadisələri vaxtı ümidlərimiz daha da artdı, torpaqlarımızın qayıdacağına hətta Qərbi Azərbaycan yurdlarımızın da düşmənlərdən təmizlənəcəyinə elə inanırdım ki ... O ərəfələrdə gecə yuxumda görürəm ki, ölkə başçımız İlham Əliyev öz ailəsi ilə Toxlucaya bizə qonaq gəliblər. Anam onlara bizim şüşəbəndli evdə xara yorğan-döşəklərindən o baş, bu başa yer salıb ...

Canımızı dağlayan nə vaxtsa belə bir məcburi köçgünlüyə, elindən-elatından ayrılığa tuş gələnlərin dilindən süzülən bayatı yenə yandırıb-yaxır canımızı:

***Nə ola bir şadlıq zamanı gələ***
***Düzülə barxanam ellərə doğru...***

***-Bu alayarımçıq, sevinclərin, candərdi gülüşlərin içində nəyə ürəkdən şadlanardınız, ürəkdən sevinərdiniz, gözləriniz yaşaranadək gülərdiniz?***

-Ən böyük şadlığım yurduma dönməyim, o yerləri gəzib dolaşmağım, bax, sizin hamınızı Toxlucaya qonaq aparmağım, orada beləcə bir göy çəməndə süfrə açıb qulluğunuzda durmağım olardı. İndiki xaraba ermənistan bütünlüklə Azərbaycan torpaqlarında qərarlaşıb, o torpaqların ermənilərə qətiyyən dəxli yoxdur. Qayıdıb öz evlərimizə yığışardıq. Boyaboy şüşəbəndli, eyvanları üzü gün çıxana ikimərtəbəli evimiz vardı. Anam demiş heç inana bilmirəm ki, bütün bunlar o kafirlərə qaldı. Kənddə hamının həyətində gecə-gündüz axan bulaqlar vardı, bəzi həyətlərdə hətta qışda da isti su gələnləri vardı. Bizim Qarabulağımızın suyu hamısından gur idi. Evimiz kənd məktəbiylə bir həyətdəydi. Qonşu Ağbulaq kəndində məktəb 8 illik olduğundan, oranın uşaqları da orta məktəbi gəlib bizdə oxuyurdular. Mən 1989-da bitirdim on illiyi. Ali təhsil ardınca Bakıya gəldim, qəbul imtahanı verib, SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedoqoji Xarici Dillər İnstitutuna qəbul olundum, indiki Dillər Universitetinə, elə o vaxtdan da bu təhsil ocağındayam.



***Həqiqət Aslan qızı Hacıyeva.***
***Filologiya üzrə fəlsəfə doktoru dosent.***
***Qərbi Azərbaycan İcmasının sədrinin***
***Beynəlxalq Əlaqələr üzrə müavini***

Həqiqət Aslan qızı Hacıyeva universiteti bitirdikdən sonra, "Alman dilinin qrammatikası kafedrası"nda laborant kimi işə başlamaqla, 1995-ci ildə həmin kafedrada müəllim, 98-ci ildən isə "Praktik alman dili kafedrası"nın baş müəllimi vəzifəsinə keçir. 2012-ci ildə "German dilləri və Dil nəzəriyyəsi" ixtisası üzrə dissertasiya müdafiə edərək filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi alır, hazırda filologiya və Jurnalistika fakultəsi nəzdində Xarici Dillər kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktorudur. Eyni zamanda, 2018-ci ildən AMEA-nın İ. Nəsimi adına Dilçilik İnstitutunun 571401 indeksi üzrə (müqayisəli- tarixi və müqayisəli -tipoloji) Azərbaycan və alman dillərində frazeologizmlərin linqvo-kulturoloji xüsusiyyətləri. ("Kitabi-Dədə Qorqud" və "Nibelunqlar


Atam Aslan, anam Gülü

nəğməsi„) abidələrinin materialları əsasında doktorluq işi üzərində akademik Kamal Abdullayev və filologiya elmləri doktoru Nəriman Seyidəliyevin rəhbərliyi ilə işləməkdədir.

30-dan çox elmi məqalənin 1 dərslik (alman dili) 1 vəsait, 1 monoqrafiya, 3 proqramın müəllifidir, onlardan bir neçəsi xarici ölkələrdə çap olunmuşdur. Pandemiyaya qədər elmi sahəsi üzrə çox tez-tez xarici ölkələrə konfrans və simpoziumlara dəvət alıb, çıxışlar edib. Onlardan Almaniyanın Münhen, Berlin, Haydelberq, Veymar, Türkiyənin Karabük şəhəri, Gürcüstanın Tbilisi, Rusiyanın bir çox bölgələrində keçirilən beynəlxalq konfranslarda məruzələri, gediş-gəlişlər. -Dünyanın işinə bax ki, sən dünyanı gəzib dolaşa bilərsən, Amerikaya, Tibetə, Nibelunqların vətəninə gedərsən, sözünə qulaq asarlar, səninlə razılaşarlar. Amma burdan bura dünyaya ilk göz açdığın doğulduğun yurda, yolunu gözləyən evinə gedə bilməyəsən. Dünyanın ən gözükönlü, nəfsi, ruhu tox insanların yaşadığı Toxlucaya, ulu dədələrimizin Göyçə adı verdiyi Göyçəyə həsrət qalasan. Hər səfərə çıxanda qeyri-ixtiyari-gün o gün olsun ki, bu yollar Göyçəyə, Toxlucaya, Zəngəzura, aparsın məni hissləri ilə yollar qət edirəm, Allahdan bu arzularıma nida istəyirəm. Şuşamız, Ağdamımız, Fizulimiz, Laçınımız, Zəngilanımız, Cəbrayılımız, Qubadlımız kimi Ağbaba ellərimiz qayıtsın.

Həqiqət müəllimgilin nəsli Qars Abdullanın şərəcəsi kimi məşhur olub, Göyçə elində.

-Ulu babalarım Türkiyənin Qars vilayətinin Şirakel qəsəbəsindən bura köç edib, evlənib, ailə qurub qalıblar.



-Ilk gələn Alı baba olub, onun oğlu Məşədi Məmməd, onun da övladı Hacı Abbas. Hacı Abbasın 5 oğlu, 8 nəvəsindən törənib sonrakı nəsil. Atam Aslan, Hacı Abbasın Vəlidən olan oğlu idi. Biz də ailədə 10 uşaq olmuşuq. Atamla anam Gülüzünün ən böyük arzuları da uşaqlarını təhsilli görmək olub. Atam dünyasını tez dəyişdiyindən ailəmizin yükü anamla, qardaşımız, o vaxtı hələ 9-cu sinifdə oxuyan böyüyümüz Etibarın üzərinə düşüb. Allah ona da, balalarına da uzun ömür versin. Eləcə də, anamdan artıq bizə tələbkar olan bacım Sədaqətin də haqqsayı çoxdur üstümüzdə. Ailəmiz nə qədər böyüyüb kök atıbsa, o qədər mehriban, biri-birini arayıb axtarandılar. Bizim evdə də, iki uşaq da deyirəm, artıq gəncdilər, 3-cü kurs tələbəsi Nicat və magistraturada təhsil alan Nərgiz, arzularımıza qol-qanad verməkdədilər. Oğlum da, qızım da o tarixi yurd yerlərimizi görməsələr də bizim danışdıqlarımızdan az qala qarış-qarış tanıyıb, dədə-baba torpaqlarımızı qaytarmaq arzusundadırlar.

Həqiqət xanım elmi-pedoqoji fəaliyyətlə yanaşı "Müharibə veteranı qadınlarına sosial yardım" ictimai birliyinin təhsil məsələləri üzrə müşaviri, Qərbi Azərbaycan icmasının Qadınlar Şurasının üzvüdür. İmkan tapan kimi başının dəstəsi ilə ana-bacı, biş-düşü, paypuşu ilə əsgərlərimizin yanında, sərhəd bölgələri kəndlərimizdə qayğısı olan ailələrdən soraqları gəlməkdədir.

-Yorulmayasınız, Həqiqət xanım.

-Çox sağ olun. Bilirsiniz bunlar mənim üçün Toxlucaya gedən qələbə yoludur. İnşallah qələbələrimiz mənzil başına aparacaq bizi...

***Esmira Balayqızı***



# Dönməsi olmayır bu ayrılığın...



Yaman qəsdimizə durub indi kövrək xatirələri, gözümüzdə əksi, yaddaşımızda titrək səsi qaldı... Övladların, nəvələrin, sevənlərin, qohum-qonşularının, bizi kimi qızlarının gözü səni necə axtarır, bilsən... Təngərudun dağın döşünə söykənən yaşıllıq içində cənnət misallı, qızılgüllərlə süslənən həyatin, dibçəklərin, əzizlədikcə naz verən dəfnə ağaclarının ətirli yarpaqları, xəzinə yaddaşından süzülən dürr kəlmələr... Anamız 50 ildən yuxarı bacarığı, biliyi, şəfalı əlləriylə elinə, obasına xidmət edib, sağlamlıqlarının keşiyində durub, kəndinin tibb bacısı, həkimi olub. Xeyirxahlığı, insanlığı qarşısında başına and içib, əllərindən öpüb, göz üstünə qoyublar. Dünya tarixindən tutmuş, rayonun, kəndinin tarixi- ayı, ilinə qədər elə danışa, məxəzlər söyləyə ki, mat qalardın. İqtisadiyyat, aqronomluq, ailə dəyərləri, xüsusilə mənəviyyatdan o danışaydı... sən də qulaq asaydın, görüm doyardınmı?! Şərqiyyə anamız bilgi xəzinəsi... Hələ bir paltar tikməyini, mətbəxinə keçib çeşit-çeşit mürəbbələrini, meyvə qurularını görüncə təəccüb qalardın. On övlad böyüdüb, ali təhsil verib, cəmiyyət üçün, vətən üçün faydalı insan yetişdirən anamızın övladlarını, nəvələrini də onun qarşısında elə sayğılı, diqqətli, qayğıkeş gördük ki... O bir məktəb, o bir örnək yeri. Doğma anamız tək sevdiyimiz, görüşəndə mehri-məhəbbətindən doymadığımız, bir az gec gələndə zənd edib darıxmışam deyən Şərqiyyə anamızın hər kəlməsi, hər sözü zərb-məsəl idi. Gəlişimizi toy-bayrama çevirərdi, işimizlə maraqlanardı, söz-söhbətimizi onunla bölüşərdik, məsləhət alardıq, televiziya proqramlarını müzakirə edib, qəzet-jurnallardan danışardı, əyləncəyə yox, maarifçiliyə üz tutun, dünyanı maariflənmək xilas edəcək deyərdi. Anamız kitab oxumaq həvəskarı idi, dünya ədəbiyyatından bir danışardı ki, mat qalardın, jurnalımızın həm oxucusu həm də tənqidçisi idi. Bu təmənnasız sevgi, səmimiyyət və mehribanlıqdan o da zövq alardı, biz də. Artıq neçə müddətdir ki, həsrətik o gözəl mükalimələrinə, gül qoxulu nəfəsinə, saçımıza sığal çəkib, ləzzətlə qızlarım dediyin əzizləmələrinə... İndi, ananı yuxuda görmüşəm, o belə söylərdi, belə istərdi xatirələrini bölüşməkdəyik, Allah sənə rəhmət eləsin Şərqiyyə ana...

*Xanım Bilalqızı*
*Zərnişan Turan*
*Astara rayonu*
*Təngərud kəndi*



# Odessada Azərbaycan Evi açılıb

30 mindən çox azərbaycanlının yaşadığı Odessa vilayətində Azərbaycan diasporunun "Birlik"ofisi "Azərbaycan evi"-nin açılışı olub. Açılış mərasimində Diasporla İş üzrə Dövlət Komitəsi, Odessa meriyası, Mədəniyyət Nazirliyinin Bakı şəhər Mədəniyyət və Turizm Baş idarəsi təmsil olunub.

"Birlik" təşkilatı İdarə Heyətinin sədri Rövşən Quliyev qonaqları salamlayaraq, Azərbaycan evinin açılmasının diasporun təşkilatlanması yolunda atılmış mühüm addım olduğunu diqqətə çatdırıb.

Diasporla İş üzrə Dövlət Komitəsinin aparat rəhbəri Daşqın Rəcəbli çıxış edərək, bu gün dünyanın müxtəlif ölkələrindəki Azərbaycan evlərinin uğurlu fəaliyyətini qeyd edib və "Birlik"ofisi -Azərbaycan evinə, o cümlədən Odessada yaşayan soydaşlarımıza uğurlar arzu edib. Komitənin şöbə müdiri Ruslan Quliyev Ukrayna və Azərbaycanın dostluq münasibətlərinin qədim tarixə malik olması və bu münasibətlərin bu gün də uğurla davam etməsi barədə fikirlərini bölüşüb.

Daha sonra, Odessa vilayətinin Azərbaycan diasporu idarə heyətinin üzvü Fazil Əsgərov çıxış edib, "Azərbaycan evi"-nin açılmasını məqsədəuyğun hesab etdiyini və bu addımı Ukraynadakı diasporumuza göstərilən qayğı kimi qiymətləndirdiyini bildirib.

Açılış mərasiminə qatılan Odessa Şəhər Meriyası Mədəniyyət və Turizm şöbəsinin müdiri Tatyana Markova çıxış edərək, Azərbaycan diasporuna uğurlar arzu edib.

Odessada bu günə qədər mövcud olan 3 Azərbaycan diaspor təşkilatının birləşməsi nəticəsində yaranan "Birlik" təşkilatının fəaliyyətinin daha da genişləndirilməsi və onun nəzdində mədəni-məlumat mərkəzi, hüquqi yardım və məsləhət xidməti, həftəsonu Azərbaycan məktəbi, həmçinin rəqs məktəbinin təşkili planlaşdırılır.



# Finlandiyadakı soydaşlarımız Oxçuçay fəlakəti ilə əlaqədar beynəlxalq təşkilatlara müraciət edib

Finlandiyada fəaliyyət göstərən Azər-Türk Gənclər Təşkilatının sədri, Skandinaviya Azərbaycanlılarının Koordinasiya Şurasının Finlandiya üzrə əlaqələndiricisi Ülviyyə Cabbarova ölkəmizin Zəngilan rayonundan keçən və Araz çayına tökülən Oxçuçayın Ermənistan tərəfindən çirkləndirilməsi ilə əlaqədar beynəlxalq təşkilatlara müraciət edib.

Müraciətdə bildirilib ki, Finlandiyada yaşayan azərbaycanlı icmasını Oxçuçay fəlakəti çox narahat edir: "Azərbaycan əsilli fin kimi Sizdən kömək istəyirəm. Söhbət Almaniyanın "Cronimet" şirkətindən gedir. Bu şirkət ətraf mühitin qorunması üzrə tədbirlər görməli və həyata keçirdiyi ekoloji cinayətlərə son qoymalıdır".

Ermənistanın Zəngəzur mis-molibden kombinatının ilkin təmizləmə işləri aparmadan istehsalat tullantılarını birbaşa çaya buraxdığı, ekoloji standartlara riayət etmədiyi, bu kombinatın səhmlərinin böyük hissəsinin Almaniyanın "Cronimet" şirkətinə məxsus olduğu, Ermənistan tərəfinin bu problemin mövcudluğunu etiraf etdiyi vurğulanıb.

Soydaşımız xatırladıb ki, söhbət hər birimizin evi olan planetimizdən və gələcək nəsillərin sağlamlığından getdiyindən beynəlxalq ictimaiyyət və təşkilatlar dərhal məsələyə müdaxilə etməli və qətiyyətli addımlar atmalıdır.

Qeyd edək ki, Ülviyyə Cabbarova bu problemin müzakirə olunması məqsədilə "Cronimet" şirkətinin Finlandiyadakı nümayəndəliyinə də müraciət ünvanlayıb.

# Nifrəti özündən böyük olanda



-Sevginin müddəti bir ömür qədərdir.

-Yox, yox sevgi var bir ömrə siğmır, ömürdən o tərəfə keçir.

-Ömürdən o tərəfə keçir?

-Bəli, ömürdən o tərəfə keçir. Ömürdən o tərəfə kecən sevgi insanı əbədiyyətə qovuşdurur vaxtdan, zamandan uca edir.

Torpağı qüvvət bildilər, torpağa ocağım, qorum dedilər, canlarından keçdilər, qanlarıyla suvardılar torpağı. VƏTƏN Torpaq üçün torpağa düşdülər. Millionların istək və arzularına döndülər. Vətənləşdilər... Vətən timsallı oğul oldular.

Vətən sevgisi qan və qandaki ruhdan nəsildən – nəsilə keçdi. Qoruduq, yaşatdıq bu əmanəti. Bir olduq, bütöv olduq. Haqqsızla haqqın savaşı başladı. Ulu Tanrı haqq səsimizi eşitdi. Axan qanın, ölən canın qanı yerdə qalmadı.

Xalqızımızın dərdi ilə yüklənən fikir qatarı “Qarabağ” hərəkətə gəldi. Necə illərdi arzularımızın qolunu-qanadını sındıran, dayanıb duran, ömrümüzdən kecən bu qatarın hərəkətə gəlməsini səbirsizliklə gözləyirdik... 7- dən 77-ə hamı bu həsrət qatarının Qarabağ dayanacağına çatmaq üçün, ona qovuşmaq üçün tələsirdi...

Sən də qatarda idi, oğlum, o həsrət qatarında...- “Ayrılarmı könül candan?” -deyib düşmənə qan-qan deyənlərin icərisində. Yad dişində qismətim var deyərək güc topladınız. Torpağın üstündə daha möhkəm dayandınız. Bəzən elə anlar olduki içinizdə yatan qüvvətlə təkbətək qalıb söhbət etdiniz – sən imtahan verməlisən! – söylədiniz... Qarabağın hər daşına, hər qayasına sizin, siz əsgərlərin qanı töküldü. Canınız parça- parça olub torpağa əkildi. Qanınız tökülən, canınız əkilən yerlərdən köksü yaralı Xarıbülbül ürkək ürkək cücərdi. II- ci Qarabağ müharibəsində şəhid olan “Vətən dəliləri” nin, “Millət Məcnunları”nın xatirə rəmzinə, Azərbaycan ordusunun zəfər simvoluna döndü. Şuşa şəhərinin girəcəyinə sancıldı Xarıbülbül.

Azərbaycan ordusu tarix yazdı. Tarix yazanların sırasında sən də varsan ikinci Qarabağ müharibəsinin qəhrəmanlıq dastanı səninlə başlayır – Polad Həşimovun intiqamını alan, erməni generalını boğub öldürən Dövlətzadə Cəbrayıl. Adın dillər əzbəri oldu o gündən. Böyükdən kiciyə hamı səndən danışdı, səndən dedi.

Ölmədi Cəbrayıl, Vətən üçün yenidən doğuldu onun dağına, qayasına döndü əbədi yaşamaq üçün. Şair təxəyyüllü, rəssam təfəkkürlü Cəbrayıl sənin poetik nümunələrin, atalar sözünü xatırladan kəlamların, şirin eyhamlarla deyilmiş bədii nümunələrin, işarə və ibarə ilə deyilən sözlərin səni sevənlərin, dostların tanışların yaddaşında əbədiləşəcək. Qəhrəmanlığın eldən – elə, dildən- dilə kecərək cilalanacaq, mərdliyin, igidliyin, qorxmazlığın, gələcək nəslin həyat fəlsəfəsinə cevriləcək.

Anasının dediklərindən:

-Acıq və şax danışmağı çox sevərdi balam. Düşüncələri yaşından böyük idi. Yalan danışmağı sevməzdi, yersiz danışıb gülməzdi. Varı dövləti yox idi balamın. Dostu tanışı çox lap çox idi. Xöşbəxtliyim idi Cəbrayıl. Taleyimin ağrısını- acısını unutdurmuşdu mənə... Qürur duyurdum balamla... Qohum canlı idi, dost- tanışa mehriban oğlum. Qayğıya möhtac balam, uşaqlıqdan özü qayğı çəkdi. Mənə arxa- dayaq oldu. Hec yadımdan cıxmaz Türkiyədə idik, orada çox darıxırdı. Bakıyla müqayisə edirdi o yerləri. Darıxırdı, çox darıxırdı... Bakıya qayıtdıq. Hardan biləydim elə-obaya bağlı balamı torpaq cəkirmiş...





Məleykə xanım yana- yana danışır. Onun söylədiklərini yazmağa gücüm catmır, əlimdə qələm titrəyir, qəhər məni boğurdu. Bilmirdim necə ürək-dirək verim ona, sözlərim boğazımda tıxanıb qalırdı. Odsuz- alovsuz yanıb yaxılırdım onun dərdinə. Yanğımı kəlmələrə sığışdıra bilmirdim. Yalnız bu ağrını, acını bizə yaşadanları lənətləmək gəlirdi əlimdən. Haqq danışan dilimizin imkanlarından zaman- zaman qacan zorakılar nə yaxşı ki cəzasını aldılar deyib, şükür edirdim ALLAHa. Dərdimizin məlhəmi, səhidlərimizin qanı, canı tökülən torpaqlarımızın yad dişindən salınmasına sevinirdim.

Nə uşaq kimi uşaqlıq keçirdi, nədə ki gənclik. Atalı-analı doğuldu, atası ola-ola atasız böyüdü. Atasıyla öyünmədi, sevinmədi. Bir dəfə də olsun ona ərk edib istəyini bildirmədi, şıltaqlıq edib ağlamadı, gülmədi. Özü ata oldu bacısına- qardaşına. Qayğı ilə böyümədi Cəbrayıl, qayğı cəkdi. Anasına kömək oldu, uşaq olduğunu unutdu. Ailənin ağır yükünü cəkən Cəbrayılın planları çox idi... Ev almaq, anasının cəkdiyi acıları unutdurmaq... Planları fələyin planı ilə üsr- üstə düşmədi...

12 iyun 2020- cı il... Dörd günlük Tovuz döyüşünün qəhrəmanı, səngər generalı 3-cu ordu korpusunun qərargah rəisi Polad Həşimov şəhid oldu, onun ölümünə yaman pis olmuşdu. Cəbrayıl intiqam hissi ilə alışıb yanırdı. Yerə göyə sığmırdı. Ürəyini boşalatmaq istəyiridi... Anasına, dostlarına, tanışlarına onun qisasını alacağını söyləyirdi.

Anasının dediklərindən: "-Ürəyi yuxa balam, bilirdim xarakterini, sevməyi bacardığı kimi, nifrət etməyi də bacarırdı. Dediyindən dönən deyildi. Bu məni çox qorxudurdu. Güclü idin, qüvvətli idin... Nifrəti özündən böyük,balam, tarixə dönən oğlum."

Vətən müharibəsi başlayanda 19 yaşı təzəcə tamam olmuşdu, həqiqi hərbi xidmətdə idi Cəbrayıl. Sərhəd qoşununda xüsusi təyinatlı batolyanda xidmət edirdi. Əməliyyatlardan, təlimlərdən keçir, bütün sınaqlardan uğurla çıxırdı. Hərb sənətinə marağı günü – gündən artırdı. Mərdliyinə, qorxmazlığına, cəsarətinə görə batalyon komandirinin və əsgər yoldaşlarının hörmətini qazanır. Həqiqi hərbi xidmətdən sonra müddətli hərbi xidmətdə qalmaq arzusu baş qaldırır ürəyində. Hətta razılaşma da əldə olunur. Kiçik qardaşı Sahibə müddətli hərbi xidmətdə qalacağını sevinə-sevinə söyləyir.

...Vətən savaşı başladı, döyüşlərə xüsusi təyinatlı kimi qatıldı.Batalyon komandirinə Murovda strateji əhəmiyyətə malik düşmən postunun alınması tapşırığı verilmişdi. Bu tapşırığı yerinə yetirəcək şəxslər xüsusi seçilirdi. Cəbrayıl da onların sırasında idi. Düşmənin xəyanəti, qəddarlığı, azğınlığı Cəbrayılın ruhuna hopmuşdu, nifrət edirdi ermənilərə. Adi əsgər deyildi Cəbrayıl. Mərdliyinə, igidliyinə, qorxmazlığına, çevikliyinə görə fərqlənirdi. Çox düşüncəli, təmkinli və səbrli hərəkət edirdi. Öz ağlına, öz gücünə inanırdı. 28 sentyabr əks hücum əməliyatı başladı. Əməliyat uğurla kecdi elə bir məqam yarandı ki düşmənlə əlbəyaxa döyüşməli oldu. Nifrətdən yaranan güc qoluna qüvvət oldu. Düşmənin 5 əsgər və zabitini boğaraq öldürdü... Dövlətzadə Cəbrayıl adını belə yazdı tarixə. O gündən adı dillər əzbəri oldu. Bir ömrə sığmayan qəhrəmanlıq yaşadı, bir ailənin oğlu olmadı, Azərbaycan xalqının oğlu oldu. Tarix yazdı tarixdə yaşayacaq, Vətən üçün torpağa düşən Cəbrayıl.

-Allaha əmanət edirəm, səni. Səni, Allaha əmanət edirəm. Düşməndən, mərdimazardan, şərdən, böhtannan Allah özü qorusun, səni, - deyib sevimli nəvəsini "Quran" kitabının altından kecirib hərbi xidmətə yola saldı Əminə xanım. Yaradan şərdən, böhtandan qorudu, mərdimazardan qoruya bilmədi ...–Yox, yox yaradan qorudu Cəbrayılı.." Ucadan-uca etdi onu... Göylərə qaldırdı, özünə yaxınlaşdırdı, əbədiyaşar etdi.

Ümidi, pənahı nəvəsi şəhid olandan sonra yenə onu Allaha əmanət edir zavallı nənə: "– Cəbrayıl sən Allaha əmanətsən, sən yenə Allaha yaxınsan, Allahın yanındasan... Allah səni harda olsa yenə öz əmanətində saxlayacaq. Hər şeyi qazanmaq olur, pulu da qazanmaq olar, var- dövləti də, ad-sanı da, ev-eşiyi də, vəzifəni də. Şəhidliyi hər adam qazana bilmir. "

-Düz deyirsən Əminə xanım, şəhidlik insanlığın ən yüksək zirvəsidir. Ölmədi Cəbrayıl arzuları, istəkləri ilə





qol-boyun oldu. Qəlbimizin dərinliklərində yurd-yuva qurdu, ev tikdi. Qəlbimizə iliq sevgi axıdan atəş, düşməni yandırıb yaxan od-alov oldu.

-Yaradanın bizə bəxş etdiyi səcdəgaha döndü. Adı gələndə başımız göylərə qalxır. Yüksəklikdə axtarırıq onu... Özümüz də ucalırıq. Mənəvi dünyamızın sərvəti sayırıq Cəbrayılı.

Yeri gəlmişkən: İnanırdım çox inanırdım, Qarabağın taleyinə yenidən yazılacaq həqiqət tarixinə. Tədris etdiyim "Qarabağ tarixi" dərsində ümidlərimin telini oxşaya- oxşaya sizə -siz şagirdlərə inandırmağa çalışırdım. Arzularımız güllənəcək, Qarabağın dağında, dərəsində, yalında yamacında.Ümid adlı ağacımız göyərəcək Sizlərin hünəri, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə. Qələbə tonqalı çatılacaq deyirdim Qarabağda. "Qarabağ Azərbaycandır" dedik. Qəlbimizdən dilimizə köçürdüyümüz bu səs Qarabağda əks səda verdi. Səsimiz düşmənin nahaq qapısına qıfıl olub bağladı. Gündüzümüzü gecəyə döndərən fikirlərimiz, illərdir uşaq kimi oddan-alovdan qorxan arzularımız sevinməyə başladı və sizlərin qanı yerdə qalmadı! Allah oldu köməyimiz.



***Əntiqə Yusifqızı***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***
***Bakı şəhəri, Nizami rayonu 201 saylı məktəbin tarix müəllimi.***

# Peşəsinin ustası

Ölkəmizdə aparılan təhsil islahatlarının tərkib hissəsi olan texniki-peşə təhsilinin yeniləşdirilməsi sahəsində son illər böyük işlər görülməkdədir. Texniki peşə ölkəmizin iqtisadi inkişafında gəclərin fəaliyyətini istiqamətləndirir, onların peşəkar kimi püxtələşməsində böyük rol oynayır.

Təhsil müəssisələrində gənclərin bir usta kimi yetişdirilməsində əməyi olan müəllim və təcrübə rəhbərləri çoxdur. Bunların arasında fədakar əməyi ilə fərqlənən Əhmədov İlahi Vasil oğlunun adını gənclər daha hörmətlə çəkir. Çünki, İlahi Əhmədov gənclərin cəmiyyətə həm peşəkar qaynaqçı kimi, həm də bir şəxsiyyət kimi hazırlanmasında əzmlə çalışır.

Texnika və texnologiyalar üzrə Peşə Təhsili Liseyində qaynaqçı gənclərin istehsalat təcrübə rəhbəri İlahi müəllim peşəsinin ustasıdır. O, 2001-ci ildə Bakı-Ceyhan neft kəmərinin çəkilməsində, 1999-cu ildə Ceyranbatan su kəmərini çəkilməsində elektrik qaynaqçısı kimi iştirak etmişdir.Müxtəlif xarici şirkətlər, tender qalibləri, briqadalar bu zəhmətkeş və təcrübəli ustanın əməyindən bəhrələnmişlər.

Azərbaycan Respublikası Təhsil Nazirliyi Peşə Təhsili Üzrə Dövlət Agentliyi Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzi nümunəvi tədris fəaliyyətinə və kreativ ideyalarına görə onu 2017-ci ilin





“Ən kreativ ustası “ kimi təltif etmişdir. Bu qabaqcıl ustanın “Təmirçi- çilingər” qrupu “İlin ən İnnovativ qrupu” seçilmişdir. 2019-cu ildə “Gənclər Azad Sahibkarlıq Fəaliyyətində “ İctimai Birliyi “ Peşə təhsili alan gənclərin arasında sahibkarlıq fəaliyyətini təşviq edilməsi məqsədilə Milli Case Yarışının keçirilməsi adlı layihəsində fəal iştirak etdiyinə görə təltifləndirilmişdir.

Bu gün müxtəlif xarici və yerli şirkətlərdə çalışan işçi qüvvəsinin formalaşmasında peşə təhsilinin böyük rolu var. Qürurla deyə bilərik ki, bunların arasında Texnika və Texnologiyalar üzrə peşə liseyinin istehsalat təcrübə rəhbəri İlahi Əhmədovun yetirmələri xüsusi yer tutur.



***Elmira Məmmədova***

AZƏRBAYCAN-TÜRKİYƏ
Beynəlxalq iqtisadi, ictimai-siyasi jurnal

# Azərbaycan sevdalısı




Ulu Türk dünyasının məşhur şairi, publisisti, alimi, milliliyi və vətənpərvərliyi ilə sevilən Yavuz Bülənd Bakilərin həyat yoluna nəzər salarkən onun başdan–başa Azərbaycan sevdalısı olduğu açıq-aydın görünür. Əsli, nəsli Odlar yurdumuzun ən gözəl guşələrindən biri , Qarabağın Şuşa, Ağdam bölgəsindən olan bu həssas, incə qəlbli insanın illər uzunu ata vətən həsrəti ilə yaşadığının şahidi oluruq. Qarabağı ziyarət etmək Yavuz bəyin ən böyük arzularından idi. O, Türkiyənin Sivas şəhərində dünyaya gəlsə də, orada böyüyüb, boya-başa çatıb, təhsil alsa da, adı görkəmli şair kimi türk dünyası ilə bir olsa da Qarabağ arzusu ilə yaşamışdır. Gecə-gündüz Qarabağ həsrəti ilə qovrulmuşdur. Y. B. Bakilər doğma yurdu o qədər düşünərdi ki, gecələr də röyalarında Qarabağa seyrə çıxar, vətən torpağını qarış-qarış gəzərdi. Yavuz bəy deyir ki, 1963-cü ildə Ankarada, Çankaya Prezident Mühafizə Alayında əsgərlik xidməti zamanı Qarabağda olduğunu, bir uşağın müşayiəti ilə doğma torpaqlarda gəzdiyini, göy qurşağının gözəl rəngləri altında yarım minarəli bir məscidi yuxusunda görür. Təlaş içində oyanır, bilmir ki, nə etsin. Naçar şair həsrətini ovundurmaq üçün Qarabağa şer həsr edir:

İndi uzaqlarda qalan bir şəhər vardır:
Məscidləri yıxılmış, minarələri yarım...
Bu şəhərin çiləsini mən çəkərəm illərdir
Həsrətini mən duyaram.

İndi uzaqlarda qalan bir şəhər vardır:
Ki sızladır ürəyimi illərdən bəri.
Vətən olmağına Vətən Anadolucasına
Amma Vətən xəritəmdə yox yeri.

Gözəlim türküləri türkülərimiz kimidir
Və kalpaqlı, bindallı oyunlarım balam
Bilənlərimiz bilir.
Bir gün bir salam getsə Anadolumdan
O şəhərdən sımsıcaq min salam gələr.

İlk dəfə 1980-ci ilin may ayında Azərbaycana gələn Yavuz Bülənd Bakilər çox çalışır ki, Qarabağa, Şuşaya, Ağdama getsin, lakin o zamankı sovet rejimi böyük şairə vətənini görməyə icazə vermir. Əlacsız qalan Yavuz bəy – heç olmasa mənə Qarabağın şəkillərini göstərin - deyir. Inanılmaz bir hadisə ilə rastlaşır. Muzeydə ona 1963-cü ildə yuxusunda gördüyü həmin yarım minarəli məscidin şəklini təqdim edirlər. Bunu görən şairi soyuq tər basır. Yanındakılara bu məscidi 17 il bundan əvvəl yuxuda gördüyünü həyəcanla anladır. Şair “Qarabağ həsrəti” adlı ikinci şerində yazır:

Balam! Balam! Deyərək oxşardı məni anam
Anamın dizlərində mən Xəzəri yaşadım.
Xəzərin diliylə mənim dilim bir.
Xəzər indi yerə enmiş buludlar məhşəridir
Və Qarabağ – qara gözlü bir Türkmən qızı kimi-
Xəzərin qarşısına bağdaş qurub oturmuş
Dədəm Hacı Muradın dastan şəhəridir.

Öz yurduma illərlə həsrət duyaraq
Məcnun kimi, Fərhad kimi bir könül verdim
Bir gələn olsaydı Qarabağımdan
Gedər ayaqlarına gözlərimi sürtərdim.

Bir gün bitərsə hər şey Qarabağı görmədən
İstəməm bandolar, böyük çələnglər...
Allahım ruhuma bir az dinclik ver
Üstümə oxunmuş bir neçə ovuc mübarək
Qarabağ torpağından səpilsə yetər.
(Bandolar-orkestrlər)

Yavuz Bülənd Bakilərin ulu babaları XVIII əsrdə Qarabağdan Türkiyəyə mühacirət etmişlər. Kökləri gözəlim Şuşaya bağlı olan Yavuz bəyin ulu babası Hacı Murad Qarabağ hökmdarı İbrahim xanın mehtəri olmuşdur. Öz ağlı, bacarığı, zəhmətsevərliyi sayəsində xan tərəfindən “bəy” rütbəsinə layiq görülmüşdür. Camaat ona Murad bəy deyə müraciət edərdi. Hətta Qarabağda belə bir deyim var: “Hər oxuyan Molla Pənah, hər mehtər Murad bəy olmaz”. Yumşaq qəlbli Murad bəy atlara doğma övladları kimi qulluq edərdi. İşinin öhdəsindən layiqincə gəldiyi üçün İbrahim xan ona Ağdama bitişik bir kənd bağışlayır. Həmin kənd Murad bəyin şərəfinə Muradbəyli adlandırılır. Halal zəhmətlə var-

dövlətə sahiblənən Murad bəy Məkkəyə ziyarətə də gedir, Hacı tituluna yiyələnir. Odur ki, "əsli də, nəsli də bəlli" Azərbaycan türklərindən olan Yavuz bəyin Azərbaycan sevdası bitib-tükənən deyil. Böyük Turan şairi özünün "Azərbaycan" şerində yazır:

Adına əl-pəncə dıvan durduğum
Min illik qarasevdamız, ilahimiz, ülkümüz
Türkülər söyləyərək içimdə gecə-gündüz
Bir çalar saat kimi qurduğum:
Azərbaycan.

Bir incəcik budağını, bir quru yarpağını
Görən varmı deyərək soyumun torpağını
Həmişə içim titrəyərək sorduğum:
Azərbaycan.

Ən verimli torpaqlara ümidlərimi
Çinar toxumları kimi durmadan sovurduğum
Sevdasını könüllərə bismillahlarla vurduğum
Dağa, daşa, qurda, quşa özümü bildim biləli
Duyurduğum:
Azərbaycan.

Anladım çarə yox bu böyük dərdə
Ürəyim sımsıcaq Azəri türkülərdə
Gözlərimin dalıb, dalıb qaldığı yerdə
Gördüyüm Azərbaycan.

İndi naxışlı ipəklərdən, yun papaqlardan
Bir çinardan qoparaq sovrulan yarpaqlardan
Və sonra üç rəngli gözəlim bayraqlardan
Hördüyüm: Azərbaycan.

Anamın göz yaşında, quşların qanadında
Bir iftar süfrəsində, içdiyim suyun dadında
Qızımın türkü kimi gözəl Aybala adında
İllərlə arayıb durduğum: Azərbaycan.

Azərbaycanı canından çox sevən Yavuz Bülənd Bakilərin əcdadları" Qarabaği" soyadını daşımışlar. Türkiyəyə köçəndən sonra da bu familiya bir müddət qalmışdır. Sonralar isə soyadları " Bağilər ", daha sonra " Bakilər" kimi şəcərə davam etmişdir. Yavuz bəy o nadir insanlardandır ki, səkkiz arxadönəninin adlarını bilir. Onlardan birinin Məhəmməd Sabir oğlu Əbdülbaki Qarabağinin adında "baki" vardır. O, Qəhrəman Maraşdan təkrar Azərbaycana dönmək istəmiş, lakin Şərqi Bəyaziddən irəli keçə bilməmişdir. "Bakilər" soyadında böyük şairin babalarının, eləcə də vətənləri Qarabağın bir xatirəsi yaşayır. Yavuz bəy müsahibələrində söyləyir ki, "Qarabağ şerlərimin səssiz göz yaşları idi." O, "Anamın türküləri" də belə deyir:

Anam türkü söylərdi mənə nağıl yerinə
Hüzünlü, boynu bükük, həp Azəri türkülər
Üzümə baxammazdı, acısını anlardım.
Rüzgarlarla sovrulur, yağmurlarla yağardım...
Anamı dinlərkən ağlardım.

Mən süd kimi mübarək türkülərlə böyüdüm
Bir yanım aydınlıq, bir yanım qürbət.
Anamın "aybalam"lı türkülərində
Min yalvarış kimiydi başdanbaşa məmləkət.

Azərbaycan, Qarabağ sevdalısı Yavuz Bülənd Bakilər hər çıxışında söyləyir ki, "babalarım Qarabağın Ağdam şəhərindən Türkiyəyə köçmüşdülər. Odur ki, Qarabağı görməyin həsrətində idim." Yavuz bəyin doğma Qarabağa qovuşmaq arzusu Azərbaycanın böyük şairi Bəxtiyar Vahabzadənin sayəsində, 1987-ciildə, Azərbaycana üçüncü gəlişi zamanı gerçəkləşdi. Əcdadlarının vətəni Ağdam şəhərində unudulmaz xatirələr yaşadı. Ancaq Yer üzünün Cənnəti Şuşanı görmək ona nəsib olmadı. Çünki Şuşaya getməsinə icazə verilmədi bu şahanə şəhər işğal altında olduğundan ona həsrət idi. Vətəndə vətənə həsrət. Şükürlər olsun ki, Şuşamız yağı əlindən xilas oldu nəhayət. O vaxt cəfakeş, həsrətkeş vətən oğlunun Şuşaya buraxılmadığını görən xalqımızın qüdrətli, məşhur alimi Xudu Məmmədov və tanınmış, görkəmli şairimiz Şahmar Əkbərzadə (Allah hər ikisinə rəhmət eləsin) Yavuz bəy üçün Şuşa torpağı və Cıdır düzündən nadir Xarıbülbül çiçəyi gətirmişdilər. Amma təəssüf ki, o, vətən torpağını Türkiyəyə apara bilməmişdi. Çünki onu Moskva gömrükxanasında çantasından götürmüşdülər. Yavuz bəy hönkür-hönkür ağlayaraq vətən torpağından ayrılmışdı. Xarıbülbül çiçəyini isə Türkiyədə bağçalarında əkmişdi. Lakin Şuşa torpağından başqa heç yerdə bitməyən bu sadiq, etibarlı çiçək orada ərsəyə gəlməmişdir. Doğrudur, sonrakı illərdə şair özü Ağdama gedərkən Vətən torpağı götürmüş və Türkiyəyə aparmışdı. İndi o vətən torpağı İstanbuldakı evinin ən gözəl guşəsində bərqərar olub. Amma vaxtilə qarşılaşdığı olaydan həssas qəlbli şair çox iztirablar keçirmişdir.

Azərbaycanı ürəyinin şahdamarı adlandıran böyük söz ustadı Yavuz Bülənd Bakilər dostu Bəxtiyar Vahabzadənin sağlığında ona ithaf etdiyi "Azərbaycan ürəyimdə bir şahdamardır" şerində yazır:

Sübh vaxtına qədər gecələr boyu
Qovrularaq oxuduğum yenə Şəhriyar.
Ala ceyranlara bənzər həp Azəri türkülər
Dinlədiyim tar.

Ayrılmaz başımdan, buraxmaz məni artıq
Salamsız, sabahsız bir əfkar.
Və ürəyim min illik dastanlarla tutuşur
Böyüyür Azərbaycan qədər.

Azərbaycan: Dədəm Qorqud şəfəqi...
Mübarək dilimi süd kimi sağar.
Bəzən rüzgar olar iliklərimdə
Bəzən yağmur kimi üstümə yağar.

Götür məni Araz! Al məni Xəzər!
Türkü Türkdən başqa indi kim anlar?
Yaram dərin, mərhəmim yox, vaxtım dar...
Bir dastan yazar kimi yaz məni Anar!
Duy məni Bəxtiyar! Duy məni Şahmar!

Keçən zaman üstünə, tökülən qan üstünə
Qılınc - qalxan üstünə
Və ağzı köpürən, yələli atlar üstünə
Mənim bir yəminim var:

Azərbaycan ürəyimdə bir şahdamardır
Mən Yaqub kimiyəm uzun illərdir
Orda Yusifimin qoxusu vardır.

Və həsrəti könlümdə böyük Türkistan qədərdir
Ayətdir kitabımda, bayrağımda rüzgardır
Azərbaycan ürəyimdə bir şahdamardır.

İndi Azərbaycanda mövsüm bahardır
Amma türküləri yenə başdanbaşa əfkardır.
Xəyallarıma yağan qardır
Boynu bükük bir diyardır
Yardır...
Ağzı köpürən atlar üstünə yəminim vardır
Azərbaycan ürəyimdə bir şahdamardır.

Zəngin türk ədəbiyyatının azman söz ustası Yavuz Bülənd Bakilər Azərbaycanın dünya miqyasında tanınmış sənətkarları, görkəmli şəxsiyyətləri haqqında Türkiyədə geniş təbliğat aparan və hüquqlarını qoruyan ziyalılarımızdandır. Məsələn, milli qürurumuz olan dünya şöhrətli dühamız Üzeyir bəy Hacıbəylinin 1918-ci ildə Azərbaycanın istiqlal şairi Əhməd Cavadın sözlərinə yazdığı "Çırpınırdın Qara dəniz, baxıb Türkün bayrağına" mahnısının ermənilər tərəfindən mənimsənilməsinə qarşı öz fikirlərini ictimaiyyətə çatdıraraq, erməni sayıqlamasına tutarlı cavab vermişdir. Onu qeyd etmək lazımdır ki, bu mahnı Azərbaycandan əvvəl Türkiyədə məşhurlaşmışdı. Mahnı haqqında Yavuz bəy "Samanyolu" televiziyasında özünün hazırladığı və aparıcısı olduğu "Sözün doğrusu" verilişində, eləcə də 2004-cü ildə İstanbulda işıq üzü görən eyniadlı kitabında fikirlərini bildirmişdir. Yavuz bəy belə yazır: "Keçmişlərdə Ermənistandan İstanbula gələn Ohanes Baronyan isimli bir müğənni dedi ki, "mənim dədəm (babam - S. Q.) əski bir İstanbulludur. Erivandakı evimizdə türkcə, ermənicə, rusca danışılırdı. Türkcə musiqi dinlənilirdi. "Çırpınırdı Qara dəniz" şarkısını biz ermənicə bir türkü (xalq mahnısı - S. Q.) olaraq çalıb söyləyirik. Fəqət güftə (söz - S. Q.) tamamən fərqlidir. Bu şarkı Türkiyədənmi Ermənistana getdi, yoxsa Ermənistandanmı Türkiyəyə gəldi bilmirəm."

Yavuz bəy ona belə cavab vermişdir: "Yalnış, min kərə, milyon kərə yalnış. Əvvəla, bu şarkı "Çırpınırdı Qara dəniz" deyə başlamır. "Çırpınırdın Qara dəniz, baxıb Türkün bayrağına" deyə başlayır. Şarkının sözləri Əhməd Cavada aiddir. Əhməd Cavad Azərbaycan türklərindən bir şair. 1912-ci ildə Balkan müharibəsində Azərbaycandan gələrək bizim ordumuza qoşuldu. 1918-ci ildə Türk ordusu Bakıya girdiyi zaman Əhməd Cavad Məhmətçiklərimizlə yenə eyni sıralarda addımlayırdı. Əhməd Cavad "Çırpınırdın Qara dəniz" şerini 1914-cü ildə yazmışdır. Bu şeri millətimizin böyük bəstəkarı Üzeyir Hacıbəyli bəstələdi."

Ümumiyyətlə, Üzeyir bəy Hacıbəyli fenomeni barədə Yavuz bəy hər zaman həvəslə, yorulmadan söhbət açır. 3 iyul 2002-ci ildə "Xalq qəzeti"nə verdiyi müsahibədə əməkdar jurnalist Tahir Aydınoğluna dahi sənətkarımız haqqında bunları demişdir: "- Biz türk xalqlarının və dövlətlərinin qüdrət və qüvvət mənbəyi, mənim nəzərimdə, babalarımızın tarixdə oynadığı rolu dəyərləndirmək, özünü tanımaq, dahilərinin və qəhrəmanlarının arzu və əməllərinə sahib çıxmaqdadır. Götürək, Üzeyir bəyi. Bu, tarixdə Dədə Qorqudu, Nizamisi, Nəsimisi, Füzulisi olan bir xalqın XX əsrdəki zəkası, istedadıdır. Çox təəssüf ki, Türkiyədə bu nəhəng türk övladını vaxtilə kifayət qədər tanımayıblar. Üzeyir bəy tək Azərbaycanın yox, bütün dünya türklərinin öyüncüdür. O, təkcə sizin üçün yazıb-yaratmayıb. Onun istedad və şöhrətindən türk xalqlarının hamısına pay çatır. Biz xalqlarımızı belə böyük insanlarımızı tanıyıb-tanıtmaqla istənilən səviyyədə yaxınlaşdıra, doğmalaşdıra bilərik."

Başqa bir yazısında Yavuz bəy dahi bəstəkarımız barədə belə deyir: "Üzeyir Hacıbəyli yalnız sevgili Azərbaycanın, əziz Azərbaycanın, qardaş Azərbaycanın deyil, eyni zamanda Türkiyənin də böyük iftixar qaynaqlarındandır, Böyük millətlər böyük sənətkarlar yetişdirir, böyük sənətkarlar da millətlərinin üzünü ağ edir, Üzeyir bəy millətimizin üzünü ağ edən və bizləri ucaldan böyük bir sənətkardır."

Sözə dəyər verən, söz sərrafı olan Yavuz Bülənd Bakilərin həm publisistik yazılarında, həm müxtəlif kitablarında, həm çıxışlarında, hazırladığı televiziya və radio verilişlərində, həm də şerlərində Azərbaycan, Qarabağ, Xəzər qırmızı xətlə keçir. O, "Sivasda əski türk evləri". "Anadolu acısı", "Sayıqlama", "Unutduğumuz insanlar", "Bizim türkümüz", "Anamın türküləri" , "Böyük dastan" şerlərində mütləq bir cümlə ilə də olsa Azərbaycanı xatırlayır. Yavuz bəy həm də "Azərbaycan ürəyimdə bir şahdamardır" adlı kitab yazmış və onu tamamilə Azərbaycana həsr etmişdir.

Bütün Türk dünyasının sevilən şairi, söz ustadı, qəlbi daim Azərbaycanla və bütünlükdə Türk dünyası ilə döyünən, Azərbaycan sevdalı Yavuz Bülənd Bakilərin vətən sevgisi hər bir türkə örnək ola biləcək qədər müqəddəsdir, ülvidir. Vətənə, millətə təmənnasız övlad məhəbbətini sözün həqiqi mənasında bu böyük vətəndaşdan əxz etmək gərəkdir. Nəcib, həssas qəlbli Türk oğlu Türkün qəlbinin dərinliklərindəki Böyük Türkistanı, yenilməz Turanı onun gözü ilə görmək və dəyərləndirmək lazımdır. Bunun üçünsə onun yaradıcılıq irsi öyrənilməlidir. Yalnız o zaman Yavuz Bülənd Bakilər zirvəsini görmək mümkündür.

Bu il 23 apreldə Yavuz Bülənd Bakilərin 85 yaşı tamam oldu. Azərbaycanımızın böyük oğluna can sağlığı və bitib-tükənməyən yaradıcılıq uğurları diləyirik. Qoy yenə də gənclik həvəsi ilə yazsın, yaratsın, xalqımızı, millətimizi, vətənimizi və bütünlükdə Turan ellərini tərənnüm etsin.



***Səadət QARABAGLI***
***Üzeyirbəyşünas.***



# Adapazarı

*sitelerinde bir Erzurum'lu şöyle anlatılıyordu.*
*Türk Dünyası da duysun istedik.*

Esmerdi.
Kara kaşlı kara gözlüydü.
Simsiyah elbise giymişti.
Simsiyah pantolon giymişti.
Çizmeleri simsiyahtı.
Tüfeği simsiyahtı.
Kemerinde simsiyah kama vardı.
Kamçısı simsiyahtı.
Atı bile simsiyahtı.
34 yaşındaydı.
Erzurumluydu.

Binbaşı eşini Sarıkamış'ta kaybetmişti.Yani bir Türk Subayının hanımıydı!...

Erzurum Kongresi'nde denk getirememiş, üç gün at sürerek Sivas Kongresi'ne gelmiş, yolunu gözleyip Mustafa Kemal'in karşısına dikilmişti.

"At binerim, silah atarım, bana iş ver!" demişti.
Fatma Seher'di.
Tarihi sıfatını Mustafa Kemal taktı.
"Keşke bütün kadınlar senin gibi olsa Kara Fatma" dedi!
Fatma SEHER, birden bire KARA FATMA olmuştu.

Elinin hamuruyla erkek işine karışmasın gibi cinsiyetçi yaklaşımlar, Mustafa Kemal'in ciddiye bile almadığı kavramlardı.
Kadının insandan bile sayılmadığı dönemlerdi; ama, Mustafa Kemal için kadın veya erkek ayrımı yoktu.
Yürek var mı, ona bakıyordu.

Kendi elyazısıyla görev pusulası yazdı, imzaladı. "Istanbul'a git, Üsküdar'lı Kuvvacı Albay Neşet Bey'i bul bu pusulayı ona ver" dedi.
Gitti, buldu... Pusulayı okuyan Neşet Bey'in yönlendirmesiyle İzmit bölgesinde görevlendirildi.

Aralarında kendi kızının olduğu 15 kadınla milis müfrezesi kurdu. İki ay geçti, emrindekilerin sayısı 700'e yaklaşmıştı. 43 kadın, 600 küsür erkeğin komutanıydı.

Sadece kara gözlü değildi.
Gözü de kara'ydı.
İnönü'nde, Sakarya'da çarpıştı.
Yanindaki kadınların 28'i şehit düştü.

Kızı elinden vuruldu, iki parmağı koptu.
Kendisi de sağ kolundan yaralandı.
Bir ara cephanede sandıkları naklederken yakalandı, esir düştü, 19 gün işkence gördü, kaçmayı başardı...

Büyük Taarruz'a katıldı.
9 Eylül'de İzmir'e giden süvarilerin arasındaydı.
Milis çavuşu rütbesiyle başladı.
Üstteğmen olarak ayrıldı.

İstiklal Madalyası aldı.
Maaş bağlanmasını kabul etmedi.
Emekli maaşını Kızılay'a bağışladı.
Herhangi bir kişisel menfaat peşinde koşmadı, köşesine çekildi, izi kayboldu.
Yıllar içinde dara düştüğü, kimseye haber vermediği, evsizlere yardım eden Galata Merkezunə sığındığı ortaya çıktı...
Yalvar yakar zorla ikna edildi, Darülaceze'ye alındı.
1955 yılında vefat etti.
Bir küçücük mendil bohçasından başka eşyası yoktu...
Açtılar...
Açıktılar; ama Mert, yürekli ve onurlu, gururluydular. Malda, mülkte, parada gözleri yoktu..
Eşyalarının tamamı bir İstiklal Madalyası ve Mustafa Kemal'in hediye ettiği gümüş sigara tabakası idi...
Sadece onları saklamıştı...
Bu mütevazi, gözü kara, cesur Üst teğmen, adı tarihlerden silinmeyecek asil Türk kadın Fatma SEHER, (KARA FATMA) idi.

# Erməni məsələsi

***Yüzyıllar boyunca 5 kıtada egemenligini sürdüren ve topraklarının genişliğe 44 milyon kilometre kare olan Türk'ün girmediği alan varmıdır?..***
***Bilinen dünya toprağının3/3'ünün 2/80'toprağına; 2/90'nüfusuna hükmetmiş bir millet: "SOYKIRIM" Yapmış Olsaydı, bugün bağımsız kalmış olan ŞU DEVLETLERDEN hangisinden bir iz bir isim kalabilirdi?..***

***Türkler Çin'de (1.125 yıl) kaldı. Çin hâlâ ayakta...***

Bulgaristan:(545 yıl)
Yunanistan:(400 yıl)
Sırbistan:(539 yıl)
Karadağ: (539 yıl)
Bosna-Hersek: (539 yıl)
Hırvatistan: (539 yıl)
Makedonya:(539 yıl)
Slovenya: (250 yıl)
Romanya: (490 yıl)
Slovakya: (20 yıl)
Macaristan(Uyvar):(160 yıl)
Moldova: (490 yıl)
Ukrayna: (308 yıl)
Azerbaycan: (25 yıl)
Gürcistan: (400 yıl)
Ermenistan: (20 yıl)
Güney Kıbrıs:(293 yıl)
Kuzey Kıbrıs: (293 yıl)
Rusya'nın güney toprakları:(291 yıl)
Polonya: (25 yıl)-
İtalya (Lehistan)'nın güneydoğu kıyıları (20 yıl)
Arnavutluk: (435 yıl)
Belarus: (25 yıl)
Litvanya: (25 yıl)
Letonya: (25 yıl)
Kosova: (539 yıl)
Voyvodina (Banat Asya'da): (166 yıl)
Irak: (402 yıl)
Suriye: (402 yıl)
İsrail: (402 yıl)
Filistin: (402 yıl)
Urdun: (402 yıl)
Arabistan: (399 yıl)
Yemen: (401 yıl)
Umman: (400 yıl)
Birlesek Arap Emirlikleri: (400 yıl)
Katar: (400 yıl)
Bahreyn: (400 yıl)
Kuveyt (381 yıl)
İranın batı toprakları (30 yıl)
Lübnan: (402 yıl)
AFRİKA'DA
Mısır: (397 yıl )
Libya(Trablusgarp):(394 yıl)
Tunus: (308 yıl )
Cezayir: (313 yıl)
Sudan(Nubye):(397 yıl )
Eritre (Habes): (350 yıl )
Cibuti: (350 yıl)
Somali: (Zeyla) (350 yıl )
Kenya Sahilleri: (350 yıl )
Tanzanya Sahilleri: (250 yıl)
Çad'ın Kuzey Bölgeleri: (313 yıl )

Nijer'in(Reşade) bir kısmı: (300 yıl)
Mozambik(Kavar)'ın Kuzey Toprakları: (150 yıl)
Fas; (50 yıl ) -
Bati Sahra: (50 yıl)
Moritanya: (50 yıl)
Mali: (300 yıl )
Senegal(Gat):(300 yıl)
Gambiya: (300 yıl )
Gine Bissau: (300 yıl)
Gine: (300 yıl )
Etiyopya' nin bir kısmı: (350 yıl)

**Osmanlı adı Habeş**
OSMANLI KARA HUDUTLARI SINIRLARI İÇİNDE RESMEN BULUNMAMAKLA BİRLİKTE FİİLEN HİLAFETE BAĞLI YERLER
Hindistan Müslümanları -Pakistan-
Doğu Hindistan Müslümanları - Bangladeş-
Singapur
Malezya
Endonezya
Türkistan Hanlıkları
Nijerya, Kamerun

**DENİZLERDE İSE;**
Akdeniz'in tamamında 1 asır boyunca kaldık...
Akdeniz'in bir kısmında 3 asır kadar
Karadeniz'in tamamına 4 asır kadar (Karadeniz Türk Gölüydü.)
Ege'nin tamamına 4 küsur asır kadar.
Osmanlı imparatorluğu, bugün bazı ülkelerin siyasî amaçla kullandığı Osmanlı soykırım yaptı yalanlarını gerçekten yapmış olsaydı, Sadece Ermeniler üzerinde değil Osmanlının hüküm sürdüğü 5 kıtada yer alan tüm ülkelerde ve ne de Ermenistan'da hiçbir devlet var olmaz, olamazdı...
Kaldıkı Egemenliği altındaki yerlerde yaşayan halk üzerinde dil ve din baskısı yaparak asimile yapmış olsaydı, bugün var olan bu devletlerde halk Türkçe konuşuyor ve Müslüman olmuş olmaları gerekirdi...

**Oysa bu yalanları söyleyen ülkelerden;**

**1.Ülkemizi soykırım yapmakla itham eden AMERİKA:**
Vietnamda 4 milyon
Korede 3 milyon
Kamboçya ve Laosda 1 milyon Irakta 3 milyon
Hiroşima ve Nagazakide 350 bin
Ayrica Kanada, Kansas, Nivcorciya'da 15 milyon Kızılderiliyi katletmiştir.

Irak işgali süresince sadece 2003 -2011 yılları arasında
2.5 milyon kişi evsiz kaldı.
4 milyon çocuk yetim kaldı.
800 bin kişi kayıp oldu.
300 bin kişi hapsedildi. 4.5 milyon kişi muhacir oldu.

**2. FRANSA:**
1830 yılında Cezayir'i işgal etti. 132 yıl Cezayir'i işgal altında tutan Fransa 1954-1962 yılları arasında 1.5 milyon Cezayirliyi katletti. Fransa 1. Dünya savaşında 900 bin Afrikalının ölümüne sebep oldu.
**3. ALMANLAR:**
1933-1945 yılları alrasında Büyük

Alman İmperatorluğunu kurmak ve mükemmel Alman ırkını yaratmak hayaliyle diğer milletlerden ve etnik gruplardan 21 milyon insanı topluca kurşuna dizdi..
Toplama kamplarında fırınlarda yakarak, gaz odalarında zehirleyerek soykırıma ugrattılar.
Almanlar 1891 yılında da hammadde ve işgücü ihtiyaçlarını karşılamak amacıyla Namibya'ya sömürge kurmak amacıyla çıktı. Adanın yerlileri Herero ve Namalar üzerine saldıran alman askerleri yaşlı, kadın, çocuk demeden 117 bin insanı katletti. Yaklaşık 132 bin yerliden geriye15 bini sağ kalabilmişti...

**4. İTALYA:**
Libya'da 1911 den 1940 lı yıllara kadar uyguladığı imha operasyonları ve çölün ortasına kurduğu toplama kamplarında yüzbinlerce Afrikalı Müslüman'ı katletti.
İtalya Diktatörü Mussolini Efiyopya'da ve Yugoslavya'da 300 bin insanı öldürdü.

**5.PORTEKİZ'de:**
45 yıl hüküm süren Salazar Diktası da aynı güçlerin ürünüdür. 1930 da bütün siyasî faaliyetleri yasaklayarak işe başlayan Salazar, CIA tarafından desteklenen gizli servisi PIDE'nin baskısıyla Portekiz'i Cehenneme çevirdi. Binlerce gencin, işçinin katili olan bu diktatör; ancak 1974 yılında bir ayaklanma ile devrile bildi... Portekiz'in bu sürede sömürgelerinde yaptığı katliamlar bir yana, kendi askerî kaybı bile 10 bin ölü ve 50 bin yaralıydı.

**6.İNGİLTERE:**
1788-1938 tarihleri arasında sömürgeleştirmek amacıyla gittiği Avustralya'da yerleşik yerli halk Aborjinler'i sistematik olarak yok etti...
İngilizler'in yerli halkın aralarına salgın hastalık yaydığı, bununla da yetinmeyip yemeklerine zehir katarak yok etmeye çalıştığı 750 bin Avustralya yerlisinden geriye sadece 31 bin kişi sag kala bildi...
7. Sömürgeci Avrupa ülkeleri Amerikan kıtasında 400 yıl boyunca yaklaşık 75 milyon kızılderili katletti.

**8. OYSAKİ ERMENİSTANIN İLK BAŞBAKANI BU OLAYIN SOYKIRIM OLMADIGINI İTİRAF ETMİŞ...**
Ermenistan'ın ilk başbakanı Ovanes Kaçaznuni 1923 yılında Bükreş'te "Taşnak Partisi" toplantısına sunduğu ermeniler'in tüm iddialarini çürüten 128 sayfalik raporda: "İsyanımızın temelinde İtilaf devletlerinin bize vaat ettiği Ermenistan hayali vardı, gerçeği göremedik." diyor.
Yine Kaçaznuni açıklamasında "Kaderden şikâyet etmek ve felaketlerimizin sebeplerini kendi dışımızda aramak acıklı bir durumdur." ifadeleri dikkat çekiyor.
Kaçaznunın bu raporu aynı yil 1923 yılında ermenice kitap olarak basıldı.
Kitap Ermenistan'da yasaklandı.
1927 yılında rusçaya çevrilerek 2000 adet basıldı ibreti âlem için Tiflis'te yayınlandi.
1955 yılında kitap ingilizceye de cevrilerek Newyork'ta yayınlandı.

İngilizce olan ve daha sonra çeşitli dillerde de basılan bu kitap ermeni taşnaklar tarafından tüm Avrupa kütüphanelerinden toplatıldı.
"Tasnak Partisinin yapacağı birşey yok!" başlıklı Rapor, sonraları: İstanbul Üniversitesi Araştırma Görevlisi Sayın Mehmet Perinçek tarafından Moskova'daki Lenin Kütüphanesi'nde Rusça olarak bulundu... Türkolog Arif Acaroğlu tarafından Türkçeye çevrildi.
ÖLDÜK, ÖLDÜRDÜK'

İŞTE o tarihi belge niteliğindeki Ovanes'in Taşnak Partisi toplantısına sunduğu ve altında imzası olan satırlar...
1914 sonbaharında, Türkiye henüz savaşan taraflardan birine katılmadığı dönemde, Güney Kafkasya'da büyük gürültü içinde ve enerjik biçimde Ermeni Gönüllü Birlikleri oluşturulmaya başlandı.
Türkler'e karşı ayaklandık. Barışı sabote etmek için savaştık bile. Artık hepimiz Türkler'in düşmanı olan İtilaf devletlerinin kampındaydık...

"Türkiye'den denizden denize Ermenistan" talep etmekteydik. İtilaf devletlerinin ordularını Türkiye'ye göndermeleri ve hâkimiyetimizi temin etmeleri için Avrupa ve Amerika'ya resmî çağrılar yaptık. Nihayet şu da var ki, var olduğumuz sürece aralıksız olarak Türkler ile savaştık. Öldük ve öldürdük. Artık, Türkler'e ne gibi bir güven telkin edebiliriz ki?

AKLIMIZ DUMANLANMIŞTI
Askerî operasyonlara katıldık. Kandırıldık ve Rusya'ya bağlandık. Tehcir doğruydu ve gerekliydi.

Gerçekleri göremedik, olayların sebebi biziz. Türkler'in Millî Mücadelesi haklıydı.

Barışı reddetmemiz ve silahlanmamız büyük bir hataydı. Türkler'e karşı ayaklandık ve savaştık.

Sevr Antlaşması gözümüzü kör etmişti. İsyanımızın temelinde İtilaf devletlerinin bize vaat ettiği büyük Ermenistan hayali vardı; ama biz hiçbir zaman devlet olamadık.
Türkiye Ermenistan'ı diye bir devletin hayalden öte olmadığı gerçeğini göremedik...

Aklımız dumanlanmıştı. Biz kendi isteklerimizi başkalarına mal ederek, sorumsuz kişilerin sözlerine büyük önem vererek, kendimize yaptığımız hipnozun etkisiyle, gerçekleri anlayamadık ve hayallere kapıldık.

**TÜRKLER DOĞRU YAPTI**

1915 yaz ve sonbahar döneminde Türkiye Ermeniler'i zorunlu bir tehcire tâbi tutuldu. Türkler ne yaptıklarını biliyorlardı... Bugün pişmanlık duymalarını gerektirecek bir husus bulunmamaktadır.

Siyasal açıdan olgunlaşmamış ve dengesiz insanlara özgü bir şaşkınlık içinde, bir uçtan diğerine savrulmaktaydık.

Rus hükümetine karşı dünkü inancımız ne denli körü körüne ve temelsizse, bugünkü suçlamalarımız da o denli körü körüne ve temelsizdi.

HASTALIKLI PSİKOLOJİMİZ

Kaderden şikâyet etmek ve felaketlerimizin sebeplerini kendi dışımızda aramak acıklı bir durumdur.
Bu bizim (hastalıklı) millî psikolojimizin karakteristik bir özelliğidir ve Taşnaksutyun Partisi de bundan kaçamamıştır.

Osmanlıdan, Akdeniz'e uzanan bir Ermenistan talep ettik. Derhal gönüllü birlikleri oluşturduk, Türklere karşı ayaklandık ve savaştık. İsyanımızın temelinde İtilaf devletlerinin bize vaat ettiği Ermenistan hayali vardı, gerçeği göremedik.....

# Elm adamlarımızdan Prof. Dr. Hüseyin Yılmaz




Yıl 1936…

Denizli'nin Acıpayam İlçesi'nde görevli bir grup öğretmen havanın güzelliğinden faydalanıp pikniğe gittiler…

Şahane doğanın kucağında eğlenirlerken keçilerini otlatan küçük bir çobanla karşılaştılar; yanlarına davet edip çay ikram ettiler, ismini sordular.

Küçük çoban ürkek bir sesle yanıt verdi:

–Hüseyin…

Öğretmenlerden biri yanındaki gazeteyi uzatıp "Okuma yazma biliyormusun, bunu okuya bilir misin?" diye sordu.

O tarihlerde okuma yazma bilenlerin sayısı o kadar azdı ki, okuma öğrenenlerin diplomaları bizzat valiler tarafından imzalanmaktaydı!..

Küçük Hüseyin okuma bilmediği için gazeteyi almayı kabul etmeyince öğretmen bu kez yaşını ve neden okula gitmediğini sordu..

Yanıt hazindi:

–Yaşım 12…

3 yaşında annemi, geçen yıl da babamı kaybettim!..

Talihsiz çocuğun aslında çok zeki olduğunu fark eden öğretmenler, mutlaka okumasını tembihlediler…

Hüseyin, öğretmenlerin verdiği desteğin yarattığı heyecanla Denizli'de parasız yatılı okuluna kaydoldu..

Bir süre sonra katıldığı bir matematik yarışmasında Hüseyin'e bir kitap armağan edildi.

O gece kitabı okuyup bitirdi ve ertesi gün Fen Bilgisi öğretmenine giderek şöyle dedi:

–Bu kitapta eksiklik var!..

Öğretmen çok şaşırdı; çünkü Hüseyin'in "eksiklik var" dediği kitap "Görecelik Teorisini" anlatıyordu!..

Hüseyin bu teorinin önemli bir parçasının kitapta bulunmadığını fark etmişti!..

Fen öğretmeni konuyu İstanbul Teknik Üniversitesi'ndeki Hocası Fizik Profesörü Nusret Kürkçüoğlu'na mektupla bildirdi ve şu yanıtı aldı:

–Hüseyin liseyi bitirince yanıma gelsin!..

Albert Einstein'e uzanan yol!..

Hüseyin aynen öyle yaptı…

İTÜ Elektrik Mühendisliği'nde okumaya başladı…

Ancak yaptığı çalışmaları, ürettiği projeleri hocaları dahi anlayamıyordu.

O hocalardan biri "Bu çalışmaları ancak Amerika Boston'daki Massachusetts Teknoloji Enstitüsü'nde (MIT) görevli Prof. Dr. Morse bilir" deyip, mektupla ona gönderdi.

Gelen yanıt müthişti:

–Hüseyin'in bu yaptığını 5 yıl önce bir grup akademisyen buldu; ama bunu Hüseyin'in tek başına bulması olağanüstü bir şey...

Biz masraflarını karşılayacağız. Amerika'ya gelsin!.."

Hüseyin 1952 yılında Yüksek Elektrik Mühendisi Diplomasıyla İTÜ'den mezun oldu.

Bir gazetenin yaptığı kampanya ve toplanan parayla ABD'ye giden bir gemiye bindirildi.

Uzun bir yolculuktan sonra MIT'de Prof. Morse'un karşısına geçti.

Morse, Hüseyin'in tez hocası olacaktı; ancak genç adamın İngilizcesi yetersizdi, profesörün söylediklerini tam olarak anlayamıyordu.

Onun da yolunu buldu, hocasına dönüp şöyle dedi:

–Write on the blackboard/ Tahtaya yazın!.

Hocasının tahtaya yazdığı tez konusunu defterine geçirdi ve üniversiteden ayrıldı.

MIT'de tez konuları genellikle 5 ile 9 yıl gibi bir sürede bitir-




ilebiliyordu, ancak Hüseyin 3 ay sonra Morse'un karşısındaydı!..

Profesör, büyük bir şaşkınlıkla incelediği tezin mükemmel olduğuna karar verdi; ancak MIT'de hemen diploma verilemiyordu.

Hüseyin başka dersler aldı ve 2 yıl sonra doktorasını alarak bu kez Princeton Üniversitesi'ne başvurdu ve orada da dahi Fizikçi Albert Einstein'ın öğrencisi oldu!..

Birkaç yıl sonra Boston'a dönüp, icatları destekleyen bir firmada çalışmaya başladı.

İlk büyük buluşunu 1960'ların başında yaptı.

–Sesle kumanda edilen bilgisayar!..

Cumhuriyetin erdemi!

Daha inanılmazı da var:

–Hüseyin, 1958 yılında çalışmalarını yakından izlediği Einstein'ın kendisi kadar ünlü "Fonksiyon Teorisi"nde eksiklikler tespit etti ve bunu bir mektupla kendisine de bildirdi, iyi mi?..

Mektubu bilim adamına ulaşmadan Einstein öldü!..

Hüseyin bu eksikliği ünlü bir bilim dergisinde yayımlayınca adeta kıyamet koptu.

Bilim dünyası ikiye bölündü!.

Einstein'in kuramına karşı Hüseyin'in "Kütle Çekim Kuramı" da literatüre girdi!..

Bugün dünyada çok yaygın olarak kullanılan "Siri", "Google", "Now", "Cortana" gibi sesli komut sisteminin mucidi Prof. Dr. Hüseyin Yılmaz, 27 ocak 2013'te yaşamını yitirdi…

Şimdi… Gelelim kıssadan hisseye; kendimi de katarak soruyorum:

–Bu müthiş, bu dünya bilim tarihine kazınmış ismi içimizden kaç kişi biliyor acaba?!.

Daha acıklı bir soru sorayım.

Şayet Nobel Kimya Ödülü'nü kazanmasaydı, Mardin'de yoksulluk içinde başlayan yaşamını, dünyanın en önemli bilim adamlarından biri olarak sürdüren Prof. Dr. Aziz Sancar'ı kaç kişi bilecek, tanıyacak, gurur duyacaktı?!.

Dünyaca ünlü, adı tıp literatürüne geçmiş Beyin Cerrahı Prof. Dr. Gazi Yaşargil'i kaç kişi tanıyor, biliyor acaba?!.

Çok sesli müzik alanında harikalar yaratan müzisyenlerimizi;

Fazıl Say'ı, İdil Biret'i, Gülsin Onay'ı, Güner, Süher Pekinel kardeşleri, Suna Kan'ı, Gürer Aykal'ı bırakın dinlemeyi, izlemeyi, kaç kişi adlarını biliyor acaba?!.

Futbol dışında dünyada büyük başarılar elde eden sporcularımızı kaç yurttaşımız tanır çok merak ediyorum!..

Örnek çok, yüzlerce…

Hüseyin Yılmaz'ı Boğaziçi Aydınlar Topluluğu Grubu'nda yayımlanan bir mesaj ile tanıma fırsatı buldum.

Bu büyük bilim adamı önünde, tıpkı diğer kahramanlarımızın olduğu gibi saygı ve sevgiyle eğiliyorum. Bir önemli uyarı da bize,

Türk milletine:

–Kahramanlarını, yüz ağartan önderlerini, bilim, kültür, sanat insanlarını baş tacı etmeyerek unutan, adını bile hatırlamayan toplumların gideceği yer, tarihin tozlu sayfaları ve Hititler, Asurlar, Sümerler gibi tarihin mezarlığıdır!..

***Birşan Göktaş***




ÖMƏR AŞIRIMI
3260 METR


QARABAĞ AZƏRBAYCANDIR!
AZƏRBAYCAN - TÜRKİYƏ BİR CANDIR!
MUROVDAĞ TUNELİ






QARABAĞ
1227












717


QARABAĞ










V A Q İ F

# Kamilləşən, müdrikləşən ömrün nuru



Haqqında söz açacağımız, tarix elmləri doktoru, dosent Lətifə Əliyeva Azərbaycanda qadın hərakatını tədqiq edən dəyərli alimlərimizdəndir. Xaraktercə xeyirxah insan, humanist müəllim, dostcanlı, ailəcanlı, əsl vətəndaş, vətənpərvər şəxsiyyətdir. Lətifə xanım əsl – nəcabətli bir nəslin övladı, soy-kökün davamçısıdır. El arasında sözü bütöv, alicənab insan kimi tanınan Ağaqasım Əliyevin ailəsində 1947-ci ilin yayında Sabirabad torpağında dünyaya göz açıb. Orta məktəbdə də əla oxuyub, ali məktəbdə də... 1969-cu ildə BDU-nun tarix fakültəsini bitirəndən sonra ilk əmək fəaliyyətinə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi yanında Partiya Tarixi İnstitutunda kiçik elmi işçi kimi başlamış, daha sonra baş elmi işçi işləmişdir. 1989-cu ildən BDU-nun tarix fakültəsində çalışır. 2000-2010-cu illərdə paralel olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Beynəlxalq Münasibətlər tarixindən dərs deyib. 1997-ci ildə "70-ci illərdə Azərbaycan sənayesində yenilikçilər hərəkatı" mövzusunda namizədlik, 2016-cı ildə isə "Şimali Azərbaycanda qadınların vəziyyəti (1900-1922)" mövzusunda tarix elmləri doktorluq dissertiyasını müdafiə edib. 4 kitabın tərtibatçısı, 14 monoqrafiyanın, 2 dərs vəsaitinin həm müəllifi, 1 proqram və 80-dən çox elmi məqalənin müəllifidir. L. Əliyeva 2014-cü ildə "Tərəqqi", 2019-cu ilin may ayında isə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" medalı ilə təltif edilib.

Onunla ilk dəfə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında tanış olduq. Sonra BDU-da görüşdük. O zaman o, Siyasi Sənədlər arxivində direktorun elmi işlər üzrə müavini vəzifəsində çalışırdı. Hazırda isə BDU-nun Azərbaycan Tarixi kafedrasının dosentidir. Bir dəfə mənə.. qəzetlərdə məqalələrinizi oxuyuram. Maraqlı mövzulara müraciət edirsiniz. Əsasən də 20-ci yüzilliyin əvvələrində yaşayıb-yaradan qadınlarımızla bağlı. Mənim də namizədlik mövzum qadın hərakatı ilə bağlıdır. İllər keçdi... Lətifə xanım 2016-cı ildə "Şimali Azərbaycanda qadınların vəziyyəti (1900-1922)" mövzusunda doktorluq dissertasiyanı müdafiə etdi. 2018-ci ildə isə "Azərbaycan qadınları emansipasiya yollarında (1918-1920)" adlı kitabı çapdan çıxdı. Müəllif belə maraqlı, zəngin faktlarla əhatə olunan kitabı ərsəyə gətirmək üçün ölkəmizin hüdudlarından kənarda Türkiyə dövlətinin Osmanlı arxivində, Rusiya Federasiyası dövlət arxivində, eləcə də Sankt-Peterburqdakı dövlət tarix arxivində xeyli müddət araşdırma aparmışdır. Müəllif Azərbaycanın Milli hərakatında,siyasi həyatında, qadınlarımızın necə böyük çətinliklərlə qarşılaşaraq, cəmiyyətdə böyük nüfuz qazanmasını faktlara əsaslanaraq yüksək səviyyədə əks etdirə bilibdi. Kitabın "Azərbaycan Xalq Cümhuriyyətində qadın məsələlərinin həlli(1918-1920)" və "Azərbaycan Qadınları azadlıq illərində(1918-1920)" bölmələrində seçki hüququ məsələsini geniş təhlil edən tədqiqatçı alim qeyd edir ki, qadınlarımız Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumətdən hüquq və azadlıq alaraq öz ictimai-siyasi fəaliyyətlərini genişləndirərək, cəmiyyətin həyatında mühüm rol oynamağa başladılar... L.Əliyeva əsərində Azərbaycan qadınının maarifçilik və mədəni inkişafındakı rolunu, xeyriyyə cəmiyyətlərindəki fəallığını, milli məfkurəmizin oyanmasında dövlətçilik xidmətlərini əks etdirməklə Azərbaycan qadınının müsbət obrazını yaradır. Əslində L.Əliyeva üçün bu yeni bir mövzu deyil. O, bu sahədə çoxsaylı elmi-publisistik məqalələrin və bir neçə monoqrafiyanın müəllifidir. Bu baxımdan onun 2018-ci ildə çapdan çıxmış "Azərbaycan qadınları millətlərarası münaqişələrdə (1905-1920)" adlı monoqrafiyasında bəhs edir. Monoqrafiyada zəngin sənədlər əsasında 1905-1906-cı illərin erməni azərbaycanlı münaqişəsi, I Dünya müharibəsi, 1918-ci il ermənilərin törətdiyi mart soyqırımının Azərbaycan qadınlarının sosial vəziyyətinə

və davranışına təsiri, hərbi dövrün qadınların gündəlik həyatına gətirdiyi çətinliklər araşdırılaraq təhlil edilir. Burada həmçinin Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin yaratdığı Fövqaladə İstintaq Komissiyasının fəaliyyəti və bizdə FİK-nin qadınlara aid sənədləri bir yerə toplanaraq təqdim olunur. Lətifə xanımın bu mövzu ilə bağlı ABŞ, Türkiyə, İspaniya, Almaniya, Polşa, Rusiya, Ukrayna, Moldova və Gürcüstanın nüfuzlu elmi jurnllarında məqalələri dərc olunub. Eləcə də həmin ölkələrdə beynəlxalq konfrans və simpoziumlarda elmi məruzələrlə çıxış edib. L.Əliyeva 2019-cu il iyunun 7-8-də Parisdə Fransanın Milli Assambleyasında Azərbaycan Qadınlarının seçki hüququ almasının 100 illiyi ilə əlaqədar dövlət səviyyəsində keçirilən konfransda bu sahənin yeganə mütəxəssisi kimi geniş məruzə ilə çıxış edib.

Alimin çıxışından: ... Azərbaycan Demokratik Cümhuriyyətinin modernləşmə proqramında qadınların emansipasiya məsələsi başlıca məqsədlərdən biri idi. Azərbaycanın dövlət xadimləri M.Ə.Rəsulzadə, F.Xoyski, N.Yusifbəyli, Ə.Ağaoğlu, Ə.M.Topçubaşlı və b. qadın azadlığının tərəfdarları idilər. Bu prinsiplə 28 may 1918-ci il tarixli "İstiqlal Bəyənnaməsi"-ndə ADC-nin ilk proqram sənədində qeyd edilmişdir. Sənədin 4-cü bəndində milli mənsubiyyətindən, dini etiqadından, sosial mənsubiyyətindən və cinsindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının bərabər hüquqlarına zəmanət verilirdi. Dövlər bununla Azərbaycan qadınlarının kişilərlə birgə hüquq və bərabərliyini rəsmən elan etmişdir. Bu barədə ADC-nin xarici işlər naziri Adil xan Ziyadxanlı 1919-cu ildə ADC-nin yaranmasının birinci ildönümü "Azərbaycan" qəzetində yazırdı: "İstiqlaliyyətimizi elan edən gündən ucalan bayrağımızın dəstəyindən qadınlarımız da kişilərlə bərabər bərk yapışmışdılar". ("Azərbaycan" qəzeti, 1919, 14 aprel)

ADC-nin dövründə qadınlar Parlament və Hökumət aparatında inzibati vəzifələrdə çalışmışlar. Şəfiqə Əfəndizadə Parlamentin dəftərxana rəisi vəzifəsini tuturdu. 1920-ci ilin "Ünvan-təqvim"ində Parlament əməkdaşlarının siyahısında Xədicə Abdullayeva, Humay Atakişiyeva, Ceyran Şirinzadə, Rübabə Yaqubzadə, Zeynəb Rizvanova və b. qeydiyyatçı və kargüzar vəzifələrində çalışdıqları haqqında məlumat var. Leyla Silkeviç, Gülsüm Sübhanqulova, Fatma Bağırova hökumətin işlər idarəsində fəaliyyət göstəriblər. Nazirlər Sovetinin Katibliyində Səyyarə Atamalıbəyova dəftərxana əməkdaşı, Lətifə Davudova xüsusi şöbədə korrektor, diplomatiya şöbəsində isə Fatma Qiyasbəyova və Tamara Əliyeva çalışmışlar. İdarəetmə orqanlarında 26 nəfərdən artıq müsəlman qadını işləmişdir. Şübhəsiz ki, bütün bunlar o illərin Azərbaycan cəmiyyətində ən böyük göstərici, hökumətin qadın siyasətində isə görünməmiş uğuru idi. Müəllif öz kitabında göstərir ki, Azərbaycan Xalq Cümhuriyyətinin ən böyük nailiyyətlərindən biri də Azərbaycan qadınının müstəqillik qazanması, onun şəxsi ləyaqətinin, vətəndaşlıq şüurunun yüksəlməsi və əsasən də Azərbaycançılıq hissinin güclənməsi oldu. Tarixçi alim öz kitabında İslam aləmində Azərbaycan qadınının yeri və ona münasibət məsəsləsini də geniş şəkildə diqqətimizə çatdırır. L.Əliyeva bu mövzuda bir çox yazarların, əsasən də Əhməd bəy Ağaoğlunun məqalələrinə müraciət edib. Tədqiqatçı yazır ki, yüksək Avropa təhsili görmüş Ə.Ağaoğlu o dövrdə İslamın ünvanına deyilən bütün ittihamları təkzib edir və sübuta yetirirdi ki, qadınlara ən böyük qiyməti qadın haqqında xüsusi surələrin yer aldığı Qurani-Kərim verir.

-Azərbaycan qadınının illərlə azadlığı uğrunda apardığı mübarizə zamanı o, vətəninə, ailəsinə sədaqətini, bağlılığını unutmadığını, dininə, dilinə, milli mənsubiyyətinə olan sevgisini də göstərməkdədir. Deyərdim ki, keçən əsrin 60-70-ci illərində tarix elmində ("tarixi feminologiya")yeni bir istiqamət yaranıb.

Qeyd edək ki, Lətifə Əliyevanın doktorluq dissertasiyası da Azərbaycanda bu istiqamətdə yazılan ilk elmi əsərdir.

-Tarixi feminologiya qadınların yalnız təsviri fəaliyyətini deyil, eyni zamanda onun yaşadığı mühitin tarixi durumunu, sosial–iqtisadi vəziyyətini, ailə-məişət qayğılarını, mədəni səviyyəsinin yüksəlməsini və b. mühüm hüquqlarını əhatə etməlidir.

L.Əliyeva cəmiyyətdə fəal mövqe ilə yanaşı həm də qayğıkeş anadır. Ömür-gün yoldaşı Sabir Əhmədov ixtisasca inşaat mühəndisidir. Zəhmetkeş, nümunəvi ailə başçısıdır. 4 övladı da ali təhsil alıblar. Samira ixtisasca hüquqşünasdır, Ülviyyə iqtisadçı olaraq Qazaxıstanda çalışır, Günel Azərbaycan Dövlət İqtisad Universitetində işləyir, oğlu Kənan da iqtisadçıdır. Ailənin ilk nəvəsi Kamran iki il əvvəl yüksək balla Qazaxıstan-Britaniya Universitetinin informasiya texnologiyası fakültəsinin proqramist ixtisasına daxil olub, ingilis dilində təhsil alır. Ata babasının adını daşıyan ən kiçik nəvələri Sabir bağçaya gedir.

Lətifə xanım işıqlı ömrünü biz qadınların haqqı-hüquqlarının tarixini öyrənməyə, Azərbaycanda qadın hərəkatının özəllikləri, Şərqin ilk demokratik respublikasını, bu gün də dünyaya örnək, mütərəqqi qanunlarını araşdırıb, gün üzünə çıxartmaqda... Sələflərimizi bizlərə tanıtmaqda, keçmişimizə ayna tutub daha böyük gələcəyə səsləməkdə... Bu müqəddəs görəvinizdən yorulmayasınız. Daha böyük uğurlar diləyi ilə "Azərbaycan-Türkiyə" dərgisi adına



*Xanım Bilalqızı*

# HOŞ GELDİN KARABAĞ AZERBAYCAN'A






Eğitimci, şair, Azerbaycan kökenli bir anne babadan 20 Ekim 1971 yılında Iğdır'ın Koçkıran (Dize) Köyünde dünyaya geldi. Çocukluğundan beri hep büyüklerinden dinlediği "O Tay" adlı hikâyelerde aradı hayalindeki aşkı Azerbaycan ve Türk Dünyasını, bu sevda şiirlerinin ana temalarından birisini oluşturdu. İlköğrenimini bu köyde (1982) tamamladıktan sonra, Iğdır Ziya Gökalp Ortaokulu (1985) ile Iğdır Lisesi'ni (1988) bitirdi. Yükseköğrenimine Ankara Üniversitesi Dil ve Tarih Coğrafya Fakültesi Coğrafya Bölümü'nde başladı ve 1994 yılında buradan "Azerbaycan'ın Ekonomik Coğrafyası" tez çalışmasıyla mezun oldu. Ardından, Ankara Üniversitesi Eğitim Bilimleri Fakültesi'nde öğretmenlik formasyon eğitimini tamamladı. Daha sonra İstanbul Üniversitesi Fen Edebiyat Fakültesi Coğrafya Bölümü'nde "Kars, Ardahan ve Iğdır'ın Nüfus Özellikleri" tez çalışmasıyla yüksek lisansını (2009) bitirdi. 1995 yılından itibaren Iğdır Merkez Ziya Gökalp Ortaokulunda on yıl kadar öğretmenlik yaptı. Eylül 2015'ten bu yana da mesleğine Ankara'da devam etmektedir.

İlk yazılı ürünü 1995 yılında "Yeşil Iğdır" gazetesinde yayımlanan Kemalettin Kalkan, profesyonel anlamda şiir yazmaya üniversite öğrenciliği yıllarında başladı, şiirlerini Türkçenin yanı sıra, Azerbaycan Türkçesiyle de yazmaktadır. Çeşitli dergi ve gazetelerde şiirleri yayımlandı. Birçok şiiri değerli bestekarlar tarafından bestelendi.

**ESERLERİ:**

Şiir: Utanıyorum (1995), Eyvallah (1999).
Seçki: Altın Kalemler Şiir Antolojisi , 2014).
KAYNAKÇA: Bilgi Formu ve Teyidi (2014, 2017), İhsan Işık / Resimli ve Metin Örnekli Türkiye Edebiyatçılar ve Kültür Adamları Ansiklopedisi (C. 12, 2018).

**HOŞ GELDİN KARABAĞ AZERBAYCAN'A**

Otuz yıl önceydi zillet yılları
Ermeni kesmişti bütün yolları
Dünya da görmedi haklı kulları
Sen bir yavru idin, ben ise ana!
Hoş geldin Karabağ Azerbaycan'a!

Adın dile geldi ama sinildi
"Karabağ Türklerin değil" denildi
Göz göre göre hakkın yenildi
Dünya bir yana, sen de bir yana
Hoş geldin Zengilan Azerbaycan'a!












Adında gizlidir değerin senin
Her yerin mübarek, gül kokar tenin
Türklüğü haykırır bütün bedenin
Sensiz bu bedenin hayrı yok cana!
Hoş geldin Fizuli Azerbaycan'a!

Dünyaya hükmeden kahraman ordun
Dağların, taşların, kutsaldır yurdun
Ermeni itini yok etti Kurdun!
Bu kahramanlıkla düşmanlar yana!
Hoş geldin Gubatlı Azerbaycan'a!

Zümrüttür ormanın, altındır dağın
Yedikçe yenilir yaylada yağın
Baldan da tatlıdır, çöreğin, bağın
Şifalı suların karışsın kana
Hoş geldin Kelbecer Azerbaycan'a!

Vatan harayıyla bağırdı dilin
Miski amber kokar bahçede gülün
Şükür azat oldu Har-ı Bülbül'ün
Bütün canlar kurban, fedadır sana!
Hoş geldin can Şuşa Azerbaycan'a!
Vatan özlemiyle yandı hep için
Dünyaya bedeldir bir tek tel saçın
Kurandır imanın, bayraktır taçın
Sensizlik ölümdür inan ki bana!
Hoş geldin ay Laçın Azerbaycan'a!

İnan başım ermez sahte işlere
Bize dönecekken kaldın düşlere
Üstünde yaşayan iğrenç keşlere…
Ezanı beklerken, "He" dedik Çan'a!
Dönersen Hankendi Azerbaycan'a!
Nice şehit verdik, namussun diye
Bize katılarak ver bir hediye
Seni alacağıq bırakmak niye?
Bu ayıp yakışmaz şöhrete, şana!
Dön artık Hocalı Azerbaycan'a!

***KEMALETTİN KALKAN***
***IĞDIR***

# Azərbaycanın “Qaragilə”si necə yaranıb?

## Maraqlı tarixçə

Məşhur xalq mahnısı “Qaragilə”nin kim tərəfindən bəstələndiyi zaman-zaman müzakirə mövzusu olub.

Bir çoxları bu mahnının Təbrizdə yaranıb Bütöv Azərbaycan nisgilinə çevrildiyini bildirsə də, fərqli iddialar da mövcuddur.

2006-cı ildə mətbuatda “Qaragilə”, “Dilbərim” mahnısının müəllifi kimdir?” başlığı ilə dərc edilən məqalədə bu iddialara aydınlıq gətirilib.

Məqalədə bildirib ki, bəstəkar Nüsrət Əliyevin qohumları mahnının ona məxsus olduğunu iddia ediblər. Nizamişünas alim Əkrəm Şamxalov da mahnının N.Əliyevə aid olduğunu bildirib:

“Nüsrətin qeyri-adi, iri, şəffaf, qara gözləri olduğuna görə evdə onu “Qaragilə” deyə sevib oxşayırdılar. Bir gün Nüsrətin gözü zədələnir, zəifləyir. Müalicələr nəticə vermir, qara gözləri tutulur. O, musiqiyə həvəs göstərməyə başlayır, korlar məktəbində oxuyur. Ona tar da alırlar, bəstəkarlıq, şairlik və müəllimlik edir. Nüsrət ömrü boyu əlinə əsa almayıb. Uşaqlıqdan nisgilli böyüyən Nüsrət öz doğma kədərini musiqiləşdirməyə başlayıb. Fərqləndiyinə görə onu da təhsilini davam etdirmək üçün Moskvaya göndərmək istəyiblər. Lakin bu, baş tutmur.

O vaxt Üzeyir bəy sağ idi.



Nüsrət təhsil müddətində “Qaragilə”sini hazırlayıb oxuyur. Nəğmə yayılır, dilə-ağıza düşür.

“Ajart qızı” deyilən İran müğənnisi “Qaragilə” mahnısını İranda daha da məşhurlaşdırıb. İran rejimi bu mahnıda siyasi motivlərin olduğunu əsas gətirərək ifa edilməsinə qadağa qoyub.

Lakin “Qaragilə”ni məhv etmək mümkün olmadı: o, Azərbaycan nisgilinə çevrildi. Bu gün hamının sevə-sevə dinlədiyi “Qaragilə” belə yaranıb”.

Azərbaycan Bəstəkarlar İttifaqının sabiq sədri Vasif Adıgözəlov mahnı ilə bağlı danışarkən “Qaragilə”nin Təbrizdən gəldiyini deyib:

“O mahnını qadağan etmişdilər. Həmin mahnını Niyazi aranjiman etdi, Şövkət xanım məharətlə ifa etdi. “Qaragilə” Rübabə Muradovanın ifasında da gözəl alınıb. Burada onun Güneydən olması da öz təsirini göstərib”.

Əslən Füzulidən olan xalq artisti İslam Rzayev Nüsrət Əliyevi yaxşı tar çalan kimi dəyərləndirsə də, bu mahnının müəllifinin o olmadığını bildirib:

“Qaragilə” Təbrizdə bəstələnib. Onu burada Rübabə Muradova məşhurlaşdırıb”.

Müəllifin kimliyindən asılı olmayaraq, “Qaragilə” mahnısı bu gün də Bütöv Azərbaycan, Türk Dünyası insanının sevə-sevə dinlədiyi musiqi əsərlərindən biridir.

***Ləman Abbaszadə***

# Azərbaycanda fəaliyyət göstərən icmalar Şuşa Bəyannaməsini dəstəkləyir



Ölkəmizdə fəaliyyət göstərən müxtəlif icmalar Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətlərinə dair qədim mədəniyyət paytaxtında imzalanmış 15 iyun 2021-ci il tarixli Şuşa Bəyannaməsini böyük razılıq hissi ilə qarşılayırlar.

Azərbaycanın Ukrayna Konqresinin idarə heyətinin sədri Yuri Osadçenkonun, Dağ Yəhudiləri Bakı Dini İcmasının sədri Milix Yevdayevin, Avropa Yəhudiləri Bakı Dini İcmasının sədri Aleksandr Şarovskinin, Gürcü Yəhudiləri Bakı Dini İcmasının sədri Zamir İsayevin və “Azərbaycan-Bolqarıstan Dostluğunun İnkişafına Yardım” İctimai Birliyinin sədri Mariya Pavlovna Hüseynovanın imzaladığı bəyanatlarda bildirilib ki, bu ölkədə hər kəs müstəqil Azərbaycan dövlətini öz doğma Vətəni hesab edir, əmin-amanlıq və rifah şəraitində yaşayır: "Bizim övladlarımız işğal altında olan torpaqların azad olunmasında yaxından iştirak etməklə öz vətənləri olan Azərbaycan qarşısında mənəvi vəzifələrini yerinə yetiriblər".

Qeyd edilib ki, Şuşa bəyannaməsi Cənubi Qafqaz bölgəsində uzunmüddətli sülh və sabitliyin bərqərar olması baxımından mühüm tarixi və strateji əhəmiyyətə malikdir. Azərbaycanda fəaliyyət göstərən bütün icmalar müstəqil xarici siyasət həyata keçirən iki dövlət tərəfindən imzalanan, müttəfiqlik münasibətlərinin siyasi-hüquqi mexanizmlərini müəyyənləşdirən, Şuşa Bəyannaməsini dəstəkləyir və Azərbaycanın yanında olduqlarını bəyan edirlər.

## Diaspor təşkilatının rəhbəri Finlandiyada bələdiyyə sədrinin müavini seçilib.

Finlandiyanın Helsinki şəhərində yaşayan soydaşımız, "Azər–türk" Gənclər Təşkilatının sədri, Skandinaviya Azərbaycanlılarının Koordinasiya Şurasının Finlandiya üzrə əlaqələndiricisi Ülviyyə Cabbarova namizədliyi Uusimaa vilayətinin Kirkkonummi şəhərinin bələdiyyə sədrinin müavini seçilib.

Qeyd edək ki, Finlandiyanın ictimai-siyasi həyatında və Azərbaycan diaspor hərəkatında fəal iştirak edən Ülviyyə Cabbarova Helsinki şəhərində miqrantların qəbulu mərkəzində çalışır və bir neçə xarici dildə sərbəst danışır. Finlandiyanın Sosial Demokrat Partiyasının üzvüdür. 16 ildir bu ölkədə Azərbaycan həqiqətlərinin, mədəniyyətinin, incəsənətinin təbliği istiqamətində xüsusi fəallıq göstərir. Ötən il "Diaspor fəaliyyətində xidmətə görə" Azərbaycan Respublikasının medalı ilə təltif olunub.



“Azərbaycan-Türkiyə” jurnalının kollektivi Ülviyyə xanımın bələdiyyə seçkilərində iştirakı və qazandığı uğurları alqışlayır və soydaşımıza təbrik edir.

*Yusif Vəzir Çəmənzəminlinin 100 il əvvəl yazdığı bu yazını 50 il əvvəl bizə oxutmadılar. Oxutsaydılar, yüz ildən sonra hələ də özümüzü yolun başında hiss etməzdik:*

# *Əfkari-ümumiyyə*



Dünyada ən böyük qüvvələrdən birisi əfkari-ümumiyyədir. Topdan, tüfəngdən və zirehlilərdən də bu qüvvə böyükdür. Odur ki, hər kəs istər ki bu qüvvəni əldə saxlasın. İstər məhkum, istər hakim hökumətlər rəsmi qəzetələr nəşr etməyi ilə və ajans telqraflar ilə əfkari-ümumiyyəni öz tərəfinə çəkmək istəyir. Məhkum millətlər bu yolda daha da çox çlışarlar. Əfkari-amməni qazanmaq üçün məhkumların hərəkəti bəzi vaxt qəribə hallar alır. Avropa şəhərlərindən birində bir erməninin bir çoçuğa güllə atdığını qəzetədə oxumuşdum. Ermənidən cinayətin səbəbini soruşduqda demişdi: "Bu cinayətlə erməni çocuqlarının halından sizi xəbərdar eyləyirəm. Onları Osmanlıda qırırlar." İştə əfkari-ümumiyyə cəlbi üçün qəribə bir hərəkət. Lakin bu adətdən kənar bir işdir. Amma bununla da istifadə edirlər.

Neçə sənə əvvəl içəri Rusiyada dəmiryol ilə gedərkən başqa bir hərəkətə rast gəldim. Bir bolqar çoçuğu istasyon yerində vaqona minib, bütün miniklərə kağızlar yaydı. Məzmunu təqribən bu idi: "Vəhşi türklər dilimi kəsdiyi üçün danışa bilmirəm. Təvəqqe eyləyirəm bana kömək edəsiniz." Bu işin doğru olub olmamağını kimsə təhqiq etmirdi. Lakin xalqın rəğbətini bolqar məsələsi qazanırdı və türklərə nifrət qalırdı.

Əfkari-ümumiyyəni cəlb etmək üçün yuxarıda göstərilən ifrat vasitələrdən başqa bir də adi yollar var. Bu da mətbuat və nümayişlərdir. Hansı millət yaşamaq istərsə öz dərdini söyləməlidir, səsini çıxarmalıdır. Səsini çıxarmağı bilməyən və bağırmaq bacarmayan millət həmişə əzilər. Səs vasitəsi də qəzetə və məcmüələrdir. Qonşularımızdan bağırmağı ilə məşhur ermənidir. Bu millət dərdini və tələbini bildirməkdə böyük istedad sahibidir. Dünyada bir qəzetə yoxdur ki erməni məsələsini yazmasın. Bundan başqa özlərinə məxsus bir çox qəzetə və məcmüələri var. Müharibə əsnasında Moskofda rus dilində "Armiyanski vestnik" məcmüəsi verilirdi. Bu məcmüə başdan başa erməniliyi təqdir və tərvic etməklə məşğul idi. Məcmüənin fikri ermənini ən mədəni bir millət şəklində Avropaya tanıtmaq idi. Odessada dəxi eyni fikirdə bir qəzetə çıxırdı. Bu gün İstanbulda fransızca qəzetələr var. Tələblərini Avropanın qulağına söyləməkdən çəkinmirlər. Bir çox məhkum millətlərlə yaxından tanış oldum, çalışmalarını gördüm. Onlarda da eyni hal-əfkari-ümumiyyəni cəlb etməyə böyük əhəmiyyət verirlər. Öz tarixlərini, ədəbiyyatlarını və başqa mədəni məhsullarını Avropanın gözünə soxmağa çalışırlar. Bu gün Paris konferansının nəzərini cəlb etmək üçün həds iz, hesabsız kitablar çap olunur, qəzetələr nəşr olunur. Hər kəs dərdini, tələbini uca səslə bildirir. Eşitdiyimə görə ermənilər bu il milli məsələlərinə dair 900 əsər çap etdirmişlər.

Mətbuatdan başqa bir də bir nümayiş var. Müttəfiqlər İstanbula girdikdə rumlar ev və mağazalarını milli bayraqları ilə bəzəmişlər imiş və çalışmışlar imiş ki İstanbulun zahir görünüşünə yunan rəngi versinlər. İştə nümayiş. Burada oxumaq lazım deyil. Hər kəs gözü ilə görür və bilir.

Məlumdur ki, yunanlar İstanbulu almaq iddiasında bulunurlar. Buna haqları olduğunu bildirmək üçün hər bir vasitəyə müraciət edirlər. Birinci yol əfkari-ümumiyyədir ki, buna xoş gəlmək istəyirlər. Türklərin rəvayətinə görə yunanlar Bəyoğlunda və Qalatada küçələri çox zibilli saxlayırlar. Hər nə əllərinə gəlir küçəyə tullayırlar. Səbəbi bu imiş ki, Avropalılar türkün "idarəsizliyini" görsünlər. Baxınız nümayiş nə şəkillər alır.

İstanbulda bir ayrı nümayişə dair söylədilər. Bir neçə yüz erməni uşağı cırıq-cındır libasda şəhəri dolanmışlar. Məqsəd erməni qaçqınlarının halını bəyan etmək imiş. Xülasə, minlərcə zikr olunan şəkillərə rast gəlmək olar.

Bizim müsəlman aləmində əfkari-ümumiyyənin rəğbətini qazanmaq üçün az çalışılır. Onun üçün də dərdlərimiz kimsəyə bəlli olmur və bizlə maraqlanan az olur. Son səyahətim zamanında bir çox Avropa siyasiyyunu ilə görüşdükdə təəssüf ki əcaib hallar gördüm. Bizim Azərbaycanın nərədə olduğunu çoxları bilmirmişlər. Siyasi adamlar məmləkətimizdən xəbərsiz olduqda yəqin adi adamların heç də xəbəri yoxdur. Böylə olduqda biz ermənilərdən də çox çalışmalıyıq ki, özümüzü tanıdaq. Bu yolda birinci addımları səfirliklərlə konsoloslarımız atmalıdırlar. Gürçü konsolxanələrində bir mətbuat şöbəsi var. Bunun vasitəsi ilə məhəlli qəzetələrə Gürcistana dair məlumat verilir. Biz də eynini düzəltməliyik. Tariximizi, məmləkətdə sayımızı və iqtisadi qüvvəmizi aləmə bildirməliyiz.

**Yusif Vəzirov (Çəmənzəminli) - Temmuz 1919.**

# Yusif Vəzir Çəmənzəminlini yad edirik...



**Yusif Vəzir Çəmənzəminlinin 1907-ci ilə ailəsi ilə. Şuşa şəhəri.**

1925-ci ilin bir aprel səhəri idi. Parisdə keçən 3 illik mühacir həyatının ən ağır gününü yaşayırdı bu gün. Paris Siyasi Elmlər İnstitutunun diplomatiya fakültəsini bitirib buradakı bankların birində işləyən və son bir ildə ağır, sağalmaz xəstəliyə tutulan qardaşı Miri 29 yaşında qürbət diyarda dünyasını dəyişmişdi. Qeyri-ixtiyari 21 yaşında vəfat edən qardaşı Əbülhəsən yadına düşdü. Onda da yaz idi. 1902-ci ilin yazı. Amma o zaman ata-anasının, bacılarının dərdinə qohum-əqrəba, qonum-qonşu şərik olmuş, tez bir zamanda dəfn mərasimi üçün lazım olan hər şeyi təşkil etmiş, əzizlərinə təskinlik vermişdilər.

Burada isə o tək idi. Tək-tənha. Füzuli demiş "bikəsü, biçarəyi, bixaniman" idi. Nə yanında qohum-əqrəba vardı, nə də cavan ölən qardaş üçün dil deyib ağlayan bacı... Yanaqları aşağı süzülən isti göz yaşları Mirinin üstünə çəkilmiş ağı islatdı. Nə vaxtsa nənələrinin həzin bir səslə çağırdığı və qan yaddaşına hopmuş bayatının yanıqlı bir səslə titrəyən dodaqlarından necə süzüldüyündən xəbəri olmadı:

Əzizim ulu dağlar<br>
Çeşməli, sulu dağlar,<br>
Burda bir qərib ölüb<br>
Göy kişnər, bulud ağlar.

Qəriblik də, yad ellərdəki əzablı həyat da yad torpaqda ölməyin yanında toy-bayrammışsən deme...

Yaxşı ki, hələ Şuşadan tanıdığı Ceyhun Hacıbəyli bu ağır və çətin gündə onun köməyinə çatdı. 850 frank pul verərək dəfn mərasimində Yusif Vəzirə əlindən gələn köməyi göstərdi. Lakin pulun azlığı Miri üçün Paris qəbiristanlarından daimi yer almağa kifayət etmədi. Onun üçün ancaq beş il müddətinə qəbir yeri ala bildi...

...Paris məzarlığında nəm torpaq qoxusu verən təzə qəbrin yanında oturan Yusif Vəzir geriyə, 38 illik ömür yoluna boylandı. Keçdiyi ömür yolu birdən-birə ona elə aydın göründü ki, elə bildi Şuşada "Ərim gəldi"də Şuşa dolaylarına baxır və bu dolaylarda Ağdamdan 2-3 günlüyə ailəsinə dəyməyə gələn atasını görür. Gözləri yenidən doldu. Atası Məşədi Mirbabanı, anası Seyid Əzizi xatırladı. Atalı-analı günlər üçün burnunun ucu göynədi. Bir anlığa özünü atasının Ağdamdakı əttar dükanında hiss etdi. Doğma Qarabağın dağlarında bitən nadir dərman bitkilərinin bihuşedici rayihəsi, müxtəlif şərq ölkələrindən gətirilmiş ədviyyatın qoxusu iy yaddaşını oyatdı və bu qarışıq ətirlər uzaq və kimsəsiz Paris məzarlığında burnunu qıcıqlandırdı. Bu xəyali ətirlərdənmi, yorğunluqdan, yuxusuzluqdan, aclıqdanmı başı gicəlləndi. O ötən illərin, ömründən itən günlərin nisgili, xiffəti içinə doldu. Yaddaşı əlindən tutub onu bu kimsəsiz qəbiristanda çıxarıb xatirələr cığırına saldı. Bu cığırsa Parisdən keçərək Avropanı dolaşdı, İstanbula, oradan Krıma, Ukraynaya, Bakıya və nəhayət doğma Şuşaya apardı onu - Azərbaycan Demokratik Cümhuriyyətinin Türkiyədəki keçmiş səfiri, indi isə Paris yaxınlığındakı Klisi şəhərciyində elektrik naqilləri buraxan zavodun ali təhsilli hüquqşünas fəhləsi Yusif Vəzir Çəmənzəminlini...

O cığırla gedən Yusif Vəzir nə qədər tanış yerlər, doğma üzlər, simalarla rastlaşdı... Bir vaxtlar müəllimi olmuş Haşımbəy Vəzirovu, Əhmədbəy Ağayevi, Mirzə Sadiq Lətifovu gördü o cığırlarda...

1905-ci ildə başlayan erməni-müsəlman qırğınınında atılan güllələr bir daha səsləndi qulaqlarında. Yandırılan evlərin alovu yenidən üzünü qarsdı. Daş döşənmiş Şuşa küçələrində qanına bələnmiş günahsız türk övladlarının cəsədlərinə baxdı, baxdı... erməni vəhşətini yenidən yaşadı...

...Şuşa realni məktəbi ermənilər yaşayan məhəllədə yerləşdiyi üçün həmin il digər türk övladları kimi təhsilinin yarımçıq qalması yadına düşdü. Allah Hacıya (H. Z. Tağıyev) rəhmət eləsin. Onun Qafqaz canişini ilə apardığı danışıqlar öz bəhrəsini verdi. Bakı realni məktəbində təhsilini davam etdirməyə icazə verilən 19 Qarabağlı gənc içərisində özünü gördü... Artıq xatirələri Bakının ictimai-siyasi və ədəbi mühitində dolaşırdı. Arada bir dəfə, 1906-cı ilin əvvəlində Şuşaya getdi. Atasının dəfninə...

Anası, kiçik bacısı Əzət və qardaşı Miri ilə Bakı dəniz limanında yenidən vidalaşdı. Onları Şuşadakı qarışıqlığa görə Aşqabada- orada ərdə olan bacıları Bəyim, Zöhrə və Qönçəgilə döndərdi...

1907-ci ildə "Molla Nəsrəddin" jurnalında dərc olunan ilk felyetonun sevincini yaşadı. Həmin felyetona görə ünvanına gəlmiş söyüş və təhqirlə dolu məktubu oxudu...

Xatirələri isə heç cür bir yerdə qərar tutmaq istəmirdi və onu 1908-ci ildə Daşkəndə apardı. Əzətlə (akademik Ziya Bünyadovun qayınanası) görüşdürdü. Daşkənd gimnaziyasında imtahan verib ali məktəbə girmək hüququ qazandırdı. Daha sonra 1910-1915-ci illərdə Kiyev Müqəddəs Vladimir adına İmperator İnstitutunun hüquq fakültəsindəki qaynar tələbəlik həyatının qucağına atdı.

...Kiyevdə təhsil alan azərbaycanlı tələbələri bir yerə toplayıb Azərbaycan dilində kitabçalar nəşr etdirmək üçün xüsusi bir nəşriyyat heyəti yaratmışdı. 1911-ci ildə xalq nağılları əsasında yazdığı "Məlik Məhəmməd" nağılı "Çəmənzəminli Əlixan" təxəllüsü ilə (əcəba, bu "Əlixan" başıbəlalı "Əli və Nino" romanının qəhrəmanı Əlixan Şirvanşirlə olan yaxınlıqdan xəbər vermir-

mi?) 1912-ci ildə "Yeddi hekayə", 1913-cü ildə "Həyat səhifələri" kitablarının nəşri, kitabları görkəmli pedaqoq və ədəbiyyatşünas Firudinbəy Köçərliyə göndərməsi, ondan aldığı xoş sözlərlə dolu məktubları yada düşdü... I Dünya Müharibəsinin başlanması ilə əlaqədar institutun Saratova köçməsi və orada hüquqşünas diplomu alması, yenidən Kiyev həyatı... Daha sonra fevral inqilabının xəbərini Qalitsiyada alması... "Bizim məqsədimiz və amalımız Azərbaycandır" deyərək Kiyevə qayıtması, orada "Müsavatın" şöbəsini yaradaraq ona sədrlik etməsini, daha nələri, nələri xatırladı...

İki od arasında qalmışdı. Ya Parisdə qalıb mühacir həyatı ilə barışmalı, ya da işğal altında inləyən Azərbaycana qayıtmalı idi. Minlərlə azərbaycanlının qətlə yetirilməsindən, bir o qədər də insanın Rusiyanın ən ucqar əyalətlərində salınmış ilk Sovet bolşevik həbs düşərgələrinə göndərilməsindən xəbərdardı.

Sonra xatırladıqları isə sanki Yusif Vəzirin özünə hesabatı idi: 1918-ci ildə doğma yurdumda İstiqlal bayrağı dalğalandı. Həmin ilin noyabr ayının 1-dən Azərbaycanın Ukraynadakı diplomatik nümayəndəsiyəm. Ukraynada "Azərbaycan Muxtariyyəti", "Biz kimik və istədiyimiz nədir?" kitabçalarımı nəşr etdirdim. Azərbaycan XİN-in 1919-cu il aprel ayının 15-də verdiyi 148 saylı əmrinə əsasən Azərbaycanın Ukrayna, Polşa və Krımda diplomatik nümayəndəsi təyin edildim. Simferopolda ( Ağ Məscid) "Azərbaycan və azərbaycanlılar" adlı silsilə məqalələr yazdım, "Litva Tatarlarının tarixi" kitabçasını nəşr etdirdim. 1919-cu ilin payızında Qarabağ xanı İbrahim Xəlil xanın vəziri olan ulu babam Mirzə Əliməmmədağa kimi Azərbaycanın Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri oldum. Lakin Şimaldan əsən küləklərin gətirdiyi qara buludlar Azərbaycanda 23 ay parlayan azadlıq günəşini görünməz etdi. Artıq əsarət altında olan Azərbaycanın səfiri deyiləm. Amma hər an Azərbaycanı düşünür, Azərbaycanla nəfəs alıram. İstanbulda "Azərbaycan ədəbiyyatına bir nəzər" (1921), "Tarixi, coğrafi və iqtisadi Azərbaycan" (1923) adlı kitabları yazdım... Sonra da Paris...

Mirinin vaxtsız ölümü ona bir çox həqiqətləri anlatdı. Həyatın o biri üzünün ölüm olduğunu da. Yox, Yusif Vəzir ölümdən qorxmurdu, yad diyarda ölməkdən qorxurdu. İki od arasında qalmışdı. Ya Parisdə qalıb mühacir həyatı ilə barışmalı, ya da işğal altında inləyən Azərbaycana qayıtmalı idi. Minlərlə Azərbaycanlının qətlə yetirilməsindən bir o qədər də insanın Rusiyanın ən ucqar əyalətlərində salınmış ilk sovet bolşevik həbs düşərgələrinə göndərilməsindən xəbərdardı. Onu da yaxşı bilirdi ki, vətənində vəzifə alan, azərbaycanlı qanına susamış ermənilərin sayı günbəgün artır. Və bu hal da Azərbaycanı yeni bir fəlakətə sürükləyir. Amma vətənində onu nə gözlədiyindən xəbərsizdi. Xəbəri olmasa da vətənə qayıtmaq, doğmadan da doğma vətəndə olmaq, vətən torpağında ölmək istəyirdi. Qeyri-ixtiyari məşhur bir bayatının son misrasını təkrarlayırdı.

"Ölməyə vətən yaxşı, ölməyə vətən yaxşı"

Qürbətdən vətənə dönən Y.Vəzir əvvəlcə "Bakinski roboçi" qəzetində bədii şöbənin redaktoru olur. Sonra Dövlət Plan komitəsində ixtisası üzrə hüquqşünas işləyir. 1930-35-ci illərdə müxtəlif ali məktəblərdə müəllimlik edir. 1927-ci ildə Bilqeyis xanım Acalova ilə ailə həyatı qurur, oğlanları Orxan, Fikrət, qızı Gülarə dünyaya gəlir. Deyəsən hər şey yoluna düşür, kiçik də olsa (cəmi 24 kv\m) öz evi, ailəsi var. İşdən gələndə qabağına yürüyən uşaqları, qarşısına isti yemək və çay qoyan həyat yoldaşı var. Lakin bu xoşbəxtlik uzun çəkmir. 1937-ci il qapını döyür. Ailə ilə birgə keçirilən hər gün, hər saat, hər dəqiqə qazanc sayılır. Əsl dostların sırası get-gedə seyrəlir. Yazıçılar İttifaqında istedadsızların istedadlılara qarşı böhtan və iftiraları son həddə çatır. Hadisələr "bic əyyamı, namərd dünyası"nın gəlməsindən xəbər verir. Beş nəfərlik ailənin dolanışığı isə günbəgün ağırlaşır...

Bir bürkülü avqust axşamında Orxan bəy həmin günlər haqqında mənə bunları söyləyir. "Çarəsiz qalan atam şəxsi kitabxanasındakı qiymətli kitabları dəyər-dəyməzinə satmağa məcbur oldu. O günlərdə atam əl yazmalarını, gündəliklərinin bir qismini, müəyyən sənədləri ürək ağrısı ilə yandırdı. 1938-ci ildə qəzetdə Özbəkistanın Urgənc şəhərində yeni açılmış pedoqoji institutda rus dili müəlliminə ehtiyac olduğu haqda verilən elanı oxuyan xalam bunu atama bildirdi. Atam sənədlərini instituta göndərdi və müsbət cavab aldı. Bizdən ayrılsa da atam sevinirdi.

1939-cu ilin yayında Bakıya gələn atam bizi Nalçikə istirahətə apardı. Həmin günlər çox xoşbəxt idik. Haradan biləydik ki, bu bizim onunla keçirdiyimiz ən son günlər, dəqiqələrdi. Haradan biləydik ki, onu son dəfə görür, onunla son dəfə söhbətləşir, onunla son dəfə gəzməyə çıxırıq. Məzuniyyəti bitirən atam 1939-cu ilin avqustunda Urgəncə getdi və bir daha onu görmədik.

1940-cı ilin yanvar ayının 5-də Daxili İşlər Komissarlığı Yusif Vəziri həbs olunması üçün Azərbaycanın Daxili İşlər Komissarlığının çıxartdığı qərara əsasən atamı Urgəncdə həbs edir və Bakıya göndərirlər. O zaman mən 134 saylı məktəbin 5-ci sinfində oxuyurdum və dərsdən çıxıb evə gələndə mənzilimizi alt-üst, anamı ağlayan gördüm. Nə baş verdiyini soruşanda anam ağlaya-ağlaya atamın həbs edildiyini və Bakıya gətirildiyini xəbər verdi...".

Yusif Vəzir ona qarşı irəli sürülən ittihamnamə ilə tanış olur və ittihamı rədd edərək ittihamnaməyə bu sözləri yazır: "Mənə verilən üç maddədən ibarət ittihamlar ağ yalandır. Mən özümü günahkar hesab etmirəm."

Aparılan istintaqlar, edilən təzyiqlər, verilən işgəncələr Yusif Vəzirin iradəsini qıra bilmir. Axıra qədər sözünün üstündə dayanır. Özünün günahsız olduğunu bildirir, heç kimə böhtan etmir, heç kəsi şərləmir...

1940-cı ilin iyun ayının 11-də SSRİ Ali Məhkəməsinin hərbi kollegiyasının səyyar sessiyası Yusif Vəzir Çəmənzəminlini 8 il müddətinə azadlıqdan məhrum edir. Yusif Vəziri 1940-cı ilin iyul ayının 3-də Keşlə həbsxanasından Qorki vilayətinin ( indiki Nijni Novqorod) Suxobezvodnaya stansiyasındakı həbs düşərgəsinə göndərirlər.

15 il əvvəl uzaq Parisdən "ölməyə vətən yaxşı" deyərək Azərbaycana dönən Yusif Vəzirə vətəndə ölmək qismət deyilmiş sən demə...

1943-cü ilin yanvar ayının 3-də həbsxana xəstəxanasında vəfat edən Yusif Vəzir hələ 1917-ci ildə gündəliyinə belə yazmışdı:

"Hədsiz xiffətlənirəm. Əlalxüsus təklikdən. Özüm üçün bir dəqiqə belə vaxt ayıra bilmirəm, vaxtımın hamısı başqaları üçün cəmiyyət üçün sərf olunur. Hərdən özüm-özümlə qalıb vaxtımı özüm üçün də sərf etmək istəyirəm."

Olduğu bütün ölkələrdə, hətta həbsxanada belə doğma Azərbaycanı təbliğ edən, Azərbaycanı sevdirməyə çalışan, buna rəğmən vətəndə vətənsiz qalan, qürbətdə dünyasını dəyişən, özünə vaxt ayıra bilməyən insan...

***Allah sənə rəhmət eləsin!***

**Məmməd Məmmədzadə**



### Diaspor fəalımız Kaliforniyadakı erməni icmasının nifrət zəminində törətdiyi cinayətlərdən danışıb

Şimali Kaliforniyada fəaliyyət göstərən Azərbaycan Mədəniyyəti Cəmiyyətinin nümayəndəsi Niyaz Düyüçü bu ştatın Santa Klara əyalətinin Nəzarət Palatasının nifrət zəminində törədilən çinayətlərlə bağlı təşkil etdiyi onlayn konfransda məruzə ilə çıxış edib.

"Hate Crimes Task Force" adlı konfransda Santa Klara əyalətinin Nəzarət Palatasının İdarə heyətinin rəhbəri Sindi Çaves (Cindy Chavez) və Kaliforniyada yaşayan müxtəlif millətlərin icma təşkilatlarının nümayəndələri iştirak ediblər.

N.Düyüçü çıxışı zamanı Ermənistan tərəfindən Azərbaycanın ərazilərinin 20 faizinin işğal olunduğu, BMT-nin Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını dərhal və qeyd-şərtsiz tərk etməsinə dair 4 qətnamə qəbul etdiyi, ötən il 44 günlük Vətən müharibəsi dönəmində Azərbaycan silahlı qüvvələrinin torpaqlarımızı işğaldan azad etməsi və ölkəmizin ərazi bütövlüyünü bərpa etməsi barədə ətraflı məlumat verib.

Bildirilib ki, ABŞ-ın Kaliforniya ştatındakı çoxsaylı, müxtəlif rəsmi orqanlarda mühüm vəzifələrdə yerləşmiş erməni icması burada yaşayan azərbaycanlılara nifrət zəminində ciddi təzyiqlər göstərir. Belə hallar xüsusilə ötən il Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsi ərəfəsində daha kəskin xarakter alıb.

Milli nifrət zəminində yetişdirilmiş erməni ekstremist qüvvələri azərbaycanlılara fiziki zorakılıq tətbiq edərək, soydaşlarımıza ciddi xəsarət yetiriblər, azərbaycanlıların ofislərinə hücumlar ediblər, sosial media şəbəkələri, elektron poçt və telefon vasitəsilə soydaşlarımıza təhdidlər yağdırıblar. Bu məqamda erməni icması tərəfindən Şimali Kaliforniya Azərbaycan Mədəniyyət Mərkəzinin ofisinin yerləşdiyi binanın üzərinə nifrət dolu ifadələr, təhqir və söyüşlər yazıldığına diqqət cəlb edilib, baş vermiş insidentlərin əks olunduğu şəkillər və faktlar videotəqdimatda nümayiş etdirilib.

Ermənilərin vandallıq aktları ilə əlaqədar Azərbaycan icması üzvlərinin yerli hüquq-mühafizə orqanlarına müraciətlər etdikləri və bu faktların araşdırılmasının vacibliyi nəzərə çatdırılıb. Təəssüflə qeyd edilib ki, güclü erməni lobbisinin təsiri ilə müxtəlif təşkilat və rəsmilərin hələ də ermənipərəst bəyanatlar qəbul edilməsi hallarına rast gəlinir. Bu vəziyyətin etnik azərbaycanlıları narahat etdiyi və məsələ ilə bağlı ciddi tədbirlərin görülməsinin önəmli olduğu vurğulanıb.

Konfransda çıxış edənlər nifrət zəminində cinayətlərə son qoyulması və tolerant mühitin təşəkkül tapması məqsədilə maarifləndirmə xarakterli fəaliyyətin genişləndirilməsi, sosial mediada müvafiq tədbirlərin görülməsi ilə bağlı məsləhətləşmələrin aparılmasını təklif ediblər.



### Ermənilərin dini və mədəni abidələrə qarşı törətdikləri vandallıqla bağlı məqalə dərc edilib

Niderland Krallığında fəaliyyət göstərən "Niderlandda Azərbaycan Evi"nin rəhbəri Elxan Mirhəşimlinin ermənilərin Azərbaycan torpaqlarındakı dini və mədəni abidələrə qarşı törətdikləri vandallıq aktlarından bəhs edən məqaləsi https://republic-underground.com xəbər portalında dərc edilib.

Müəllif yazıb ki, 1966-cı ildə Zəngəzurun Qubadlı rayonundakı ucqar dağ kəndi olan Göyər Abbas kəndində doğulub. Bildirib ki, 70-80-ci illərdə ermənilər istirahət etmək üçün tez-tez həmin kəndə gələrdilər və adətən qədim alban kilsəsinin və qəbiristanlığın yaxınlığında yerləşərdilər. "Uşaqlıqda biz onların alban kilsəsini tədricən necə dağıtdıqlarını müşahidə edirdik. Mən şəxsən erməni qonaqların divarlara həkk olunmuş alban yazılarını sildiklərinin, kilsənin divarlarındakı xaçları çıxardıqlarının və sındırdıqlarının şahidi olmuşam. Onlar xaçları və yazılar olan kiçik daşları Ermənistana daşıyırdılar. Biz bunun səbəbini soruşanda qızıl axtardıqlarını deyirdilər", - deyə E.Mirhəşimli xatırladıb.

Məqalədə ermənilərin işğal etdikləri ərazilərdə, o cümlədən Qubadlı rayonu ərazisində törətdikləri vəhşiliklərdən, İmamzadə ziyarətgahının və qəbiristanlıqların, o cümlədən qədim alban dini abidələrinin vandallıqla dağıdılması barədə ətraflı məlumat verilib. "Beynəlxalq təşkilatlar susanda, ermənilər cəzasız olaraq bu vandallığı, mədəni soyqırımı həyat keçiriblər. Beynəlxalq təşkilatlar öz susqunluqları ilə ermənilərin bizə qarşı törətdikləri cinayətlərə şərik olublar", - deyə müəllif təəssüflə əlavə edib. Müəllif beynəlxalq ictimaiyyəti ikili standartlardan əl çəkməyə və bu cinayətlərdə təqsiri olanların cəzalandırılmasına çağırış edib.

### "Niderlandda Azərbaycan Evi" Leuvarden şəhərindəki məscidi təmir etdirib

Niderland Krallığında fəaliyyət göstərən "Niderlandda Azərbaycan Evi" üzvlərinin təşkilati dəstəyi və xeyriyyə yardımı ilə Leuvarden (Leeuwarden) şəhərindəki Ulu-Cami türk məscidi təmir olunub.

"Niderlandda Azərbaycan Evi"nin rəhbəri Elxan Mirhəşimli bildirib ki, məscidin təmirə ehtiyacı olmasından ötən il xəbər tutublar. "Təşkilatımızın üzvləri bu barədə məlumat verən kimi, 2020-ci ilin may ayında məscidin binasının fasadında boya işlərinə start verdik. 2021-ci ildə isə məscidin içərisində təmir işləri aparıldı. 11 ayın Sultanı Ramazan ayının başlanması ərəfəsində təmiri bitirdik və məscidi təhvil verməklə inanclı musəlman qardaşlarımızı sevindirdik. Rəbbim bütün oruc tutanların dualarını qəbul etsin, ailələrinə sağlıq, ruzu və sevinc gətirsin!", - deyə diaspor rəhbəri əlavə edib.

Ulu-Cami məscidinin idarə heyəti göstərdiyi xeyriyyə aksiyasına görə "Niderland-dakı Azərbaycan Evi"ni təşəkkurnamə ilə mukafatlandırıb.

Qeyd edək ki, Leuvarden şəhəri Niderlandın şimalında yerləşən Frislandiya əyalətinin paytaxtıdır. Bu şəhərdə yerləşən Ulu-Cami məscidi Niderland Dini Fonduna (HDV) daxildir.

# KERKÜKDEN CAN AZERBAYCANA SELAMLAR GETİRDİM



Erşat Salihi

Erşat Salihi - 2011-ci ildən İraq Türkmən Cəbhəsi Partiyasının başçısı, 1959-cu ildə Kərkük şəhərində Musalla məhəlləsində anadan olmuş, 1978-ci ildə Bağdad Universitetinin fizika-riyaziyyat fakültəsini bitirmişdir.Hələ orta məktəb illərindən Türkmən Milli hərəkatına qoşulan Erşat Salihi, universitet illərində hərəkatın qabaqcıllarından olmuş bu fəaliyyətinə görə 1979-cu ildə Türkman Milli Hərəkatına qoşulma (türkçülük) bəhanəsi ilə həbs edilərək, 10 il həbs cəzasına məhkum edilmişdir. Doqquz il Əbu Qərib həbsxanasının xüsusi siyasi dustaqların saxlanıldığı kamerada ağır şəraitdə cəza çəkən Erşat Salihinin qardaşı bu müddət ərzində səddam hüseyn rejimi tərəfindən edam edilmiş,ailəsi Kərkükdən İraqın cənub vilayətinə sürgün edilmişdir. İraqda rejimin devrilməsindən sonra, 2003-cü ildən 2008-ci ilə qədər İraq Türkmən Cəbhəsi bürolarına rəhbərlik etmiş Erşat Salihi 2008-ci ildə İraq Türkmən Cəbhəsinin Qurultayı ilə birlikdə Kərkük Vilayət sədri vəzifəsini icra etməyə başlamışdır. 7 mart 2010-cu ildə İraqda keçirilən seçkilərdə Kərkükdən millət vəkili seçilmişdir. 2011 -ci ilin may ayından İraq Türkmən Cəbhəsinin sədri kimi vəzifəsini davam etdirməkdədir. Erşat Salihi aprel ayının ilk həftəsi Azərbaycana səfər etdi, bu onun ölkəmizə ilk gəlişi idi.

-Bu gün Kərkükdən, Türkmən Ellərindən can Azərbaycanımıza salam gətirmişəm. Qarabağ Zəfərimizi, Millətimizi, Azərbaycanımızı, kəndimizi kutlamaqdayam.Şəhid ailələrinə Allahdan rəhmət, qazilərə, Gəncədə, Tərtərdə yaralanan sivil insanlarımıza, hər kəsə şəfa təmənni və niyaz etməkdəyəm. Türk Dünyası zorumlu şərtlər altında, hər kəs coğrafiyalar olaraq biri-birindən ayrılmış bir hala gəlmişdir. Amma bu gün mən Bakıdə konuşduğum zaman bir can Azərbaycanlı kardaşımla heç bir fərqi yoxdur. Yəni, mən də fərq deyirəm, o da eyni fərqi deyir. Bu fark sözü de bizi ayırmır, hətta o da aynılığımızı, bir dildə danışdığımızı göstərir. Hepimiz bir boyun Oğuz Xanın övladlarıyıq. Dünya Türkünün boy verdiyi Orta Asya, Altay Dağlarının iftixar etdiyimiz cocuqlarıyıq. Əslində biz hamımız Qarabağın Ata qucağına,dönəcəyindən əmin idik. Azərbaycan xalqından, Azərbaycan Dövləti, Hökumətindən də Qarabağı qaytaracağına əmin idik. Amma könül istərdi ki, ihtilal edilən bölgeyi dünya dövletleri hər kəs yanımızda durmasını istərdik. Amma maləsəf. Yetərincə dünyanın







yanınızda durmaması bızə daha iyi bir mesajdır. O bizə deyir ki: - Ey Türk, titrə və kəndinə dön! Dostunu və haqqın yanında olmayanları bir daha tanı! Bir Türk Cümhuriyyəti hər hansı bir ölkə ilə ilişgisini qura bilir. Biz də, təki cümhuriyyətlərimizin bütün dünya ile iyice alakaları olsun isteriz. Amma onun bilməsi lazımdır ki, kəndisi Türk Dünyasının bir parçasıdır. O Türk Dünyasından qoparsa, çəkilmiş olarsa, o zaman da, indi de, 15-20 il sonra da, xalqının başına nələr gələr, kimlərin buyunduruğuna girirsə onu bilməz. Onun için mən Türk Dünyasını belə görürəm:-bizim aramızdakı coğrafi məsafələrin yaxın uzaqlığının qardaşlığımıza, birliyimizə, heç bir dəxli yoxdur. Iraq türklərini də, Doğu Türküstanı da, Krım, Balkan, İranda -teke türkmenleri, Kaşğayları, güzel Təbrizi, Rusiya sınırları içərisində qalan büyük Türk toplumları, Türkiye, Qazaxlar, Qırğızlar, Özbekler, Türkmenler... Bütün boylarımızı, bizləri biri-birimizə bağlayan bir körpü var. O da ürek, körpüsüdür, birliyimizdir ki, bunu hər zaman sağlam tutmamız lazımdır. Bunun da iki önəmli faktoru vardır, biri torpaqlarımızı savunmaq, ikincisi- kimliyimizi, dilimizi qorumaqla meydanını genişlədirmək. Dilmizə, torpağımıza sahib olursaq bu millet her zaman ayaqda, dimdik qalmağa davam edər…

***Zərnişan İnqilabqızı***



# İNAMLA YAŞAYAN VƏ İŞLƏYƏN HÜQUQŞÜNAS

Samirə Mahir qızı Məmmədzadə Mingəçevir şəhərində ziyalı ailəsində dünyaya gəlib. Hqüquq elmləri doktorudur. Hazırda Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin hüquq məsləhətxanasında çalışır. 15 ildən artıqdır ki, qanunların hökmü ilə işləyir.

S.Məmmədzadə niyə məhz bu sahəni seçməsini, hüquqşünas olmasını belə izah edir:

- Mən orta məktəb illərində fəal ictimaiyyətçi idim. Şagirdlərin və yaxud da yoldaşlarımın arasında bir anlaşılmazlıq baş verəndə mən ixtiyarım oldu-olmadı müdafiə edər, barış yaradar, sülh tərəfdarı olardım. Atam elə uşaqlıqdan bu xarakterimə görə mənə “hüquqşünas qızım” deyərdi.

Atam Mahir Sultanəhməd oğlu Məmmədzadə ixtisasca iqtisadçı idi. O, həmişə ədalətin tərəfdarı olubdur. Uzun illər Dövlət Statistika Komitəsində çalışıb. “Azərbaycan İqtisadçıları” adlı (2008-ci il) Ensiklopedik Topluda haqqında geniş məlumat var.

Görünür mən də ona oxşamışam və atamın hüquqşünas qızı olmaq istəyim də elə o vaxtdan baş qaldırıbdır.

Özünün qeyd etdiyi kimi, romantik gənclik dünyasını yaşayan Samirənin hüquqşünas olmasında oxuduğu bədii əsərlərin, eləcə də baxdığı filmlərdəki qadın qəhrəmanların dövlətçilik işlərində çalışmaqlarına olan maraqlarının da rolu az olmamışdır. O, diplomatiyadan bəhs edən filmlərdə, eləcə də oradakı rollarda sanki… özünü tapırmış…

Hələ uşaqlıq illərindən onun-haqsızlığa, insan taleyinə biganəliyə qarşı barışmazlığı olub. Məhz bu baxımdan da, atası Mahir müəllim sevimli qızının hüquqşünas olmasına mənəvi dəstək göstərib. Anası Mehriban xanım isə yeganə övladının həkim olmasını arzulayıb. Ancaq Samirə öz arzusunun ünvanına tərəf yön alıb, hüquqşünas olub.

Bəzən deyirlər ki, bu sahə qadına uyğun sənət deyil. Lakin Samirə xanımın sevib-seçdiyi həyat yolu bunun əksini sübuta yetirib…

S.Məmmədzadənin doktorluq dissertasiyası “Övladlığa götürmənin hüquqi tənzimi” mövzusunda olmuşdur. Onun müəllif hüquqları olan 2 ədəd dərs vəsaiti var. Müxtəlif vaxtlarda AAK-nın siyahısında olan nüfuzlu dərgilərdə - “Dirçəliş”, Odlar Yurdu Universitetinin “Elm və Pedaqoji Xəbərləri”, Fəlsəfə Sosiologiya və Hüquq İnstitutunun “Hüquq Elminin Müasir Problemləri” və digər jurnallarda elmi məqalələri çap olunubdur. Bununla yanaşı Ukraynada dərc olunan “Pravo” elmi jurnalında “Azərbaycan vətəndaşlığı olmayan şəxslərin Azərbaycandan övlad

götürməsi" mövzusunda, eləcə də Rusiya Federasiyasında çap olunan "Obrazovanie Nauka Nauçnıe Kadrı" jurnalında "Övladlığa götürmənin hüquqi cəhətdən tənzimi", Ukraynanın "Zakon i Pravo" jurnalında "Övladlığa götürmənin yaxın qohumlar tərəfindən həyata keçirilməsi", "Beynəlxalq Konvensiyaların Azərbaycanda tətbiq olunması yolu ilə övladlığa götürmək" və digər mövzularda elmi məqalələri çap olunubdur.

Onu da qeyd edək ki, S.Məmmədzadə 2020-ci ilin sonunda Azərbaycan Respublikası "Təhsil Mərkəzi"nin və "XXI Əsrin Ziyalıları" MMC ilə birgə keçirdiyi sorğu və müsabiqənin nəticələrinə əsasən "XXI Əsrin Ziyalısı" fəxri mükafatı ilə təltif olunubdur.

S.Məmmədzadə qeyd edir ki, hüquq müdafiəçilərinin əsas vəzifəsi onların ədalətli, düzgün və qərəzsiz qərar qəbul etmələridir. Çalışdığım Hüquq Məsləhətxanasına müraciət edən vətəndaşlar daha çox ailə hüququ və mülki hüquqlar, əsasən də övladlığa götürmədə lazım gələn sənədlərin çoxluğu ilə bağlı müraciət edirlər. Bununla bağlı biz onlara qanun çərçivəsində hüquqi xidmət göstəririk. Eyni zamanda digər sahələrdə də çətinlik yaradan məsələlərin aradan qaldırılmasının yollarını izah edirik.

Anası Mehriban Fərman qızı Səfiyeva XVI əsrdə yaşamış Şeyx Səfiyəddinin soy-kökündəndir. Mehriban xanımın atası Fərman kişi nəslin davamçılarından biri kimi bu adı yeddinci dəfə daşıyan olubdur. Onu da qeyd edək ki, Səfəvilər tayfası XVI əsrdən başlayaraq, Rus çarı Azərbaycan xanlıqlarını işğal edənədək ölkəni idarə ediblər. Şeyx Səfiyəddinin nəsli özlərinin yaşadıqları dövrdə maddi baxımdan çox böyük imkana malik olublar. Bakının Balaxanı qəsəbəsində tikdirdikləri möhtəşəm binalar, malikanələr, məscid, mədrəsə, hamam və digər tikililər o vaxtdan bizə miras qalmışdır. Bu qiymətli memarlıq abidələri və tikililər son dövrdə dövlətimiz tərəfindən layiqincə təmir olunubdur.

M.Səfiyeva pedaqogika elmləri üzrə fəlsəfə doktorudur, dosentdir. 50-yə yaxın çap əsərinin, Bakı Dövlət Universitetinin tarix fakültəsinə aid dərsliyin, ingilis dilində I-IV siniflər üçün iş dəftərlərinin və dərsliklərin müəllifidir. İlyas Əfəndiyev adına Elitar Gimnaziyada 5 yaşlılar üçün Əlifba dərsliyinin ilk müəllifidir. Onun haqqında XX Əsrin Azərbaycan Qadınları (2000-2002-ci illərdə) adlı Ensiklopedik Topluda geniş məlumat var.

"Ot kökü üstə bitər" deyib atalar…S.Məmmədzadə hazırda təmsil etdiyi bu nəcib nəslin layiqli davamçısıdır.

Belə qənaətə gəlirik ki, qanun hər kəs üçün şahdır deyən, bütün varlığı ilə işini sevən hüquqşünas xanımın amalı yalnız ədalətli olmaqdır.

O, vətənimizin inkişafına, tərəqqisinə, xalqımızın firavan yaşamasına, xoşbəxtliyinə hər zaman inamla, nikbin gözlə baxıb.

Söyləyir ki… Bizim əsas dərdimiz qədim torpaqlarımızın mənfur düşmən tərəfindən işğal olunması, yurd, yuva, ocaq həsrəti idi. Şükürlər olsun Yaradana... Sevinirik ki, bizim dualarımızı eşitdi… Onun Ulu dərgahına bülənd olmuş əllərimizi boş qoymadı. Qarabağ düyünü açıldı… Dövlətimizin başçısı, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi, uğurlu daxili və xarici siyasəti, mübarizliyi, eləcə də Milli Ordumuzun, Şəhidlərimizin, qəhrəman əsgər və zabitlərimizin, igidlərimizin 44 günlük Vətən Müharibəsində göstərdikləri rəşadət nəticəsində xalqımız qələbə sevinci yaşadı. Onların qanları ilə suvarılan müqəddəs torpaqlarımız, ulu babalarımızdan bizə əmanət olan yurd yerlərimiz özümüzə qayıtdı. Biz Zəfər Günümüzü təntənə ilə qeyd etdik.

S.Məmmədzadənin daxilində həmişə özünə, xalqına, dövlətinə, qanunlarımızın aliliyinə güclü inam hissi var. Bu, həm də sabaha inamdır, müstəqilliyimizin əbədi yaşarlığına, qazandığımız qələbəyə, rəhbərə inamdır, gördüyü işə, atdığı addıma inamdır. İnam hüquq müdafiəçisi və sabahın hakimi üçün yaradıcı qüvvədir.

***Xanım Bilalqızı,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# YERİN ÜRƏKLƏRDƏDİR.





***Əziz qardaşım***
***MirHəşimə (Ağaya)***

Sənin nurlu üzündən,
Günəş də nur alardı.
Bəlkə də, sənə baxıb,
Üzündən utanardı.
Dərin zəkan önündə,
Alimlər mat qalardı.
Səni dinləyən hər kəs,
Özünü unudardı.
Dosta yenilməz vüqar,
Göz dağıydın düşmənə,
Ən böyük natiqlər də,
Heyran olurdu sənə.
Biliyin bir ümmandı,
Hər sözündə bir hikmət,
Hər kəlamın bir neymət.
Incə bir yumorla da,
Insanı düşündürür,
Üzünü güldürürdün,
Dindən söhbət açandan,
Dinsizi öldürürdün,
Elmi əsərlərinlə,
Tarixin sirrin açdın,
Dəyərli kəşflərinlə,
Gələcəyə yol açdın.
Hörmətini el-oba,
Uca tutub həmişə.
Sənə olan məhəbbət,
Düşmüşdü dilə-dişə.
Bir elin Ağasıydın,
Yetimlər atasıydın,
Kim ki, çətinə düşdü,
Sən onun arxasıydın.
Həzrət Əli dilində,
Məhəbbəti qəlbində.
Hüseynə aşiq idin,
Dininə, imanına,
Həmişə sadiq idin.
Səxavətdə tək idin,
Mərhəmətdə tək idin.
Sözü kəsərli idin,
Cəsarətdə tək idin.
Nə deyim, ay Qardaşım,
Elmdə, düşüncədə,
Ağam, əvəzsiz idin.
Qəlbimi üzür kədər,
Gözlərimdən yaş axır.
Bilirəm, daha, yoxsan,
Yenə gözüm axtarır.
Yox-yox, qəbul etmirəm,
Sən hər vaxt bizimləsən.
Gedən cismindir, qardaş.
Yerin ürəklərdədir.
Gözəl sözün-söhbətin,
Həmişə dillərdədir.
Allahın lütfüdü ki,
Bu qədər sevilmisən,
Insanlar arasında,
Hər zaman seçilmisən.
Uca Rəbbim əfv etsin,
Rəhmin əsirgəməsin.
Xeyirxah əməllərin,
Orda olsun köməyin.
Sən cəddinə qonaq ol,
Cənnət olsun qoy, yerin.
Səni kəşf eyləməkdə.
Aciz qələm, aciz söz.
Gəl, sən Həcər, bu dərdə,
Allah səbr versin, döz.

***Həcər Mirhəsən qızı***

# DÜNYADAN GÖZƏL BİR İNSAN KÖÇDÜ...





Fani dünyadan əbədiyyətə qovuşdu... Vətənini-doğma Azərbaycanını canından artıq sevən əsl Vətəndaş... Ləyaqətli elm adamı-arxeoloq, tarix elmləri namizədi... Xalqının cəfakeş oğlu, ictimai xadim, 1990-1995-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı... Tələbələrinin sevimli müəllim-Naxçıvan Dövlət Pedoqoji İnstitutunun, indiki Naxçıvan Dövlət Universitetinin müəllimi, kafedra müdiri... Həzrəti Əli vurğunu, soyu ağır övliyalara söykənən seyyid Mirhəsən ağanın oğlu-Fizuli, Mövlanə, Yunus İmrə, Nəvai, Nəsimi, Seyid Əzim Şirvani, Sabir, Hüseyn Cavid,...aşiqi... Ailəsi-həyat yoldaşı, oğulları, nəvələri, bacıları xüsusilə qız övladı Günellə nəfəs alan sevimli ata, baba, qardaş, dost olan əvəzsiz insan... Və...və..."ALLAHIMDAN tək istəyim Qarabağın düşməndən xilasını görməkdir, sonra rahat ölə bilərəm..." Necə istəmişdi, necə arzulamışdı Uca Yaradannan, eləcə də oldu... Zəfərimizi də Özündən sonra saysız-hesabsız elmi-publisistik məqalələri," Naxçıvan ərazisində son tunc və erkən dəmir dövrü mədəniyyəti" kitabı, yaddaşlarda xatirələri qaldı. Allah sənə qəni-qəni rəhmət eləsin Ağa müəllim, alimlər-üləmalar yurdu Qarabağların fəxri- Mirhəşim Mirhəsən oğlu Seyidli.

***Jurnalımızın ən fəal oxucusu, eksperti - məkanın cənnət olsun…***



## Soydaşlarımız Avstraliya parlamentini erməni diasporunun irqçi və zərərli ritorikasını pisləməyə çağırıb

Avstraliya İttifaqında yaşayan azərbaycanlıların təşəbbüsü ilə 17 mart 2021-ci il tarixindən Avstraliya Parlamentinin rəsmi saytında "Milli, etnik, dini qruplaşmaların öz münaqişələrini Avstraliyaya gətirməməsi" başlıqlı EN2441 saylı petisiya yerləşdirilib.

Petisiyada Azərbaycan həqiqətləri nəzərə çatdırılıb. Ermənistanın 30 ilə yaxın müddət ərzində Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ona bitişik 7 rayonu işğal altında saxladığı, BMT-nin bu işğalı pisləyən 4 qətnamə ilə çıxış etdiyi, azərbaycanlılara qarşi dəhşətli etnik təmizləmə və təcavüzkar siyasət aparması, milyona yaxın azərbaycanlını doğma evlərindən didərgin saldığı, ötən il antiterror əməliyyatı nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etdiyi, hazırda Rusiya sülhməramlılarının Dağlıq Qarabağda atəşkəs rejimini monitorinq etdiyi barədə ətraflı məlumat verilib.

Soydaşlarımız parlamenti milli etnik qrupun gündəmə gətirməyə çalışdığı, Avstraliyanın siyasi mövqeyinə zidd olan və etirazlar doğuran irqçi, zərərli və ayrı-seçkilik salan siyasi ritorikanı pisləməyə çağırıblar.



## Iğdır vilayətində Vətən müharibəsi şəhidlərinin xatirəsinə meşə-park salınıb

İgdır Vəqfinin təşkilatçılığı ilə 44 günlük Vətən müharibəsinin şəhidlərin xatirəsinə İğdır vilayətinin Tuzluca rayonu istiqamətində meşə-park salınıb.

"İğdır Vəqfi Qarabağ Şəhidləri Meşə-Parkı" adı verilən ərazidə gerçəkləşdirilən tədbir Türkiyə və Azərbaycanın dövlət himnlərinin səsləndirilməsi və şəhidlərin şərəfinə sayğı duruşu ilə başlayıb. Ağacəkmə mərasimində İğdır valisi Hüseyn Engin Sarıibrahim, baş prokuror Oğuz Şükrü Eren, Ədliyyə Nazirliyinin hakimi və İğdır Vəqfinin sədri Özgür İnan Zor, Diasporla İş üzrə Dövlət Komitəsinin aparat rəhbəri Daşqın Rəcəbli, Mələkli Bələdiyyə sədri Eray Coşar, meşə-park müdiri Taner Tazegün, kənd təsərrüfatı müdiri Özkan Yolcu, texnologiya müdiri Fərdi Gürel, Ticarət Palatasının sədri Kamil Arslan, qeyri-hökumət təşkilatlarının rəhbərləri və yerli əhali iştirak ediblər.

Tədbirdə H.E.Sarıibrahim, Ö.İ.Zor və D.Rəcəbli çıxış ediblər.

"Bu torpaqlarda bizlər XIX əsrdən etibarən mücadilə aparırıq. Azərbaycan torpaqlarındakı bu mücadilə əslində I Dünya müharibəsi dövründən başlayıb. O dönəmdə də Türk milləti yenə əlindən gələn bütün imkanları ilə Azərbaycandakı qardaşlarının yanında idi. Bu gün İğdır Vəqfinin çox hörmətli menecerləri burada bir millət, iki dövlət anlayışına çox gözəl xidmət edən bir əsər ortaya çıxarıblar. O əsər də torpağa fidanlar əkməkdir. Şəhidlərimiz necə qanları ilə sulayaraq torpağı mübarək edirlərsə, bu torpaqlara əkəcəyimiz ağaclar da, ümid edirəm ki, Türk millətinin əsrlər boyu bu torpaqlarda yaşayacağının nişanəsi olur", - deyə vali bildirib.

İğdır Vəqfinin sədri Özgür İnan Zor deyib ki, xalq Şəhidlər parkı mərasiminə çox böyük maraq göstərib: "Bu qərarın təməlində Vətən sevgisi dayanır. Vətən sevgisi demək – torpağı, milləti, təbiəti sevməkdir. Vətən uğrunda can verməyi gözə almaqdır. Bunun da ən canlı örnəyini 2020-ci ildə Qarabağda canını fəda edən şəhidlərimizdə gördük. Ruhları şad olsun!".

"Azərbaycanın 44 günlük savaşında yanında dayanan və hər anı ilə maraqlanan Türkiyəyə sonsuz təşəkkürlərimizi, minnətdarlığımızı bildiririk. Bu gün burada bir daha şahid olduq ki, bizlər "bir millət, iki dövlətik". Dünya var olduqca, bu qardaşlığımız da davam edəcək", - deyə D.Rəcəbli İğdır Vəqfinə minnətdarlığını bildirib.

Mərasim meşə-park üçün ayrılmış ərazidə ağacların torpağa əkilməsi ilə yekunlaşıb.

# FƏXR EDİRİK: ABDULLAYEVA RƏHİLƏ ABDULLA qızı

Texnika elmləri üzrə fəlsəfə doktoru, dosent



***Abdullayeva Rəhilə Abdulla qızı 1952-ci il fevral ayının 13-də Qərbi Azərbaycanın Zəngəzur mahalının Urud kəndində ziyalı ailəsində anadan olub.***

1958-ci ildə Zəngəzur mahalının Urud kənd səkkizillik məktəbinin birinci sinfinə gedib. 1968-ci ildə Sisiyan rayonunun Vağədi kənd orta məktəbini bitirib. 1969-cu ildə Azərbaycan Politexnik İnstitutunun Elektrotexnika fakültəsinə daxil olub. 1975-ci ildə həmin institutun axşam şöbəsini bitirib. Riyaziyyata böyük həvəs və marağı olduğu üçün ikinci ixtisas kimi Bakı Dövlət Universitetinin Mexanika-riyaziyyat fakültəsini bitirib. Əmək fəaliyyətinə 1969-cu ildə Azərbaycan Milli Elmlər Akademiyasının Kibernetika İnstitutunda laborant vəzifəsindən başlayıb. 1971-ci ildən İnformasiya Telekommunikasiya Elmi Mərkəzində (indiki İnformasiya Texnologiyaları İnstitutu) böyük mühəndis, aparıcı mühəndis, qrup rəhbəri - şöbə müdiri vəzifələrində çalışıb. Bakı Dövlət Universitetində, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Türkiyə Respublikasının "Ankara Universiteti"ndə müəllim kimi pedaqoji fəaliyyət göstərib.

Rəhilə Abdulla qızı 1998-ci ildən 2013-cü ilə qədər Azərbaycan Respublikası Təhsil Nazirliyində müxtəlif vəzifələrdə çalışmışdır. 2013-cü ildən AR Təhsil Nazirliyi nəzdində Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin Texniki xidmət Ekspertiza və Telekominakasiya şöbəsinin baş məsləhətçisi, 2014-cü ildən Sumqayıt Dövlət Universitetində İnformasiya Texnologiyaları mərkəzinin direktoru, Texnoloji innovasiya və texniki xidmət şöbəsinin müdiri, İnformatika kafedrasının dosenti vəzifələrində çalışıb.

AMEA İnformasiya Texnologiyaları İnstitutunda apardığı elmi araşdırmalar nəticəsində 2001-ci ildə "İnformasiya sistemlərinin adaptivliyinin layihə modelləri" mövzusunda dissertasiya müdafiə edib, "Texnika üzrə fəlsəfə doktoru" alimlik dərəcəsi adına layiq görülmüşdür.

Bir çox beynəlxalq və respublika elmi konfranslarında (Rusiya, Türkiyə, İngiltərə və s. ölkələrdə) iştirak edib. Onun məruzələri Höte adına Alman Mərkəzinin, Rusiya Federasiyasının Təhsil Nazirliyinin və Yeni İnformasiya Texnologiyaları üzrə YUNESKO İnstitutunun 2000-ci ildə Moskvada keçirilmiş beynəlxalq konfransın plenar iclasında və s. dinlənilmişdir. Rəhilə xanım 50-dan çox elmi məqalənin və bir çox dərs vəsaitinin, monoqrafiyaların, bir lüğətin həmmüəllifidir. Onun kitablarından "Sistem proqramlaşdırmanın əsasları", "Fərdi kompüterlərin proqram təminatı (iki hissədə)„, "Adaptiv informasiya sistemlərinin layihələndirilməsi", "İnformatika", "Adaptiv informasiya sistemlərinin layihə sintezinin nəzəri əsasları", "İnformatika, telekommunikasiya və radioelektronika" üzrə İngiliscə - rusca – azərbaycanca terminoloji lüğəti, "İnformatikanın əsasları" və s. göstərmək olar.

2003-cü ilin iyun ayında o, müəllliflər qrupu sırasında Xəzər dənizinin ekologiyası üzrə məruzənin hazırlanmasında iştirak etmişdir. Məruzə ABŞ-ın Ekologiya üzrə Beynəlxalq Fənlərarası Assosiasiyası tərəfindən bəyənilmiş və Londonda keçirilən Beynəlxalq Ekoloji Konfransa təqdim edilmişdir. Konfransın Təşkilat Komitəsi tərəfindən seçilmiş 30 ən yaxşı məruzələr sırasında həmin məruzənin Assosiasiyanın Antologiyasında çap olunması məsləhət görülmüşdür.

2000-ci ilin noyabr ayından Yeni Azərbaycan Partiyasının fəal üzvlərindən biridir.

Üç övladı var, üçü də ali təhsillidir.

**Qızı** - Əliyeva Səbinə Əli qızı – 1976-cı ildə anadan olub, ADİU iqtisadiyyat fakültəsinin Bakalavr, TR Ankara şəhəri Qazi Universitetinin magistratura və doktoranturasını bitirib.

**Oğlu** - Əliyev Bəxtiyar Əli oğlu– 1977-ci ildə anadan olub, BDU-nun "Tarix", AR Prezidenti yanında DİA-nın "Sosiologiya" fakültəsini bitirib. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Ümumi şöbənin müdiri vəzifəsində calışır.

**Qızı** - Əliyeva Aygün Əli qızı - 1983-cü ildə anadan olub, BDU Hüquq fakültəsinin bakalavr və magistraturasını fərqlənmə diplomu ilə bitirib. AMEA Hüquq və İnsan Haqları İnstitutunun dissertantıdır. AR Vəkillər Kollegiyasının üzvü, İstanbul 2 nömrəli Barosunun üzvü, Türkiyədəki Azərbaycanlı İş adamları birliyinin baş katibidir.

# AZƏRBAYCAN-TÜRKİYƏ ƏMƏKDAŞLIĞI REGİONDA SÜLHÜN VƏ SABİTLİYİN QARANTIDIR



**Hacı QASIMLI**
**Bakı Dövlət Universitetinin doktorantı, müəllim**

Son dövrlərdə demək olar ki, müxtəlif istiqamətlərdə inkişaf etməkdə olan Azərbaycan-Türkiyə əlaqələri dünya arenasında iki qardaş ölkənin yüksək səviyyəli əməkdaşlığından xəbər verir. İki qardaş ölkənin rəhbər və xalqları arasındakı münasibətlərin yüksək səviyyədə olmasının təbii ki, tarixi kökləri vardır. Azərbaycan türkləri ilə Türkiyə türkləri arasında dünyanın heç bir yerində tayı bərabəri olmayan qardaşlıq və dostluq münasibətləri vardır. Buna görə də bu iki dövlət bir-biri arasındakı münasibətləri daha aydın ifadə etmək üçün "İki dövlət bir millət" şüarından geniş istifadə edirlər. Ümummilli liderimiz Heydər Əliyevin "Azərbaycan-Türkiyə bir millət, iki dövlət", Böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir"- kəlamlarına əsaslanan Azərbaycan - Türkiyə əlaqələri günü-gündən inkişaf etməkdədir.

Qarşılıqlı bağlar ölkələrimizi həmişə bir-birinə doğma edib. Hazırda qardaş Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ortaya qoyduğu qəti və birmənalı mövqe, haqq işimizə verdiyi qətiyyətli dəstək həmrəyliyimizin bariz nümunəsidir. Hələ Vətən müharibəsindən əvvəl qardaş ölkənin qondarma Ermənistan Respublikasına ismarıcladığı bu fikir hər birimizin qəlbində qürurverici bir təəssürat yaratmışdır: "Nə qədər ki, Ermənistan-Azərbaycan işğalına son qoyulmayıb, bu iki dövlət arasında sərhədlər açıla bilməz! Bu bəyanat birabaşa olaraq Türkiyə dövləti və xalqının mövqeyidir. Qardaş ölkənin bu mövqeyi bütün dünyaya ciddi bir mesaj idi. Bu bir həqiqətdir ki, Azərbaycanın çətin dönəmində iki qardaş ölkə daim bir-birinə yardım etmiş və hər zaman bir-birinin yanında olmuşdur. Hər iki ölkə arasında iqtisadi, siyasi, mədəni, ticari və hərbi əməkdaşlıqda çox ciddi və qələbə ilə nəticələnən uca zirvələr fəth etmişik.

Hərb meydanında ancaq öz gücümüzlə mübarizə apardığımız vaxtlarda gücümüzə güc qatan da məhz bu idi-Türkiyənin mənəvi dəstəyi. 44 günlük müharibədə Ermənistan ordusunun məhv edilməsində, Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələrinin aradan qaldırılmasında Türkiyə Respublikası hər zaman Azərbaycanın yanında olub, ölkəmizin haqq işini beynəlxalq aləmdə inamla müdafiə edib.

Xalq şairi Bəxtiyar Vahabzadənin "Azərbaycan-Türkiyə" adlı şeirində də iki dövlət arasında bir-birinə sevgi, vətənə, millətə, xalqa qarşı məhəbbət hisləri dərin fiki və duyğularla ifadə olunmuşdur:

*Bir ananın iki oğlu,*
*Bir amalın iki qolu.*
*O da ulu, bu da ulu*
*Azərbaycan-Türkiyə.*
*Dinimiz bir, dilimiz bir,*
*Ayımız bir, ilimiz bir,*
*Eşqimiz bir, yolumuz bir*
*Azərbaycan-Türkiyə.*
*Bir millətik, iki dövlət*
*Eyni arzu, eyni niyyət.*
*Hər ikisi cümhuriyyət*
*Azərbaycan-Türkiyə.*
*Birdir bizim hər halımız*
*Sevincimiz-məlalımız.*
*Bayraqlarda hilalımız*
*Azərbaycan-Türkiyə.*
*Ana yurdda-yuva qurdum,*
*Ata yurda könül verdim.*
*Ana yurdum, atayurdum*
*Azərbaycan-Türkiyə.*

Bütün dünyaya nümunə olan Azərbaycan və Türkiyə münasibətləri dinamik şəkildə inkişaf edərək ölkə arasında əməkdaşlığın yüksək səviyyədə olan çoxaspektli əlaqələrindən xəbər verir.

# Sevirəm ŞAHMATI



Dünyanın ən gözəl diyarı olan, dünyada II yeri, Avropada I yeri tutan çinar meşəsi, dağ çayları ilə insanı valeh edən Zəngilanda 1968-ci ildə dünyaya göz açmışam. Bizim ailəmizdə bu müdrik zəka oynuna sahib olan şahmatı çox sevirlər. Yadımdadır ki, dizlərimi bardaş qurub atamla, qardaşlarımla şahmat oynayardım. Əllərimi fiqurlara toxuna-toxuna bilmədim necə öyrənməyə başladım. Artıq şahmata olan məhəbbətim bu oyunu daha da dərindən öyrənməyə sövq etdi. İlk dəfə Zəngilan şəhərində keçirilən məktəblilərin şahmat birinciliyində mən də çıxış etdim. Çox balaca idim. Rəqibim yaşca məndən böyük idi. Oturduğum stulda ayaqlarım yellənirdi. Mən rəqibimə qalib gəldim və Zəngilan çempionu oldum. Bundan sonra uğurlarımın sayı artmağa başladı. Məni Bakı şəhərində keçirilən Ümumittifaq Şahmat Festivalına dəvət etdilər. Bakı-3 komandasının tərkibində çıxış etdim. Çox həyacanlı idim. İlk rəqibim Belarusiya şahmatçısı idi. Mən rəqibimə qalib gəldim. Rəqibimin məşqçisi ,şahmat kitablarının müəllifi Nikolay Barisoviç məni təbrik etdi və güclü istedadlı olduğumu dedi. Bu yarışdan sonra məni "Lokomativ" cəmiyyəti öz komandasına dəvət edərək Xerson şəhərində keçirilən "Ağ piyada" beynəlxalq yarışında iştirak etdim. Öz taxtımda uğurla çıxış edərək I yerə layiq oldum. Sonra Xarkov şəhərində, Moskva şəhərində keçirilən turnirlərdə uğurla iştirak etdim. Dəfələrlə qadınlar arasında keçirilən Respublika birinciliklərində iştirak etmişəm. 1985-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil oldum və 1989-cu ildə oranı fərqlənmə diplomu ilə bitirdim. Elə həmin il Zəngilan rayon Şahmat UGIM-nin direktor vəzifəsində çalışmağa başladım. İşlədiyim illərdə rayonda şahmatın təbliğ və inkişafına, istedadlı şahmatçıların üzə çıxmasında işgüzarlığımı əsirgəmədim. Tez-tez yarışların keçirilməsinə önəm verdim. Qaxda keçirilən şahmat olimpiadasında bizim komanda çıxış etdi və hər bir şagirdin o yarışda da istedadı üzə çıxdı. Ailə qurmağımla əlaqədar Bakı şəhərinə köçsəm də şahmat fəaliyyətimi davam etdirdim. 1998-ci ildə Xəzər rayonunda 16 saylı UGİM-də şahmat üzrə məşqçi-müəllim fəaliyyətimi davam etdirdim. Burada da gənc, istedadlı şahmatçıların üzə çıxmasında rolum böyükdür. Belə ki, rayon üzrə keçirilən spartakiadalarında dəfələrlə komandam I yerə layiq görüldü. Şahmatçılardan Tünzalə və Məhəmmədəli, Lamiyə və Ülviyyə Namazova bacıları, Teymurov Vüsal, Teymurov Emil, Kərimov Coşqun və s. şahmatda uğurlarını qeyd etmək olar. 2008-ci ildə XX Slpartakiada proqramına daxil olan şahmat üzrə Bakı birinciliyində komandamız I yerə layiq olaraq Bakı çempionu oldular. İstedadlı şahmatçılar Lamiə və Ülviyyə Namazova bacıları dəfələrlə Bakı çempionatında uğurla çıxış edərək Respublika birinciliyinə vəsiqə qazanmışlar. Hazırda mən 3 nömrəli Respublika Şahmat məktəbində fəaliyyətimi davam etdirirəm. Gənc nəslə bu müdrik oyunun sirlərini öyrədərək istedadlı şahmatçıları üzə çıxartmaqla qələbələrə nail oluruq. Aslanov Aslan, Əliyev Tural, Gülümov Müthət beynalxalq yarışlarda çıxış edərək ustalığa qədər titul qazanıblar. I dərəcəli şahmatçıladan Qurbanov Nicat, Namazov Fərhad, Cavadlı Elmin, İbrahimov Polad, Əzimov Rəşadı göstərmək olar. Mən yenədə balaca şahmatçılarla da çalışaraq onların da gələcək yarışlarda uğurlar qazanmasına nail olmaq istərdim. Şahmat "ağlın gimnastikasıdır". Siz də sevin, öyrənin və dəyərlənin!

***Aydan Dursunova***



# Şuşada bunu etmək dünyada sensasiyaya səbəb olacaq





Şuşada bunu etmək dünyada sensasiyaya səbəb olacaq.

Bu günlərdə Norveçdə yaşayıb fəaliyyət göstərən istedadlı soydaşımız, fəal diaspor nümayəndəsi Şervin Nəcəfpur yenə Azərbaycan mədəni irsinə mühüm töhfə verib. Belə ki, Norveçin kral ailəsi üçün geyimlər hazırlayan tanınmış dizaynerin Tükiyənin nüfuzlu "Antaliya Fashion Week" tədbirində "Xarıbülbül" kolleksiyası nümayiş olunub.

Nəcəfpur dünyanın, eləcə də qardaş Türkiyənin bir sıra nüfuzlu dəb jurnallarının üz qabığını bəzəyən "Xarıbülbül" kolleksiyası haqda Publika.az-a danışıb.

– Şervin xanım, yenə də Azərbaycan adına qlobal layihəyə imza atdınız. Təbrikimi qəbul edin.

– Təşəkkür edirəm. Ümumiyyyətlə, bütün layihələrimi Türk Dünyası adına gerçəkləşdirirəm. Norveçdə doğulub böyüməyim də bir yandan üstünlüyümdür. Çünki dünya xalqlarının qəlbinə gedən yolun mədəniyyət, kino, teart, moda, bütövlükdə sənətdən başladığını düşünürəm. Xüsusən də Avropa ölkələrində insanlar savaş və digər kədərli mövzular haqda danışmaq istəmirlər. Bir növ əhvallarını yüksək saxlamağa üstünlük verirlər. Bizim də üzərimizə düşən vəzifə təbliğatımızı mədəni körpülər üzərində qurmaqdır. Odur ki, moda aləminin gücündən faydalanmağa çalışıram. Bu baxımdan fəaliyyətimi daim işıqlandıran Azərbaycan və Türkiyənin media nümayənələrinə minnətdarlığımı bildirirəm.

– Əminəm ki, bu zövq qarşılıqlıdır. "Xarıbülbül" kolleksiyanızın doğulmağından danışmağınızı istərdim.

– Bilirsiniz ki, yaradıcı insanın ideyaları daim bol olur. Sadəcə onları gerçəkləşdirmək üçün doğru zamanı





gözləyir. Xarıbülbülü parçalara köçürmək ideyası məndə 3-4 il öncə yaranıb. Amma bilirdim ki, hələ zamanı deyil. Uzun müddət ətrafımdakı güclü insanlara müraciət etdim, çoxu yardım əlini uzatmadı. Bütün gücümü səfərbər edib, kolleksiyamı "Antaliya Fashion Week"də nümyiş etdirməyə qərar verdim. Bilirsiniz ki, hər il baş tutan bu mötəbər tədbir çox böyük kütləyə xitab edir.

– Buna rəğmən bütün əhəmiyyətli ideyalarınızı həyata keçirməyə nail olursnuz. Uğurlarınız danılmazdır.

– Bütün çətinliklərə rəğmən xəyallarımın ardından getmək xarakterimdir. Sonsuz enerjim, motivasiyam sayəsində layihəmi gerçəkləşdirməyə nail oldum. Yeri gəlmişkən, "Antaliya Fashion Week"də bu il üzvlük haqqımı ödəyən Azərbaycan Diasporuna Dəstək Fondunun dəstəyini xüsusi qeyd etmək istərdim. Bildiyiniz kimi, pandemiya dövründə ən çox ziyan görən sahələrdən biri də moda oldu. Odur ki, yenidən gücümüzü toplayıb, arzularımızı hərəkətə gətirmək asan olmadı. Antaliya Moda Həftəsi təşkilatının rəhbəri Eda Meltem Leykoviçə də peşəkar nümayiş üçün dərin təşəkkürümü bildirirəm.

– Bilirəm ki, ilham mənbəyiniz zahiri və daxili gücü ilə ətrafına enerji saçan qadınlardır.

– Şübhəsiz. Bu kolleksiyada güclü qadınların ruhunu əks etdirməyə çalışmışam. Xüsusən də bir sıra vacib, hətta deyərdim ki, qlobal mesajları bir araya toplamışam. Dünyanın harasında oluruqsa-olaq karyeramızda irəliləyib, ailəmizin qayğısına qalan cəsur qadınlarıq. Bir yandan da haqq davamıza sahiblənməyə nail oluruq. Şəxsən mən müharibə dövründə də, tarixi Zəfərimizdən sonra da bir sıra cəbhədə döyüşdüm. Bir yandan xarici media üçün məqalələr yazıb, digər tərəfdən siyasətdə fəallıq nümayiş etdirdim. Uşaqlığımdan bəri Avropanın bir sıra ölkələrində təşkil etdiyimiz mitinqlərdə əlimdə plakatlarla iştirak etmişəm. Xüsusən də mesajlarımı sevgi üzərində qurmağa çalışmışam. Elə "Xarıbülbül" kolleksiyam da istisna deyildi. Plakatlar üzərində Azərbaycanla Türkiyə arasında dostluq, qardaşlıq münasibətlərinə dair Ümummili liderimizin söylədiyi müsajlar da yer almışdı. Bu gün də Cənab Prezidentimiz 50 milyon soydaşımızı yumruq kimi birləşdirməyə nail oldu. Bu birlik əslində xalqımızın dərin sevgisi idi. İstərdim ki, artıq eşqin paytaxtı Roma, Paris deyil, məhz Şuşa olsun. Elə buna görə plakatların birində "Sevgilim, səni Şuşada gözləyirəm" yazılmışdı.

– Kolleksiyanız haqda bilmədiyimiz faktları da eşitmək istərdim.

– Kolleksiyadakı libasların sayı 11-dir. Yəni zəfər bayramımızın tarixidir. Həmçinin dron çəkilişi ilə geyimlərin üzərindəki 8 rəqəmini də görmək mümkündür ki, bu da Şuşamızın işğaldan azad olunduğu tarixdir.

– "Xarıbülbül" kolleksiyanızı Şuşada işıqlandırmaq diləyi ilə…

– Bu gün dünyanın ən məşhur dizaynerləri ilk növbədə milli mədəniyyətlərini, ornamentlərini təbliğ edirlər. Mən də arzu edirəm ki, yalnız Şervin Nəcəfpur imzası üçün deyil, Vətənim yolunda çalışım. Bundan sonra kolleksiyalarım Qarabağ, Şuşa torpağında nəfəs alsın. Əminəm ki, növbəti təqdimatlarımız Şuşada keçirilsə, dünyanın ən nüfuzlu moda dərgiləri də bizimlə birgə tarixi torpaqlarımıza gəlib, həm mədəniyyətimizə, həm də zəfərimizə bir daha şahid olacaqlar. Bu da dünyada sensasiyaya səbəb olacaq.

***Leyla Sarabi***

# DÜNYANIN SƏRVƏTİ İNSANLAR....




Gözəl qələm sahibi, incə ruhlu rəfiqəmin ürək dolusu təriflədiyi Bursanın müqəddəs yerləri, zəhmətkeş, yurdsevər insanlarından danışdıqca o möhtəşəm şəhərdə tədbirlərə qatıldığımız məqamları xatırlayıram. Bikəxanım kimi bir çoxları, elə mən də, Vətən sərhədlərindən kənara ayaq qoyan təki ilk, o torpaqlarda yaşayan həmsoylarımızdan xəbər tutmağa çalışırıq. Kimlərdir, Vətəni necə təmsil edirlər, Vətən adına necə ad qazanıblar yerləşdikləri ölkələrdə? Bikəxanım, Bursada azərbaycanlılar çoxdur,- deyir, bizim dağıstanlılar da eləcə. Çoxlu qeydlərim var. Fəxr ediləsi, maraqlı dəyərli adamlarla görüşmüşəm. Bir-bir yazıları ötürəcəyəm sizə.

-Olsun. Bikəxanımın Türkiyəyə ezamiyyəti hələ ki, ölkə mətbuatında çap etdirdiyi oçerkləri, yazıları olsa da, son ucunda maraqlı, gözəl kitabların da araya-ərsəyə gələcəyinə inanıram. Görüşdüyü adamlar, gəzib dolaşdığı yerlərlə bağlı üzbəsurət olmasa da sosial şəbəkə üzərindən kifayət qədər danışıb, mazakirələr etmişik. Onun, artıq ikimizn yazısı olacaq bu oçerkdə təqdim etdiyi qəhrəmanı-Ali Abdullayevi mən də qiyabi tanıdım və şəxsinə, xalqının adına qazandırdığı ad-sana görə hörmətim, rəğbətim də yarandı. Bu yerdə söz təmsilçimiz Bikəxanım Alibekovanındır.

Bursaya Uludağın mirvarisi söyləyənlər İnegölü də Bursanın ən gözəl məkanı olaraq tanıdırlar. Vaxtı ilə Qanuni Sultan Suleymanın hərbi səfərdən sonra dincəlməyi tərcih etdiyi, bu gün isə Türkiyənin dünyaca şöhrətli yumşaq mebellərinin istehsal olunduğu İnegöl. Burada yerli xalqla yanaşı müxtəlif ölkələrdən gələn insanlar çox mehriban şəraitdə yaşayıb-yaratmaqda... Ailələr biri birinə qaynayıb qarışmaqda. Ataları Xadjalmaxi bölgəsindən çoxdan çıxmış Murad Kefe buradakı həmyerlilərimizlə məni tanış edir. Əksəriyyəti sovetlər dağıldıqdan sonra Türkiyəyə köçüb buranı özünə ikinci vətən edənlərdir. Belə həmyerlilərim arasında cəmi 5 il bundan əvvəl Türkiyəyə köçüb, İnegölün klassık mebelçilik ənənələrini ekstrovaqant əlavələri ilə daha da zənginləşdirən, əslən Dağıstanın Serkokalinsk rayonundan olan Ali Zubayireviç Abdullayevlə tanış oluruq. Həmyerlimiz bu müddət ərzində mebel biznesi sahəsində qazandığı uğurlar ilə 2018-ci ilin İstanbul Beynəlxalq Mebel Sərgisinin qaliblərindən olmuş, dizayn üzrə Türkiyə Respublikası Ticarət Nazirliyinin Təqdirnaməsinə layiq görülmüş, iş təcrübəsi televiziya ekranlarından təqdim edilmişdir. Nijni Mulebkinin Tajbinlər ziyalı ailəsində dünyaya göz açan Ali hələ kiçik yaşlarından yaradıcı işə, elmə həvəsi ilə yaşıdlarından seçilib. Orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra Moskva Kənd Təssərrüfatı Akademiyasına daxil olub. Bu, Alinin söylədiyi kimi

həyatının o çətin anları idi ki, anası dünyasını dəyişmişdi. “Atam məsləhətləri, təsəllisi ilə sanki məni özümə qaytardı”. Alinin atası Zubayir uzun illər kolxozda briqadir, müfəttiş işləmiş, Həmkarlar Təşkilatına rəhbərlik etmiş, sözü eşidilən, şəxsinə hörmətlə yanaşılan mütəxəssislərdən olub.

Ali Abdullayev üz tutduğu Bursanın İnegöl bölgəsində yerlilərin çoxdan əl üzdüyü, ömrünü başa vurmuş sayılan mebel fabrikini alıb müasir texnologiya ilə ona yenidən həyat verməklə böyük bir entuziazmla işləməyə başlayır. “Fatima” adlandırdığı mebel fabriki qısa bir zamanda yüksək keyfiyyətli mebelləri ilə Bursada özünə xüsusi ad qazanır. Bununla yanaşı Ali, çoxdan arzusunda olduğu tam yeni “Versal” mebel salonunu da açır. Levent və Bülent qardaşları ilə ortaq şalışdıqları fabrikdə o həm də mebellərin dizaynı ilə məşğul olur. Eləcə də logistika daşımaları da üzərinə götürməklə bu xidmət sahəsini də düzənli bir şəklə gətirir. İnsanları sevindirmək, gözəllik yaratmaq Alinin ən böyük arzusu, həyat meyarı...

Atası Zubayirin vaxtılə oğluna öyrətdiyi, gələcəyi üçün vəsiyyət etdiyi həyat dərslərini bu gün Ali öz övladlarına anlatmaqda:-Çalışın hər zaman insanlara fayda gətirəcək işlərlə məşğul olun. Hətta o işdən bu gün qazanacağın olmasa da cəmiyyətə, çoxluğa faydalısa etməlisən. Onsuz da gec-tez gördüyün işin xeyrini, səpdiyin toxumların nə vaxtsa bəhrəsini dadacaqsan. İşində olduğu kimi ailəsində də düzənli bir yapıya malikdir Ali bəy. Evində ailə dəyərlərinə layiq üç övlad böyüdür, həyat yoldaşı Patimatzaxratla birlikdə. Oğulları Osman və Tabjin karate-kiokuşun növündə Türkiyə çempionları, qızı Hülaymat təhsil birincisi... İşdən kənar vaxtlarını ailəsi, övladları ilə keçirməyi sevən Ali, Dağıstanı ilk, Türkiyəni ikinci Vətəni hesab edir. Ali bəy kimi burada yaşayan dağıstanlıların ən böyük arzusu Dəmir Qapı Dərbənd ilə Yaşıl  şəhər Bursanın qardaş şəhərlər elan edilməsi istəkləridir. Bu barədə Dərbənd şəhərinin İcra Nümayəndəliyinə müraciət olunub da. Zatən, insanlarımız qardaşdır. Dərbənd şəhərinin meri Xizri Maqomedoviç Abakarov bu müraciəti dəstəkləyərək dünyanın iki qədim mədəniyyət mərkəzinin qardaşlaşmasını bəyənmiş, Bursada  da bu təşəbbüs təqdir olunmuş. Və qalır çox tezliklə bu işin araya-ərsəyə gəlməsi...

-İnşaallah,- deyir Ali.



Dünyanın böyük sərvətlərindən birini də xoşgörülü, qədirbilən, faydalı insanları deyirlər. Bursada, İnegöldə bu deyimin bir daha təsdiqini gördüm. Alinin şəxsində dostluq, qardaşlıq, kültür körpüləri quran həmyerlilərimdən hələlik deyib, İnegöldən o qədər razı ayrılıram ki...

-Yenə gəlin!

-Mütləq gələcəyəm, belə xeyirxah insanları tanımaqdan, onlar haqqında yazmaqdan kim qürur duymaz ki!

***Bikəxanım Alibekova***
***İnegöl-Bakı-Dərbənd***
***Rus dilindən çevirib jurnal üçün işləyəni***
***Məlahət Abdullayeva***

# Əlişir NƏVAİ – 580

## ƏLİŞİR NƏVAİNİN ƏDƏBİ TƏXƏLLÜSLƏRİ: "Nəvai" və Fani"



Əlişir Nəvai 1441-ci il fevral ayının 9-da Xorasan əyalətinin qədim Herat şəhərində zadəgan ailəsində anadan olmuşdur.

Dahi şair Əmir Əlişir Nəvainin zadəgan əsilli atası və babası hökumət idarəsində-Teymurilər sarayında xidmət etmişlər. Sam Mirzənin təzkirəsində göstərildiyi kimi, "Əlişir Nəvainin ata babası Mir Əbu Səid Cəng dəxi Sultan Hüseynin babası Bayqara Mirzənin (Sultan Hüseyn Bayqaranın ata babasının) birinci əmirlərindən idi. Atası isə Teymurun nəvəsi – Miranşahın oğlu və Səmərqənd hakimi olan Sultan Əbu Səidin (hakimiyyət illəri 1451-1469) vəziri olub". Daha sonra Dövlətşahın təzkirəsinə görə, "Şahruxun oğlu və Xorasan hakimi Sultan Əbul-Qasım Baburun (Ə.Baburun hakimiyyət illəri 1451-1457) ən böyük məmurlarından olmuşdur". Bu səbəbdən də Əlişirin ailəsi Teymurilər sülaləsinə yaxın iqamətgahda yaşamış və Teymurilərdən olan Hüseyn Bayqara ilə birinci sinifdə birgə oxumuşlar. Yuxarıda da qeyd etdiyimiz kimi, Hüseyn Bayqaranın atası ilə Əlişir Nəvainin atası həm də süd qardaşı olmuşlar.

Xorasan padşahı Əmir Teymurun böyük oğlu Şahrux Mirzə 1447-ci ildə vəfat edəndən sonra şahzadələr arasında taxt-tac uğrunda varislik təlaşı yaşandı, ölkəni ixtişaşlar bürüdü. Bu zaman Əlişirin atası bütün ailəsini götürüb İraqa tərəf səfərə etdi. 1452-ci ildə yenidən Herata qayıdıb gəldilər və Əlişir təhsilinə burada davam etdi. Nəvai şeir yazmağa uşaqlıq illərindən başlamış, elə o illərdən də yazdığı şeirləri dillərdə dolaşmışdır. O, artıq 15 yaşında tanınmış şair kimi ad-san qazanmışdı

Əlişir Nəvainin ədəbiyyata olan marağında, məhəbbətində, ilk olaraq, atasının və dayılarının, daha sonra da yetişdiyi mühitin çox böyük rolu olmuşdur. Şeirə meyilliliyin də heca vəznində şeirlər söyləyən atası Kiçginə Bahadurun, "Qabili" təxəllüsü ilə şeirlər yazan dayısı Mir Səidin, "Səbuhi" təxəllüsü ilə şeirlər yazan Mir Səidin oğlu Mir Heydərin, "Qərib" təxəllüsü ilə şeirlər yazan Məhəmməd Əlinin təsiri vardır. Bundan başqa, atasının ölümündən sonra Əlişir Nəvainin himayədarı olan, türkcə şeirlər yazan Sultan Əbul-Qasım Baburun və "Qələndər" təxəllüslü şeirlər yazan, Lütfini oxuyub onu özünə örnək almasını təlqin edən Həsən Ərdəşirin də rolları böyükdür.

"NƏVAI": Nəvai – çoxmənalı sözdür. Daha çox avaz, ahəng, melodiya, təravətli, nəğmə, səs, mənalarında işlənir. Məsələn, deyərlər ki, bülbülün xoş nəvası - xoş avazı, şirin səsi var. Qeyri-adi istedadı, iti zəkası, düşüncəli təfəkkürü ilə fərqlənən Əlişir yeddi-səkkiz yaşlarından şeir yazırdı.

Nəvai sözünün ahəng, səs, nəğmə, melodiyadan başqa, bu söz azuqə, nemət, qida; bəylik, dövlət; ehtiyat; qismət, bəhrə; tədbir tökən, məsləhətçi, xeyirxah, problem həll edən, bir iş görən; nizam-intizamlı, sifar-

*İstərsə ola bir, istərsə min bir,*
*Bütün türk elləri ancaq mənimdir.*
*Xətadən başlayıb Xorasanadək,*
*Ellər fərmanımla ömür sürəcək.*
*Şiraz da, Təbriz də mənim yerimdir,*
*Orda şöhrətlənən söz səngərimdir...*



*Əlişir Nəvainin məqbərəsi*

iş, rifah; zamin olan, girov qoyulmuş əmlak; səs-səda; yaşayış imkanları yaradan, yaşamaq lazım olan şeyləri həll edən və sair kimi mənaları da ifadə edir. Əlişir Nəvai bütün əsərlərində bu sözü müxtəlif mənalarda nəzmə düzmüşdü. Nəvaişünas Erqaş Açilovun da sözün bu mənalarını şairin elə öz əsərlərinin içindən seçdiyini müşahidə etdik. "Əlişir Nəvai əsərlərinin izahlı lüğəti" dörd cildlik kitabında "Nəva" sözünün əsərlərdən nümunələrlə məna izahı verilmişdir. Məsələn,

"Mühakimətul-lüğəteyn" əsərində:

Hər birinin özünəməxsus ... nəva və tərənnümləri var -deyə müəllif yazır.

"Xəzainul-məani" divanında:

Ayrılıq içrə Nəvai ol gülsüz,
Bülbülə der ki, yox onda nəva.

"Xəzainul-məani" divanında:

Nəvai istəmə çox eşq ilə nəva hər kim,
Bu bağ bülbülə yetmədi nəva hətgiz.

"Fərhad və Şirin"də:

Müğənni oxuyur dilkəş nəvalar,
Qızıl qübbə içrə düşür sədalar.

"Fərhad və Şirin"də:

Mey iç bir dəm qalxsın işrət nəvası,
Məhv etməmiş səni ömr əjdahası.

"Fərhad və Şirin"də:

"Yetirəndə bura Fərhad nəvani,
Yetişdi ağzına incimiş canı.

"Lisan ut-teyr" təsəvvüfi əsərində -

Dəhr bağında tapıb kamım rəva,
Taleyim tapdı nəzmimdən nəva.

(Mənası: "Bu dünya bağında məqsədim amala yetişib, bəxtli insanlar şeirlərimdən bəhrələndilər") məzmundakı beytindən çıxış edərək "bəhrə vermək, qismət, məqsəd" mənasında eyni təxəllüsü seçib yazdı ki, bu fikirdə həqiqət var (İzzət Sultan). Şair şeiriyyətini ruh qidası, qəlb azuqəsi bilib yenə təxəllüsünün belə bir mənasını açır.

Ümumiyyətlə, yaradıcı insanlar təxəllüs seçəndə onun öz yaradıcı düşüncələrinə və məqsədlərinə görə yox, daha çox çoxmənalılığına diqqət edərlər, bu hal klassik ədəbiyyatda daha çox müşahidə olunur. Əlişir Nəvainin az yaşında seçdiyi bu təxəllüsü onun müdrik ağlının, uca və ali qəlbinin səsi, nəvasıdır. O, bu çoxmənalı sözün yazılış və ruh mənalarını əsərlərində söz-fikir oynatmaları, gerçək anlamını isə həyat salnaməsində (xeyirxah məqsəd və niyyətlərində) əks etdirmişdir. Nəticədə qeyd edək ki, şair "Nəva" təxəllüsünü türkcə yazdığı əsərlərində istifadə etmişdir. Yalnız "Lisanut-teyr" əsərini "Fani" təxəllüsü ilə yazıb, lakin həmin əsərin içərisində - 79-cu bölmədə təqdim etdiyi "Şeyx Sənan" hekayətini – qissəsini "Nəvai" təxəllüsü ilə möhürləyib. Amma yuxarıda qeyd etdiyimiz kimi, elə bu əsərinin də içində dəfələrlə "nəva" sözünü müxtəlif mənalarda nəzmə düzmüşdür.

"FANİ": Əlişir Nəvai fars dilində yazdığı əsərlərini "Fani" təxəllüsü ilə möhürləmişdi. "Fani" sözünün mənası, bildiyimiz kimi, boş, ötəri, keçici, müvəqqəti, yox olma, həmişəlik olmayan, puç, axırı puç, axırı olmayan; qalmayan və s. deməkdir.

"Fani" – həm müstəqim (həqiqi), həm də məcazi (törəmə) mənada işlənən bu sözün "Nəvai" kimi mənaları çoxdur. El sözüdür, "bu dünya fani dünyadır, axırı heçdir, puçdur". Dünyəvi və təsəvvüfi mənada işlənən fani sözü əslində "fəna" sözündədir. Təsəvvüfdəki yeddi vadinin (tələb, eşq, mərifət, istiğna, tövhid, heyrət, fəqrü fəna) axırıncısı Fəna, əslində həqiqətin başlanğıcıdır. "Lisan ut-teyr" dini-təsəvvüfi əsərinin əsas məzmunu da məhz gəlib bu məntiqə çatır. Ona görə Əlişir Nəvai bu əsərini sonda "Fani" təxəllüsü ilə möhürləmişdir. ("Lisan ut-teyr" əsərində 149-cu fəsildən yüz altmış ikinci fəslə qədər Hüd-hüd (şanapipik) bu vadilərin hər biri haqqında haqqında məlumat verir və ardınca həmin vadiyə uyğun bir hekayət söylənir). Təsəvvüf alimlərinin yazdıqlarına istinadən, fənadan sonra bəqa gəlir. Bəqa isə əbədiyyət, daimilik, sonsuzluq deməkdir.

Əlişir Nəvainin tərcümeyi-halından məlumdur ki, o, təsəvvüf əhlinə daimi hörmət bəsləyib. Hətta özü




tamamilə dərvişlik yoluna qədəm qoymaq istəyib. Dostu Sultan Hüseyn Bayqaranın təkidli xahişi ilə o bu yoldan çəkilib. Ümumiyyətlə, Əlişir Nəvai nəqşibəndilik təriqətinə meyl edib. Ustadım, pirim deyə daim sayğı göstərdiyi dahi mütəfəkkir Əbdürrəhman Caminin müridi olaraq 1476-cı ildən rəsmən bu təriqətə daxil olmuşdu. Nəticə etibarilə də, piri Əbdürrəhman Caminin rəhbərliyi altında bu təriqətin riyazi (əməlləri-ni) mərhələlərini keçərək və fənafillah (Allah yolunda həlak olan) statusuna çatdı. Ömrünün sonuncu illərində tamamlağı "Lisan ut-teyr" əsərini əslində bu etiqadına ədəbi abidə kimi də dəyərləndirmək olar.

Çün "Lisan ut-teyr"lə avaz eylədim,
Müxtəlif quşlarla pərvaz eylədim.

Dörd cildlik "Əlişir Nəvai əsərlərinin izahlı lüğəti" kitabında "Fəna" sözünün əsərlərdən nümunələrlə məna izahı verilmişdir. Məsələn, "Fərhad və Şirin", "Leyli və Məcnun", "Məhbubul-külub" ("Könüllərin sevgilisi"), "Lisanut-teyr" ("Quş dili"), "Tarixi-ənbiya və hükəma" ("Peyğəmbərlərin və müdriklərin (filosoflarin, alimlərin) tarixi") "Məcalisun-nəfais" ("Nəfis məclislər") və s. əsərlərindən nümunələrlə Fani sözünün çoxmənalılığı diqqətə çatdırılır. Əlişir Nəvai



bütün ömrünü nəqşibəndilik təriqətində Əbdürrəhman Camini özünə mürşid bildi, Fəridəddin Əttar elminin dərin¬liyinə qərq oldu. Əlişir Nəvainin xatirələrindən: "O dərəcədə zəifləmişəm ki, vücudumun əzlatını say-maq qabil deyildir. Daha düz dayana bilmirəm. Bir çox xəstəliklərə düçar olmuşam ki, təbiblər dərman tapa bilmir. ... Gündüz əsla yemək yeyə bilmirəm, gecələri bir ləhzə yata bilmirəm. Bir əsaya söykənə bilmədən dura bilmirəm. İki adam yanımda durub kömək etməy-incə təmiz havada gəzib nəfəs almaq üçün ata minə bilmirəm". Əmir Əlişir Nəvai 1501-ci ilin 3 yanvarın-da doğulduğu Herat şəhərində vəfat etdi. Onun ölümü bütün məmləkət üçün böyük matəmə çevrilir. Bu münasibətlə yazılan yüzlərlə xatirələr şairin hələ sağlığında ərazi məhdudluğu bilməyən bir şöhrətə malik olduğunu göstərir. "Vəfat edən dahi sənətkara Sultan Hüseyn Bayqaranın əmri ilə düz bir il bütün ölkə matəm saxlamışdır. Bu fakt nadir olmağından başqa, şairin el içində nüfuzunu və öz sağlığında qazandığı şöhrəti göstərdiyi üçün də qiymətlidir".



Əlişir Nəvainin qəbri-məqbərəsi Gövhərşad Bəyim (Əmir Teymurun böyük gəlini, Şahruxun həyat yoldaşı) Mədrəsəsinin bir addımlığındadır. Gövhərşad Bəyim Mədrəsəsi gözəl bir bağla əhatələnmişdir.

500 ildir ki, Herata qədəm basan hər kəsin ilk ziyarət etdiyi abidələrdir. Heratın adı İskəndər Zülqərneynin şərəfinə tarixdə qızıl səhifə açsa da, bu gün Əlişir Nəvai adına ziyarət edilir. Çünki Əlişir Nəvai Heratı başdan-başa yenidən tikib-qurmuşdu. Bu gün Herat məhz həmin tikililərə görə ziyarət yerinə çevrilmişdir. Əmir Əlişir Nəvai bu gün də qəlblərdə, ədəbiyyatda, dilçilik, din, tarix, coğrafiya, fəlsəfə, ilahiyyat, təsəvvüf elmlərində yaşayır.

***Almaz Ülvi (Binnətova),***
***filologiya elmləri doktoru,***
***professor, nəvaişünas***

# NİLUFƏRİN-"Lunchef" keytrinq"i



On ilə yaxın iaşə təşkili sahəsində peşəkar xidməti olan AQTA"Azərbacan Qida Təhkükəsizliyi Agentliyi" sertifikatının əsasında fəaliyyət göstərən yerli şirkət.Şirkətin müxtəlif sahələr üzrə iaşə xidmətlərinin göstərilməsində böyük təcrübəsi vardır. Hal hazırda şəhərin bir çox rayonlarında (Qaradağ, Səngəçal, Balaxanı, PirAllahı, Hacıqabul) və mərkəzində əməkdaşlıq etdiyi şirkətlərdən ("Sokar", "Premium Transport", "Baku klişe","Azorel""Cinema plus","Franklin Offshore Caspian Ltd","BCC Group", "UĞur construction" və s.) qida ilə təmin edirik. Xidmətlərimiz:nahar paketlərinin ünvana çatdırılması,səyyar xidmət, furşetlərin, kofe-breyklərin və şvedski stolların təşkili, şirkətlərin müqaviləyə əsasən gündəlik, dietik vegan və vegeterian qidalarla təmin olunması aiddir. Menyuya Avropa və Milli mətbəxdən 80 növ yemək çeşidi daxildir. Yeməklərin hazırlandığı mətbəx və qablaşdırıldığı məkanlarda təmizliyə riayət olunur və ən yüksək HACCP-a ( gigiyena standartlarına) uyğundur. Qida hazırlanması proseslərində iştirak edən bütün əməkdaşlar qoyulmuş bütün qaydalara ciddi surətdə əməl edir və işə götürülən şəxslər əvvəlcə ərzaq təhlükəsizliyi və SƏTƏM üzrə intensiv təlimdən keçirlər. Məqsəd göstərilən xidmət və təklif olunan yeməklərin dadı ilə yadda qalan bir tələbata çevrilməkdir. Mağazalar yarımfabrikat yeməklərlə, şəhərlər isə fast-food restoranlarının açılması ilə insanlarda sağlamlıq problemləri yaratmaqdadır. Gərgin iş rejimi samanı isə sağlam qidanın hazırlanmasına heç vaxt qalmır. Odur ki, şirkətimiz sizə ekoloji təmiz,diyetik və zövqünüzə uyğun pəhriz menyusunun təşkilini təklif edir. "Lunchef" mətbəxinin təamları sadə və evüsullu, ləzzətli və özünəməxsusluğu ilə seçilir. Şübhəsiz ki hər kəs özünü doyduracaq və heyran edəcək, seçimini edə biləcək.

**Hörmətlə,"Lunchef"keytrinqin sahibəsi**
**Nilufər Qarayeva**










# NEDEN?..

Bir cumhuriyet çocuğu olarak doğmuş,
Cumhuriyetin milliyetçi, halkçı, demokratik ve laik değerleri ile beslenmiş
Ve bugün "ben" olmayı başarmış,
Gerektiğinde "biz" demeyi de bilen bir birey olarak sana sesleniyorum Atatürk...!

Sana üç ayrı kimliğimle seslenmek istiyorum. Öğretmen kimliğimle,
Kadın kimliğimle,
İnsan kimliğimle....

Kadın öldürmeyi erkeğe hala hak sayan kafaların olduğu bir dünyada ben bir öğretmenim.
Ve merak ederim
Neden Fuzulileri, Nedimleri,
Ali Kuşçuları Hezarfenleri yetiştiren bu millet
Tarihte hiç kadın şair ve bilim insanı yetiştirememiştir?
Ve sorarım neden
Fatih'i yetiştiren Akça kadın değildir?

Kadının bugün sahip olduğu bu kudrete
Tarihteki kadın neden sahip olamamıştır?
Ve sonra kimin eli dokunmuştur
Ve başlatmıştır sosyal devrimi...?
Hangi el kadını alim,
Kadını şair,
Yaşama dair düşünen bir insan haline getirmiştir...?

Sen, bin yıl önce açmalıydın bu topraklarda. Edebiyat kitabımda Fuzuli'nin yanında,
Gülnihal Hanım'ın şiirleri olmalıydı muhakkak.
Pakize Hanım da çiçek aşısını bulur muydu kim bilir?
Kim bilir kaç beyin zayi olmuştur?
Yitip gitmiştir bir kadının kafatası içinde.
Kafatası diyorsam sözün gelişi.
Zira kafa erkeğe aittir,
Kadına da taş kalmıştır sadece.
Kaç kadının çalınmıştır hayatı...?
Erkek olmak, erk olmak demek iken,
Kadın, ek olmaktan ibaret sayılmıştır
Sen yokken...

Sen bir kurtarıcısın ona şüphe yok.
Beni iki kez kurtardın şu esaretten.
Ben iki kez esirdim biliyor musun?
İşgalciler vurmuştu ayağıma prangayı.
Boynumdaki zinciri doğarken getirmiştim. Prangadan kurtulmak yetmezdi bana, Boynumdaki zincirden kurtulmadıkça.

Ve bugün dizlerim varken inadına
Ayaklarım üzerinde durabiliyorsam eğer,
Hak arayabiliyorsam güçlü önünde
Ve el verebiliyorsam haklı olana
Güçlüysem...
Ve gücümü aklımdan alıyorsam kaslara inat,
Şerefim bana aitse
Ve korumak için illa da illa bir erkeğe muhtaç değilsem,
Özgürüm...
Kadınım...
Ben insanım insan....! diye bağırabiliyorsam İnanıyorsam kendime,
Dik tutarak başımı,
Kazanıyorsam aşımı,
Seviyorsam yaşamayı senin sayende.
Bu yüzden seni yaşatmak
Herkesten çok benim boynumun borcu...

Geleceğe umutla bakabiliyorsam eğer,
Bakabiliyorsam mikroskopta mikroba,
Bükülmüyorsa belim,
Kalem tutuyorsa elim,
Türkü söylüyorsa dilim,
Düşünce üretiyorsa beynim,
Kabul görüyorsa fikrim,
Dinleniyorsa zikrim
Sen söyle Mustafa Kemal'im,
Sen söyle
Sen benim neyimsin...?

Ülkemin geleceğinin emanet edildiği çocuklar ve gençler
Bana, bir kadına emanet ediliyorsa,
Doktor oluyorsa Fatma,
Proje çiziyorsa Pınar,
Müvekkilini savunuyorsa Elif
Ve bu konuşmayı şu an burada yapabiliyorsa Sema öğretmen
Sebebi sensin...

Babasının,
Abisinin,
Kocasının gasp ettiği haklarını
Geri veriyorsun Ayşe'ye
Geri veriyorsun ya...
Sen söyle Mustafa Kemal'im, sen söyle
Sen benim neyimsin...?

Sen benim neyimsin biliyormusun?
Sen benim açılan gözüm,
Uygarlığa dönen yüzüm,
Geceden sonra gündüzümsün.

Sen benim neyimsin biliyormusun?
Sen benim çalışan kafam,
Zeybekler oynayan Efem
Dön Bana bak Ey Mustafa'm...!
Sen benim söyleyen dilim,
Sen benim işleyen elim,
Sen benim Mustafa'm,
Mustafa Kemal'imsin...

***Sema Güzel Kara***



18 may Krım türklərinin kütləvi şəkildə sürgün edildiyi gündür.

# Bir hamsi olsa da yesek

Sonbaharın ilk ayı, okuldan yeni dönmüştüm. Annannem kapıda beni bekliyordu.

-Emine kızım, teyzen posta ile bir şeyler göndermiş. Postaya git al.

-Tamam annaanne. Nedir acaba, çok merak ettim. Kırım'dan mı gönderdi?

-Evet.

-Ayyy, nedir acaba?!

-Konuşacağına, koşup alsan?

-Evet,doğru. Hemen gidiyorum!

-Dikkatli ol!

Ben artık duymuyordum. Apartmandan çıkarak,postaya yolumu tuttum. Karşıma çıkan insanların hepsine haber vermek istiyordum: teyzem Kırım'dan bize paket gönderdi! Kırım'dan!!! Herkesle sevincimi paylaşmak istiyordum.

Kırım- sihirli bir kelime! Bir yer adı. Çocukluğumdan hep duyduğum kelime. Yanında da Vatan. Babamdan duyduğumda, gözleri ışıl ışıl parlardı. Çocuktum, pek anlamazdım babam o sözleri söylerken neden bu kadar heyecenlanıyor,seviniyor,gururlanıyor? Dedemlerden duyduğumda, gözlerinin derinliğinde keder, acı,hatıralar görürdüm. Merak ederdim,acaba o derin hatıralarda ne var. Anaannem Kırım deyince gözleri yaşla dolardı. Üzülürdüm, duygularım altüst olurdu. Bende ise Kırım sözü hayallerimi uyandırırdı,gelecekle bağlı hayaller.

Evet Kırım'dan bir posta paketi gelmişti. Heyecanla posta binasına girdim, makbuzu uzattım görevli ablaya. Bana dikkatle baktı:

-Sen Leylanın yeğeni misin? sordu.

-Evet, dedim.

- Teyzemi nereden tanıyorsunuz?

-Aynı sınıfta okuduk. Bu çılgınlığı da ancak teyzen yapabilirdi.

Bozuldum, teyzemi çok seviyordum. Neden böyle söylüyor. Kızdım da biraz. Ben düşünürken posta görevlisi depoya geçti ve oradan bana seslendi:

-Teyzen ne gönderdi,biliyor musun?

Cevap vermedim,kendim de merak ediyordum.

-Hamsi! Düşünebiliyor musun? Hamsi! Posta ile hamsi gönderilir mi? İşte teyzen göndermiş!

Hamsi. Nedir bu hamsi? Kötü bir şey olması gerek, çünkü postacı çok kızgındı.

-Bugün gelip almasaydın, atacaktım! Her tarafı kokuttu!

Ve depodan çıkarak, bana kokan bir paketi uzattı.

-Al,çabuk git. Senden sonra burayı havalandırayım.

Paketi aldım,teşekkür ettim ve postadan çıktım. Paket buram buram balık kokuyordu. Düşündüm bu hamsi balık olsa gerek. Ama teyzem ta Kırım'dan neden balık gönderir ki? Paketi kendimden uzak tutarak,insanların olmadığı ara yollardan anaanemin evine doğru yürüdüm. Kafamda bir çok soru vardı. Kırım'dan gönderilecek başka bir şey yok muydu? Eve girdiğimde, anaannem beni bekliyordu. O da benim kadar heyecanlıydı.

-Emine, kızım sen misin? Getirdin mi paketi?

-Evet, anaanne getirdim.

Elimdeki paketi anaannemin önüne koydum.

-Hamsi varmış içinde. Teyzem neden balık göndermiş ki?

Anaannem heyecanla paketi açmaya başladı. Elleri titriyordu heyecandan. Teyzem ambalajını çok iyi yapmasına rağmen, balığın suyu teneke kutusundan sızmıştı. Anaannem kutunun kapağını açınca, içinde küçücük balıklar gördüm. Anaannem ellerini tenekeye daldırdı ve tuzlanmış balıkları avucuna aldı,kokladı ve ağladı.

-Bozulmuş mu? Neden ağlıyorsun? Anaanne, üzülme balık için. Başka balık alırız, dedim.

-Leyla teyzen senin yaşındayken, dedi anannem, ben hastalandım. Beni hastaneye yatırdılar. Annen, dayın, teyzelerin başıma toplandı.

- Anne, canın ne istiyor, sana ne pişirip getirelim? diye soruyorlardı.

Dedim:

-İstediğim bir şey var ama, burada bulamazsınız.

Dayın dedi:

- Söyle, buluruz.

-Bir hamsi olsa da yesem, dedim."

-Tabii ki o zaman bulamadılar, çünkü bu hamsi sadece Karadenizde olur, Kırım'da.

-Ne özelliği varki bu hamsinin, sordum ben.

-Karadeniz hamsisi çok lezzetli, ama benim için başka bir değeri var, dedi anaannem.

-Nasıl bir değer?

-Bu hamside Vatan kokusu var,trende açlıktan öldüğü anamın ellerinin kokusu var,sürgün edildiğimiz köyümüzün kokusu var.

Anaannem çok konuşmazdı. Gözlerinin yaşını da bizden gizli gizli silerdi ki görmeyelim. O acı günlerden de hiç bahsetmezdi. Şimdi de gene çok konuşmadı. Sadece gözyaşları sel oldu. Ağlıyordu,ama gözlerinde mutluluk vardı. Mutluydu,çünkü hasret kaldığı Vatan Kırım'a dönüş başlamıştı.

***Elvina Murza Demir***

# BÖYÜK TÜRK DÜNYASININ ŞAİRİ HÜSEYİN CAVİD: ŞİİRLERİNDE VATAN SEVGİSİ VE MANAVİ DEGERLER VE KADINA MUNASİBET



Ünlü Azerbaycan şairi Hüseyin Cavid (1882-1941) Azerbaycan türk edebiyat tarihinde önemli yer tutmaktadır. Azerbaycan edebiyatının öne çıkan şairi Hüseyin Cavid, 1882 yılında Nahçivan'da dünyaya gelmiştir. İlk eğitimini aile içinde, sonra Molla mektebinde alan Hüseyin Cavid 1898'de Muhemmet Tağı Sidkinin açtığı "Üsuli Cedid" - yeni tipli okulunda - "Mekteb-i Terbiye"'de okumuştur. Sidki türkceye büyük önem veren mektebdar, pedaqoq, şair olmuş ve yetişen genc nesle böyle tavsiyede bulnmuştur: "Türkceyi iyi ögrenin. Evvela o Ana dilidir, saniyen Vatan dilidir, salisen Millet dilidir". Cavid bu mektebi bitirdikden sonra Tebriz'e geçerek eğitimine orada meşhur "Talibiyyə" medresesində tarih, edebiyyat ve Şark felsefesini, arabca, farsca ogrenerek devam etdirmişdir. 1903 yılında Tebriz'den Nahçivan'a gelen şair, aynı yıl İstanbul'a gider ancak rahatsızlığı sebebiyle tekrar Nahçivan'a döner. 1905 yılının Mayıs ayında ikinci kez gittiği İstanbul'da daha uzun süre kalır ve İstanbul Universitesinde Edebiyyat fakültesinde tahsiline devam ediyor. Burada Rıza Tevfik'ten özel dersler alan ve Darülfünun'un Edebiyat şubesinde derslere devam eden Hüseyin Cavid'in İstanbul edebiyat çevresiyle iletişimi başlar. Aydın çevresiyle irtibata geçtiği İstanbul yılları, şairin Türk ve Batı edebiyatını tanımasına geniş imkânlar sağlar.

İstanbulda tahsil yıllarında Cavid Türk romantizminin o devirdeki seçkin nümayendeleri olan Namık Kemal, Tevfik Fikret, Şemseddin Sami, Abdulhak Hamit, Recaizade Mahmud Ekrem, Rıza Tevfik, Cenab Şehabeddin, Şinasi, Mehmet Akif Ersoy'la sıkı yaratıcılık ilişkileri kurmuş, onların etkisi altında kalmış, bu edebi mühitte yetişmiştir. İstanbul'da kaldığı sürece bir taraftan fikir adamlarından ders almış, diğer taraftan da matbuat âleminde yakından iştirak etmiş ve Sırat-i Müstekim dergisinde şiirler bastırmıştır.

1905 yılından itibaren İstanbul Üniversitesinde 4 sene eğitim görmüş, fitretinde Türklük şuuru güçlü olan Cavid Efendi'nin edebî- bedii, estetik- felsefi, pedaqoji-psikoloji görüşlerinin şekillenmesinde, oluşmasında İstanbul mühitinin mühim rolü olmuştur. Aynı zamanda İsmail Gaspıralı'nın "Dilde, fikirde, işde birlik" şüarı, Ali Bey Hüseyinzade'nin Fyuzat dergisi, Ziya Gökalp'ın Kızıl Elma'sı, Türkçülüyün Esasları onun edebî - bedii yaratıcılığına büyük etki yapmıştır. Eserlerinde Azerbaycan halkının yanı sıra Türk dünyasının sorunlarını ele almıştır.

Siparişle değil, her zaman gerçeği yazmayı tercih eden vatansever şairin eserlerinin ekseriyyetinde olaylar Türk-Turan dünyasında cereyan eder ve kahramanlar bu dünyadan seçilmiş yiğit Türk evlatlarıdır. Bu nedenle o Sovyet rejiminde Panturkist, Panturanist gibi damğalanarak ittiham edilmiş, tutuklanarak Sibirya'ya sürülmüş, orada da vefat etmişdir. Cavidi bu baskılar, sürgünlüer ve mahrumiyetler yıldırmamaış ve Türk'ün şanlı kahramanlık tarihini ihya etmenin gururunu yaşayarak yazmıştır: "Ne zaman kişneseydi Türkün atı/ Kırılardı bir ölkenin kanadı".

Cavid Ulu Önder Mustafa Kemal Atatürk'ün "Yurtta Sulh, Cihanda Sulh" ifadesinin etkisi altında, vatan sever bir şair gibi vatanının sülh, barış içinde yaşaması dileyinde bulunduğu, gibi dünyanın da her yerinde insanların barış içinde yaşamasını istemiştir:

Kesse her kimse cihanda kan izini,
Kurtaran dahi odur yer yüzünü.

Hüseyin Cavidin "İblis" eserindeki Elhan sureti Mustafa Kemal Atatürkün prototipidir.

Cavidin yaratdığı Elhan obrazı bedii edebiyyatda Türklüyün kurtarıcısı, Atatürk ise hayatda türklüyün kurtarıcı olmuştur. Atatürk 1921 yılında Türk Ocakları Konferansında "Devletin kurucusu olan biz türklər "necib millet" adı altında arablara, sadik millət adı altında ermenilere ve arnavutlara kul edilmişdik" - diyor. Elhan da Osmanlı - türk devletini yabancıların əlindən çıkarmağa çalışıyor. İştə Hüseyn Cavidin tablolaştırdığı Elhan obrazı gerçək heyatda öz tecessümünü Atatürk timsalında bulmuş olur. Elhan ve Mustafa Kemal, yalnızca ulusun ve ölkenin kurtarıcısı deyil, tarihin de kurtarıcısı kimi meydana çıkmıştır. Biri Hüseyin Cavidin təsəvvüründə, digəri isə gerçək yaşamda.

Cavid Efendi gelecek nesillere de vatanseverlik duyğularının, türk kahramanlık tarihinin aşılanmasında önemli rol oynayan büyük şairdir. Cavid Türk gençliğini millet duygusunun tantenesi, vatan, bayrak sevgisi, adalet ve hakiket için mücadeleye seslemiş, bu mukaddes manevi degerlerin Türk halkının kutsal amalı olduğuna işaret etmiş ve türk gençliyini başı dik olmağa, sözü bütov olmağa, vatan uğrunda mücadile etmeye seslemişdir:

Türk oğlu sözünden dönmez,
Mehv olur da sürüklenmez,
Hep yükselmek diler enmez,
Çarpışır yaşar.

Huseyin Cavid şanlı Türk ordusunun kahramalık tarihinden gürur duyuyor, bu kahramalığı misralarında ilhamla vasf ediyor, genc nesle bunu anlatıyor ve onların qafletde olmamağı, her zaman daha uyanık ve fedakar olmağı, daha akıl-

lı, daha zekalı olmağı tavsiye ediyor.

Türk ordusu etrafa bu gün hemle ederken,
İrane ve ya Kafkaza imdade giderken,
Rus ordusu durmaz, çekyılirken önümüzden,
Vasif! Ne revadır ki şu parlak günümüzden,
Feyz almayarak biz olalım gaflete mayıl,
Satmaz, satamaz milleti şehsiyyete akil (1, 47).

"İblis" eserinde ise Cavid Türk âlemindeki medeniyetin önemini böyle dile getiriyor:

Turana kılıçtan daha keskin ulu küvvet,
Yalnız medeniyyet, medeniyyet, medeniyyet.

Cavid 1909 yılında İstanbul'dan vatanı Nahçıvana döndükden sonra Nahçıvan, Tiflis, Gence, Bakü şehirlerinde öğretmen olarak çalışmış, egitmçi görüşlerini ele almış, degerli pedaqoji fikir ve ideyalar ileri sürmüş, ögretmen emeyine çok yüksek deger vererek söylemişdir:

Hüseyin Cavid, ilk şiirlerinden ömrünün sonuna kadar kadınların okuması, sosiallaşması, serbest olması, toplumsal hayata karışması ve erkeklerle birlikte aynı hukuka sahip olmaları tezini savunur. Kadının eziyet görmesini ve toplumda yok sayılmasını insanlığın alçalmasıyla eş gören Hüseyin Cavid alçalmış insanlığın ancak kadınla birlikte yükselebileceği düşüncesini dile getirir. Toplumsal hayat içinde kadının hak ettiği yerde olmadığını vurgulayan şair, kadını modernleşmenin nesnesi değil, öznesi olarak görür. Bu düşüncelerle kadını etkin bir eyleyen kimliğiyle değerlendirir.

Kadın gülerse şu ıssız muhitimiz gülecek,
Sürüklenen beşeriyet kadınla yükselecek…" (1, 27)

Hüseyin Cavid özellikle kız çocuklarının egitime celb olunmasını çok istiyordu. O, kız çoçuklarının okuldan, egitimden uzaklaşdırılmasının dinimize de aykırı olmasını belirtiyor ve ebebeynleri kız çocuklarını okula yazdırmağı, onlara yüksek egitim terbiye verilmesini teşfiq ediyordu.

1897- yılında Türkiyenin ünlü pedaqoq ve yazarı Ayşə Sediqə İstanbulda "Üsuli-telim ve terbiye dersleri" adlı bir kitab bastırmış ve kitab ülkenin pedaqoji fikir tarihində ehemiyyetli yer tutmuştur. Cavid "Hesbi-hal" makalesinin üçüncü hissesinde sözüne Ayşə hanımın kitabından bir iqtibasla başlar: "Çocuklara her kim olsa ders veriyor, fakat terbiye ve ahlak dersini her kesden iyi valide veriyor. Çocuğun birinci mürebbiyesi validedir... Demek oluyor ki, bir qövmün seadeti ve terbiyesinde kadınların büyük etkisi vardır. Bunun için her şeyden ziyade kadınların terbiye ve tahsiline ciddi etina edilmelidir. Terbiyeli, tahsilli valideler yetişdirmeye kayret edilmelidir".

Cavid büyük şair olmakla beraber hem de ustad bir ögretmen, pedaqoq olmuştur. Babam hatirelerinde söylermiş ki, Cavid efendi çocukları çok seviyordu, hatta dersini bilmeyen, zaif okuyan, yanlış cevab veren çocuklara da çok büyük sevgi ve hürmetle yanaşıyor, onlara "ögrenersen", "bilersen", "çalışarsan" gibi heveslendirici, motivasion sözlerle onları ruhlandırırdı. O hiç bir zaman hirslenmez, ucadan ve çok konuşmaz, çok sakin, rahatlayıcı terzde dersini anlatıyor, hiç zaman duymadığımız türk dünyasının büyük şairlerinden, kahramanlık tarihinden konuşuyor ve daha çok hayati meseleleri bize anlatıyor, bizi daha çok düşünmeye, tefekküre, mustakil idraka sevk ediyordu. Biz ögrenciler de onu bir ögretmen, bir baba gibi çok seviyor derslerine her zaman hazırlıklı geliyordük (2, 25).

Hüseyin Cavid Nahçıvanda türk ordusunun Şark cebhesinin komandiri Kazım Karabekir Paşa ile görüşmüş ve aralarında güzel dostluk elakeleri, yaratıcılık münasibetleri yaranmıştır. Bu münasibetlerinin türk dünyası, türk okuyucusu için çok büyük önem taşıdığını nezere alarak burada o barede de yazmağı vacib sanıyorum.

Azerbaycan ve Türk tarihinde silinmeyen izlerden biri Mustafa Kemal Paşanın şanlı türk ordusunun - Kazım Karabekir Paşanın komandanlığı altnda 1918 yıl 7 temmuzda Nahçıvana göndermesi ve Nahçıvanı ermeni işğalından hilas etmesidir. O zaman Mustafa Kemal Paşa Nahçıvan hakkında ordu komandanlığına böyle bir emr vermiştir: "Nahçıvan türk kapısıdır. Bu hususu dikkati itibara alarak onun mevcudiyyetini korumak için elinizden geleni yapınız" (2, 49).

Kazım Karabekir Paşa Nahçıvanda olduğu sürecde Nahçıvanda teatronun gelişmesine katkıda bulundu. Burada Paşanın kendi rejissorluğu ile Abdulhak Hamidin "Doxterihindu" eseri tamaşaya koyuldu. Karsdan Nahçıvana trenle getirilen bir vaqon kitabların sayesinde büyük kütübhane yaratıldı. Paşa Nahçıvanda "Rüştiyye" okulunda harbi dersler verdi, Nahçıvan genclerinden ibaret bir harbi takım da yaratdı, eğitim işleri ile meşğul oldu ve orada "Çocuklara ogütlerim"adlı küçük hikayelerden ibaret pedaqoji eser yazdı. Bu eserin elyazma nüshesini Hüseyin Cavid efendiye verdi ve bastırılmasını teveqqe etdi. Cavid efendi de o kitabı 1921 yılında ilk dafa olarak Bakude büyük tirajla neşr etdirdi ki, o kitab bu gün aile kütübhanemizde yer almakdadır.

Paşa yüzerinde "Soykırım yalanı, ermeni mezalimi"-adlı yazdığı kitabın elyazmasını göstererek dedi: "Ben bu kitabda bölgələrdə ermənilerin fənalıqlarını, öldürdükləri insanların sayını, yakdıqları köylerin miktarını toplayıb yazmışam. Bunu Türkiyədə bastırıb bütün dünyaya yayacağım". O kitab İstanbulda basılmış ve yayılmıştır.

Kazım Karabekir Paşa ve Hüseyin Cavid dostluğu Türk - Azerbaycan kardeşliginin bir simgesidir. Bu gün İstanbulda "Azerbaycan Tahsil Medeniyyet ve Sosial Hemrelik" derneyinin nezdinde Hüseyin Cavidin adını taşıyan okul fealiyyet gösterir. İstanbulda Nilüfər Parkında Hüseyn Cavidin büstü koyulmuş, her yıl Cavidin doğum ve anım günleri Türkiyede kayd ediliyor, pyesleri teatrolarda gösteriliyor, eserleri Türkiye Türkcesinde basılmış türk okuyucularına takdim edilmişdir (3, 489).

Stalin devrinin repressiyasına maruz kalmış Hüseyin Cavidin doğumunun 100 yılında naaşinin Sibiryadan nakl edilerek doğma yurdu Nahçıvanda defn edilmesi, mezarı üzerinde möhteşem türbe ucaldıması, anıt heykelinin kurulması, ev muzesinin yaradılması türk dünyasının dahi şahsiyyeti, büyük siyasi hadim Haydar Aliyevin misilsiz hizmetleri ile oluşmuş ve bütün bunlar gelecek nesillere de bir örnek olmuştur.

***Prof. Dr. RUFAT LATİF OĞLU HUSEYNZADE***
***Azerbaycan Devlet Pedaqoji Universitesi***



# Çanaqqala şahidi Qarabağımın talismanıdır!



*Eluca Atalı*

Bu kurşun bəlkə də üç yüz min türk şəhidinin hansısa birinin vücudunu dəlib keçib.

Bəlkə də hədəfə dəyməyib, içində daşıdığı mahiyyəti doğrultmayıb, amma torpağın köksünü dəlib, 100 il orda mürgüləyərək gizlənib. 99 il torpağı durmadan döyəcləyən yağmur 100-cü il onu gün işığına çıxarıb.

Bəlkə də nə türk, nə ingilis, nə fransız, nə də anzak sümüyünü dəlib keçməyib, tüfəng lüləsindən çıxıb havada uçuşaraq yerə qonub…

Türk Dünyasının kutsal məkanı Çanaqqalada 2015-ci ilin nisan ayında düzənlənmiş "Çanaqqala-100" kitab fuarındakı imza günümdə oldum, fürsətdən bəhrələnib şəhidliyi 90 kilometrlik bütün cəbhə boyu qarış-qarış gəzdim. Yaşlı bir qadının suvenir satdığı masanın qarşısında durub, onun 3-5 lirəyə dəyərləndirdiyi hədiyyələri cibimdəki son lirələrin imkan verdiyi qədər xərcləyib aldım. Nədən belə etdiyimi sorsanız, o zaman cavabım bu olacaq: İsveçin "Aftonbladet" qəzetində oxumuşdum ki, Məkkə şəhərindəki qızıl dükanlarının sahibləri son zaman qızıl alverinin aşağı düşdüyündən şikayət edirlər. Səbəbinisə son dövrlər Həccə gələnlərin sayının yarım milyona qədər aşağı enməsilə göstərirlər. Ərəb kutsal diyarında altun satıb turistlərdən qazanc götürdüyü halda, türkün tək torpaq konusu yox, ləyaqət konusu olduğu bu kutsal diyarı Çanaqqalada teyzə əkmək parasını quruşquruş qazanır.

– Bu da sənə hədiyyəm!

Masa altından balaca bir mis parçasını mənə uzadanda çaşdım.

– Bu nədir? -Sorduğumda.

– Çanaqqala zəfərinin şahidi!

– Cavabını aldım.

– Bəs, nədən mənə verirsiniz?

Sualım yersiz deyildi, çünki, o, məni beş nəfərin içindən seçmişdi. Çanaqqala Millət Vəkili, bir əkmək fabrikinin rəhbəri, Çanakkale 100. Yıl Kırkyama Anı 670 metrə qədər uzunluğunda yorganı 16 ölkənin qadını ilə birgə hazırlamış rəssam Sərpil Şahin və bir dərnək rəhbərinin yer aldığı bu dəstədə nədən zəfər şahidini vermək üçün məni seçsin ki?

– Sən yazarsan, zəfərdən yaz, qızım! Qoy, torunlarımız görsün ki, bu torpaq bədava alınmadı, qanla suvarıldı… Dədələrimiz şəhid oldu, babalarımız öksüz böyüdü. Çanaqqaladan Osmanlı diyarı Bursaya, ordan da İzmirə konfranslara gedərkən zəfər şahidi mənə yol yoldaşı oldu. Bursadan İzmirə getdiyimdə artıq yorğunluğum qalmamışdı, onu əl çantamdan çıxarıb ovcumda o yan-bu yana çevirərək, özümü tək hiss etmədim. Şekspirin qəhrəmanı Hamletin naməlum kəllə sümüyü ilə olan məşhur monoloqunu xatırladan bir söhbəti zəfər şahidi ilə etməyə başladım. 1914-1918-ci illər Birinci Dünya savaşı tarixini beynimdəki arxivdən vərəqləyib indiyə qədər səhv öyrədilmiş hər nə varsa, hamısını biryolluq atmağa qərar verirəm. 70 il Sovet dönəmində Azərbaycan türkünə Rusiyanın birinci dünya savaşındakı Anadolu cəbhəsindən torpaq və qənimət əldə etmədən çıxarkən bütün silah və sursatlarını Andronikə verib Naxçıvana yola salmalarını, onun da Naxçıvan daxil olmaqla, bütün Azərbaycan üzrə soyqırım törətdiyini bizə tam başqa yöndən, Andronikin Azərbaycanı türk işğalından qorumağa çalışdığı kimi sırımışdılar. Bu vasitə ilə də "biz türk deyilik" nidasını beynimizə həkk etdirmişdilər, indi də acı meyvəsini yediyimiz ziyanlı təbliğatın nəticəsidir.

Paslı güllənin içində gəzdirdiyi sirrini oxumaqdan ötrü onu o üzünə, bu üzünə çevirməkdə davam edirəm, avtobusdakı sərnişinlərə məhəl qoymadan. Bu an qulağıma səs dəyir, başımı qaldırıram, xidmətçi çay istəyib-istəmədiyimi sorur, gözlərini əlimdən çəkməyərək. Zəfər şahidini ovcumda gizlədib, ona yox deyirəm. Zənn edirəm ki, xidmətçi çay *pulu əvəzinə məndən gülləni istəyə bilər*, çünki cibimdə param qalmamış… (Unutmuşam ki, çay bədavadır!)

Ulu öndərimiz Atatürkün qəsbkar əsgərlərin analarına ünvanladığı mütərəqqi nitqi və bir anzak anasının ona cavabını da bu yerdə xatırlamaya bilmirəm: "Bu memleketin topraklarında kanlarını döken kahramanlar! Burada, dost bir vatanın toprağındasınız. Huzur ve sükun içinde uyuyunuz. Sizler, Mehmetçiklerle yan-yana, koyun-koyunasınız. Uzak diyarlardan evlatlarını harbe gönderen anneler! Gözyaşlarınızı durdurun. Evlatlarınız bizim bağrımızdadır. Huzur içindedirler ve rahat uyuyacaklardır. Onlar bu topraklarda canlarını verdikten sonra, artık bizim evlatlarımız olmuşlardır".

İzmirdən İstanbula uçduğum zaman gömrükdə yol çantalarımın bilgisayar vasitəsi ilə dönə-dönə yoxlanılıb, açılmasını rica edəndə:

- Nədən? – sorduğumda, cavan gömrük xidmətçisi:
- Siz silah daşıyırsınız!" – dedi.
- Ola bilməz!" – dedim, lakin, o:
- Belə görünür!" – deyib, çantamı açmaqda israr etdi.

Zəfər şahidini əlinə alıb havaya qaldırdı. Burdan sorğu-sual başlandı: Bu nədir? Səndə hardandır? və s. bu kimi suallar üstümə yağdı və baş gömrük xidmətçisinə qədər əlindəki xüsusi aparatla bilgi verib çağırdı. Gerçəkdən olayı dramatikləşdirmirəm, onlar artıq yeddi nəfərə çatdılar, lakin mən tək, çünki zəfər çahidi də onlar tərəfə keçirilmişdi.

– Apara bilməzsən! – Qərarını eşitmək, sizcə, çox asanmıdır?

Əbədi məmləkətin, böyük elm xadimi, türkoloq, şair, tərcüməçi, dövlət adamı, cismi vətən torpağına qovuşub, ruhu min illərin daşıyıcısı olan, Türk Dünyasının fəxri, Qarapapaq türklərindən olan Valeh Hacıları yad edirik. Onun haqq dünyasına qovuşduğu zamandan bir xeyli vaxt ayırsa da bizləri, adını dillərdə, kitablarını təkrar-təkrar nəşrlərdə, əsərlərini böyük-böyük məcmuələrdə, tələbələrini onun açdığı cığırlarla yürüməkdə, el-obasını arzuladığı kimi öz yurdunda, torpağında qurub-yaratmaqda, əkin-biçində, toyda-nişanda gördük. Və bu gün dünyanın o qat-qarışıq zamanlarında qonşu, gürcülərlə azərbaycanlıların arasına girib nifaq törətmək istəyənlərin arzusu məhz Valeh Hacılar kimi ziyalılarımızın sayəsində baş tutmadı.

**Yenə Darvaz yada düşdü,**
**Nə susmusan, din, ay könül.**
**Xəyalları gerçək elə,**
**Köhlənini min, ay könül.**

**Yollarıma yar olginən,**
**Əhdə düz ilqar olginən,**
**Sellərdən axar olginən,**
**Yellərdən yeyin, ay könül.**

**Əllini haqladı yaşın,**
**Şəhərlərdə nədir işin?**
**Darvaz ilə hər görüşün**
**Olar toy-düyün, ay könül.**

**İllər ötür zaman keçir,**
**Günlər ötür, ğüman çəkir,**
**Bu kənd məni yaman çəkir,**
**Çəkir günbəgün, ay könül.**

**Valeh dözməz fərağına,**
**Dönər yanan çırağına,**
**O halalca torpağına**
**Qovuşsan, sevin, ay könül.**

Qıpçaqlarla oğuzların qaynayıb qarışdığı, ürəkləri qədər biləkləri də güclü olanların doğulub böyüdüyü Qarapapaqların Yurd yerlərindən, qədim qayım Borçalının

Darvaz elində dünyaya göz açmışdı. Orta təhsilini Darvazda başa vurandan sonra əla qiymətlərlə Azərbaycan Dövlət Dillər İnstitutuna qəbul olunur, oranı da yüksək göstəricilərlə bitirdikdən sonra Azərbaycan və Gürcüstan Yazıçılar Birliklərinin zəmanətləri ilə Tiflisdə Dövlət Pedaqoji İnstitutuna işə qəbul olunan Valeh Hacılar, Azərbaycan dili və ədəbiyyatı kafedrasında işə başlayır. Həmin institutda Azərbaycan və erməni şöbələri yaranandan hər iki bölümün birləşmiş kafedrasına nə məsələ idisə uzun illər ermənilər rəhbərlik edirdilər. Hətta, sonralar kafedra bölünsə də "Azərbaycan dili və ədəbiyyatı bölümünə" milliyətcə azərbaycanlı olmayanlar rəhbərlik edirdi. Valeh Hacılar həmin institutda Azərbaycan şöbəsinin çoxillik tarixində ilk azərbaycanlı idi ki, kafedraya rəhbərlik etməyə başlayır. Özü də neçə, dilimizi, ədəbiyyatımızı, xalqımızı ləyaqətlə, qürurla təmsil edə-edə... folklor ekspedisiyaları ilə Borçalının kəndlərindən, ağsaqqal və ağbirçəklərdən folklor nümunələri toplanır, ustad Borçalı aşıqları, saz-söz adamları ilə görüşlərdən elimizin-dilimizin yaddaş kitabları yığılırdı. V. Hacılar 1993-cü ildə Gürcüstandakı türkdilli folklor örnəkləri əsasında "Azərbaycan folklorunun səciyyəvi xüsusiyyətləri" mövzusunda doktorluq dissertasiyasına müdafiə edərək, müdiri olduğu kafedranın professoru seçilir. O, 2000-ci ildə Gürcüstan Elmlər Akademiyasının gizli səsvermə yolu ilə seçimlərində Akademiyanın şərqşünaslıq üzrə həqiqi üzvü, akademik seçilir.

V. Hacılar Borçalı-Qarayazı və Axısqa-Cavaxetin türkdilli folklor örnəklərinin toplanması, nəşri, istərsə də Gürcüstan arxivlərindən milli folklor nümunələrimizin aşkarlanması, Gürcü dilinə tərcüməsi, tədqiqi sahəsində olduqca geniş və məhsuldar işlər görmüş, folklorşünaslığımıza əvəzolunmaz töhfələr bəxş etmişdir. Dəfələrlə xarici ölkələrdə keçirilən mötəbər elmi konfranslar, simpoziumlarda Gürcüstan azərbaycanlılarını ləyaqətlə təmsil etmişdi.

Valeh müəllim "Azərbaycanca-Gürcücə ikidilli lüğət"-lərin və danışıq kitabçalarının ilk müəllifi idi. Gürcü, rus, ukrayna, abxaz poeziyasından dilimizə çoxsaylı tərcümələr etmiş, Gürcüstan arxivlərində xalqımızın tarixi ilə bağlı bir çox mühüm sənədlərin, yazışmaların aşkar olunub üzə çıxarılmasında müstəsna xidmətlər göstərmişdir.

V.Hacılar həmyerlisi əfsanəvi sərkərdə Darvazlı Mehralı bəy və Borçalıda qaçaq hərəkatı ilə bağlı araşdırmalar aparmış və bu mövzuda "Borçalı Mehralı bəy tarixi həqiqətlərdə adlı" mükəmməl monoqrafiyalarını araya-ərsəyə gətirməklə Osmanlı arxivlərinə də baş vurmuş və bir çox qatı açılmamış tarixi materialların üzə çıxarmışdır. O cümlədən "folklorumuzun üfüqləri" "Azərbaycan folkloru" antologiyası, "Hərşənin ocağı", "Azərbaycan-ğürcü folklor əlaqələri", "Azərbaycan" dilində şeir qoşan gürcü aşıqları, "Xəstə Hasan" və beləcə xalq ədəbiyyatına, ədəbi əlaqələrə dair əsərləri ilə yanaşı tarixi-filoloji, leksikoqrafik, bədii səpgidə yazılmış 24 kitabın və 4 elmi monoqrafiyanın müəllifi olmuşdur. Ədəbi-mədəni əlaqələrinin inkişafındakı şəxsi xidmətlərinə və səmərəli elmi fəaliyyətinə görə V.Hacılar Gürcüstan prezidenti tərəfindən ölkənin ən yüksək mükafatı "Şərəf Ordeni" ilə təltif edilmişdir.

1994-cü ilin oktyabrında Türkiyənin Atatürk Universitetində Beynəlxalq elmi simpoziumda türkiyəli həmkarlarının böyük marağına səbəb olan "Gürcüstanda Yunis İmrə gələnəyi" mövzusunda məruzəsi ilə Valeh Hacılar qardaş ölkənin alimləri ilə əməkdaşlığın əsasını qoymuş, bundan sonra dəfələrlə Azərbaycanda və Türkiyədə keçirilən mötəbər konfrans və simpoziumlarda iştirak edib, Borçalı-Qarapapaq türklərini təmsil etmişdir. Araşdırmaları, kitabları qardaş ölkənin ali məktəblərində dərsliklər şəklində tədris olunmaqla yaradıcılığından elmi məqalələr, dissertasiyalar yazılmışdır.

Gürcüstanda, Azərbaycanda və Türkiyədə fəal ictimai xadim kimi tanınan V. Hacılar Azərbaycan Yazıçılar Birliyinin, Gürcüstan prezidenti yanında təhsil şurasının, elmi adlar verən professorlar şurasının üzvü, Gürcüstan-azərbaycanlı ziyalılar birliyinin sədri. Tbilisidə Yunesko xətti ilə nəşr olunan "Prometey" və "Qarapapaqlar", Bakıda çap olunan "Dədə Qorqud", Türkiyyədə nəşr olunan "Milli folklor", araşdırmaları elmi jurnallarının redaksiya heyyətinin üzvü və Gürcüstan təmsilçisi olmuşdur. Dünya Azərbaycanlılarının 1 və 2-ci qurultaylarında Gürcüstan nümayəndə heyyətinin rəhbəri kimi H.Əliyev adına Respublika sarayında çıxış etmiş "Dünya Azərbaycanlılarının Əlaqələndirmə Şuras"ının və idarə heyyətinin üzvü seçilmişdir.

**İllər ötdü, qərinələr ötüşdü,**
**Yüzilliklər, minilliklər görüşdü,**
**Ay Hacılar vədə gəldi yetişdi,**
**Öz adını könüllərə yaz indi.**

O adını, millətinə, xalqına, Vətəninə, insanlığa xidmətlə könüllərə həkk etdi. Türkün ən böyük vətəni dilidir həqiqətiylə Hacı Bektaş Vəlinin bir olaq, iri olaq, diri olaq, İ.Qaspralının dildə, fikirdə, işdə Birlik nidasıyla yola çıxmışdı... Ona verilən möhlətin çox qısa olacağından xəbərdar təki yorulmadan çalışdı, bir ömrü bir böyük sevdaya qurban demişdi sanki. Ana dilinin müqəddəsliyini, ata yurdunun toxunulmazlığını, ulusunun hansı kökdən rişələndiyini, Böyük kimliyini bu sevgili dillə, nöqtəsinə, vergülünə toxunmadan yazıya, sözə gətirdi, kitablara, dərsliklərə, yaddaşlara həkk etdi. Övladlarını da, Fəxrisini, Namikini də vətənə xidmət etmək ruhunda böyütdü, ömür gün yoldaşı, uzun illərin müəllimi Rüxsarə xanımla birlikdə. Bu gün onlar da Vətən görəvində...

Çoxlarına örnək olası bir ömür yaşadı... Turan sevdalısı Valeh Hacılar. Ruhu şad olsun.

Türkiyənin Bursa şəhərində Valeh Hacılar adına VAKF (Valeh Hacılar adına Fond ) fəaliyyət göstərməkdədir

***Fuad Azayev***

Jurnalımızda yeni rubrika:

# İSTEDADLI GƏNCLƏRİMİZLƏ TANIŞ OLAQ



**Nüvə proqramçısı, "1G" Şirkətinin yaradıcısı və direktoru, "Google" şirkəti ilə əməkdaşlıq edən yeganə azərbaycanlı 22 yaşlı Fərid Ələkbərov.**

Я разработчик-ядерщик с большим количеством дополнительных увлечений. Одно из них-музыка и самое главное. Я работаю с ранних лет, а именно с девяти. Больший упор делаю на веб-приложения. За этим будущее. Лёгкие и в то же время максимально функциональ-ные приложения, которые могут быть многократно сжаты. Пишу музыку в многих жанрах: рок, хип-хоп, абстрактный хип-хоп, драм, и многие другие. Обложки для своего творчества рисую сам, клипы собираю сам. Каждый инструмент сыгран лично мною. Моя цель - попасть в мировую историю.

В детстве я любил играть стратегии, но в них не было онлайн режимов. Моё желание социализировать данные шедевры, вынудило полезть в файлы игры и попытаться сделать из локального режима, полноценный онлайн. Ушло не мало времени, но я добился необходимого и мой первый проект набрал 20 000 пользователей. Это прекрасный результат, которым я остаюсь гордиться по сей день.

У меня нет кумиров, разве что я знаю прекрасный пример в виде Павла Дурова, собравшего концептуальный форум для учебного заведения, далее преобразовав его в клон Facebook и далее многократно улучшив. Второй персонов вдохновляющей меня, является прекрасный персонаж Mr.Freeman.

Мой основной проект, это 1G.ms и самый главный. 1G - Cloud Gaming проект переросший в действительно глобальное деяние. Далее же идёт проект Gr2c3 OS, доступный на моем личном сайте greeceee.site . На данный момент, лишь прототип будущей операционной системы с рабочим названием. Даёт возможность полноценно работать в браузере, создавая медиа-проекты, редактируя эту OS и оптимизируя свои рабочие процессы, так как мощности данного режима, зависят от наших серверов, а не от характеристик устройства пользователя

Очень хочется развиваться в трёх главных направлениях для меня, после реализации текущих задач. В первую очередь медицина стоит, таки можно минимизировать затраты на производство и техническое обслуживание медицинского оборудования. Связав с нашей технологией рентген-аппараты, можно добиться уменьшения количества поломок в год до 92.8%. Далее интересно попробовать себя в космической отрасли, давая возможность не погружать уйму техники на борт корабля, а лишь поместить экраны и средства передачи информации. Обработкой же заниматься на земле и транслировать результаты. Последним делом обращусь к доработке прототипа моего ИИ (Искусственного интеллекта). Ныне ИИ - лишь достаточно сильно продвинутые нейросети, но можно довести это до предела. Дать вам возможность переложить сложные задачи на робота или же завести себе постоянного и верного друга.

# “““Turan” Türk Xalqlarının Mədəniyyətinin İnkişafına Dəstək” ictimai birliyinin Ukrayna təmsilçisi, “Azərbaycan-Türkiyə” jurnalının Xarkov üzrə müxbiri Ağasadıq Qasımov xəbər verir.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyi qardaş Ukrayna xalqı tərəfindən böyük təntənələrlə qeyd olunmaqdadır. Paytaxt Kiyevdən sonra estafeti ölkənin ikinci şəhəri Xarkov qəbul etdi. Məşhur Dəmiryol Akademiyasının qarşısı, Feyerbax meydanında bu günlərdə müəllifi Azərbaycan əsilli Ukrayna vətəndaşı olan, xalq heykəltaraşı Katib Məmmədovun müəllifi olduğu dahi Nizami Gəncəvinin heykəlinin açılışı oldu. Xarkov şəhərinin ictimaiyyəti, çoxsaylı qonaqları, eləcə də Azərbaycandan tədbirə dəvət olunan musiqi heyətinin konsert proqramı ilə, ölkəmizin Ukraynadakı Fövqəladə və Səlahiyyətli səfiri xanım Elmira Axundova, şəhərin meri İqor Aleksandroviç Terexov, fəxri konsulumuz Əfqan Salmanovun iştirakı ilə lentkəsmə mərasimi baş tutdu. Tədbirdə Ukraynada çalışan iş adamları Alı Alıyev, Zaur Əsgərov eləcə də digər ictimaiyyətçi həmyerlilərimiz fəal iştirak etdilər.









# Onlar döyüşə təmənna ilə getməmişdilər, biz də qazilərimizi təmənnasız müalicə etməliyik.

*Xuraman Muradova*

...Müasir ədəbiyyatımızın klassiki, xalqımızın böyük ziyalısı, dramaturq, professor, Milli Aviasiya Akademiyasının kafedra müdiri, Azərbaycanın Xalq şairi Nəriman Həsənzadəyə zəng vurub onun səhhəti ilə maraqlandım. Dedi ki, "Milan Hospital"da müalicə alır... "İnanın, məni o qədər yüksək səviyyədə müalicə edirlər ki, artıq bir həftədə demək olar bütün ağrılarım keçib gedib. Burada həm həkimlər öz işinin yüksək peşəkarıdır, həm də xəstələrə qarşı əllərindən gələni edirlər ki, tez sağalsınlar".

Hospital müasir, yüksək səviyyəli tibbi avadanlıqlarla təchiz olunub. 44 günlük Vətən müharibəsi dövründə bu tibb ocağı düşmənlə öz sahəsində döyüşüb. Burada işləyən həkimlər qazilərimizin tez sağalmasında əllərindən gələni ediblər. Bu gün də orada xeyli qazi müalicə alır. Mən çox istərdim ki, sən həmin Hospitala gəlib, onların gördüyü böyük işlər haqqında yazasan".

...1980-ci ildən Nəriman Həsənzadəni tanıdığıma görə bilirdim ki, o, hər işi belə tərifləmir. Çünki biz həmin vaxtı onun "Bütün Şərq bilsin" tamaşasına Sumqayıt Dövlər Dram Teatrında quruluş verən vaxtı da onun obyektiv fikirlərini görmüşdüm. Nəriman müəllim xalqa yüksək səviyyədə xidmət eləyən insanlar haqqında həmişə xoş sözlər deyir.

Beləcə, Nəriman müəllimlə vədələşib, iki gün sonra həmin hospitala getdik. Hospitalın giriş qapısından insanların necə böyük hörmətlə, ən əziz doğmaları kimi qarşılanmasının və ilk girişdən səliqə-sahmanın yüksək olduğunu gördüm. Bunlar mənim diqqətimdən yayınmadı. Yadıma dahilərin dediyi bu kəlam düşdü: "İnsanlara diqqət sağlamlığın, hörmətin ilk açarıdır".

Sonra biz Nəriman müəllimlə ikinci mərtəbəyə, Xuraman xanımın iş otağına qalxdıq. Kabineti çox yüksək zövqlə, rəssam təxəyyülü ilə bəzədilmişdi. Bir



növ muzeyi xatırladır. Söhbət əsnasında öyrəndim ki, Xuraman xanım İsmayıl qızı Goranboyda anadan olub. Əslən Laçın rayonundandır.

2009-cu ildə "Laçın" Klinikasını yaradıb. Orada təsisçi və direktor olub. Qızı Laçın Aslanova həkimdir. Laçın xanım klinika yaranan vaxtdan baş həkim kimi burada işləri yüksək səviyyədə qurub. Bu gün də o, endekrinologiya sahəsində böyük uğurlar əldə edir.

"Laçın" Klinikası az bir vaxtda məşhur olsa da böyük arzularının həyata keçməsi üçün kiçik idi bir qədər.

Beləliklə, Xuraman Muradova 2014-cü ildə öz layihəsi ilə yeddi mərtəbəli "Milan" Hospitalın Avropa standartlarına uyğun binasını tikdirib və orada işə başlanılıb. Hospitala yüksək peşəkar həkimləri işə götürüb. Çünki Xuraman xanım bilir ki, səhiyyədə uğurlu işlər yalnız yüksək peşəkar, müasir səhiyyəni mükəmməl bilən həkimlərin sayəsində qurulur. Əgər Hospitalda yaxşı həkimlər işləyirsə, müasir tibbi avadanlıqlar varsa, peşəkar həkimlər həmin avadanlıqlardan düzgün istifadə edə bilirsə, xəstələr bura daha çox gələcək. Məhz buna görə də Xuraman xanım bu yeddi ildə həkimlərin daha da təkmilləşməsi, təhsillərini kamilləşdirməsi üçün onları qabaqcıl xarici ölkələrə göndərir, ya da həmin ölkələrdən öz maliyyəsi hesabına həkimlər dəvət edir ki, gəlib Hospitalda seminarlar, təlimlər keçsinlər. Eləcə də tibb sahəsinin son nailiyyətləri olan tibbi avadanlıqları "Milan" Hospitala gətirir ki, xəstələr düzgün müayinə olunsunlar.

Budur. Biz Xuraman xanımla üz-üzə oturub, söhbət edirik:

- Mənimçün çox böyük tarixi hadisədir ki, xalqımızın dəyərli şairi Nəriman müəllimlə yaxından tanış olmuşam, - deyə Xuraman xanım sözə başladı.

Nəriman Həsənzadəni belə üzbəüz görəndən sonra mən özümün gənclik illərimə qayıtmışam. Gənclik illərimdə şeirlər yazırdım. Təxminən otuz-otuz üç il öncə. Sahibkarlıqla məşğul olandan sonra daha vaxtım olmadı. Başım ailə qayğılarına, işə, "Laçın" və sonra da "Milan" Hospitalın çox cavabdehli işlərinə qarışdı. Ədəbiyyatla məşğul olmaq, şeir yazmaq Allahla birbaşa bağlılıqdır. Gərək bu müqəddəs işə bütövlükdə ömrünü sərf eləyəsən. Mənim isə sahibkarlıqla və səhiyyə sahəsində çalışdığım üçün boş vaxtım çox az olur. Amma min şükür Böyük Tanrıya ki, bütün bu illərdə mənə işıqlı yol açıb və mən də həmin işığın səmtinə doğru getməklə arzularımı reallaşdırıram. Nəriman müəllimlə

görüşəndən sonra isə bir daha şeirlər yazmağa başladım. Böyük Tanrı ilə şeir dilində danışıram. Amma mən bu vaxta qədər yazdığım şeirləri heç yerdə çap etdirməmişəm.

- Xuraman xanım, öyrənmişəm ki, 44 günlük Vətən müharibəsi dövründə, "Milan" Hospital da yaxşı mənada döyüşüb. Yəni, sizin tibb işçiləriniz həm müharibə bölgəsində olub, yaralılara əlindən gələn tibbi yardımlar ediblər, həm də siz müharibədə yaralanan qazilərimizi burada yüksək səviyyədə pulsuz müalicə edibsiniz.

- Mənim nənəm Laçından olduğuna görə və atam İsmayıl da ora tez-tez gedib-gəldiyindən mənə Laçınla bağlı çox maraqlı xatirələr danışıblar, Laçın, Qarabağ həmişə ürəyimin bir parçası olub. Qarabağla bağlı məhrumiyyətlər, qaçqınlıq, köçkünlük dövründə, ibadətlə məşğul olduğum zaman Tanrıdan bir arzum olub: "Ey Böyük Yaradan, bizə güc, qüvvət, milli birlik ver ki, torpaqlarımızı geri qaytara bilək. Bu xoş günləri mən də sağlığımda görüm". Ulu Tanrı milyonlarla azərbaycanlı kimi mənim də bu müqəddəs arzumu eşitdi və reallaşdırdı.

2020-ci ilin sentyabr ayının 27-də Vətən müharibəsi başlayanda və Ali Baş Komandanımız, cənab İlham Əliyevin bu sükanın arxasında böyük qətiyyətlə dayanması və hər bir çıxışında da xalqı inandırması ki, "Qələbə bizim olacaq. Biz Qarabağı yağı düşmənlərdən azad edəcəyik" fikirləri xalqımızı bütövlükdə ruhlandırdı. Əqidəsindən, mövqeyindən, dünyaya baxışından, düşüncəsindən asılı omayaraq, xalq bir nəfər kimi Ali Baş Komandamızın ətrafında sıx birləşdi.

Evim dənizin üst tərəfindədir. Mən hər gün səhərə qədər bütün analar kimi o qədər dualar edirdim ki, Ulu tanrı bizim əsgərlərimizi qorusun.

Həmin vaxtı bizim cərrahlarımız, anestezioloq həkimimizə kimi hamısı ön cəbhədə idi. Onlar yaralı əsgərlərimizə əllərindən gələn bütün xidmətləri edirdilər. Çoxlu əsgərimizi ölümün pəncəsindən alıblar.

Müharibənin ilk günündən hospitalımız səfərbər oldu. Bir qrup həkimimiz müharibəyə getdi və çox ağır yaralı əsgərlərimizi müalicə etməyə başladı. Baxmayaraq ki, ilkin günlərdə yaralı əsgərləri özəl xəstəxanalara vermirdilər və onlar dövlət xəstəxanalarında müalicə olunurdular. Biz də sakit durmurduq. Həmin xəstəxanalara dərmanlarla, arabalarla, çəliklərlə köməklik edirdik. Maddi baxımdan da əlimizdən gələni edirdik. Sonra bizə də icazə verildi ki, həmin əsgərləri müalicə edək. Biz bu işə çox böyük həvəslə, istəklə yanaşdıq. Böyük Tanrıya şükürlər olsun ki, "Milan" Hospitalda da çoxlu əsgəri ölümün pəncəsindən aldıq. Bütün xəstə qazilərimiz tam sağaldı.

- Eşitmişik ki, indi də siz bütün qazilərimizi, şəhidlərin övladlarını, həyat yoldaşlarını, valideynlərini burada pulsuz müalicə edirsiniz.

- Bəli. Elədir. Kim bura üz tutursa, biz onları pulsuz müalicə edirik. Çünki bu, bizim vəzifə və vətəndaş borcumuzdur. Axı onlar bizim 30 il həsrətində olduğumuz torpaqlarımızı geri qaytarıblar. Bizim də borcumuz onlara təmənnasız xidmət etməkdir. Qazilərimiz və şəhidlərimiz döyüşə təmənna ilə getməmişdilər. Bizim namusumuzu təmənna ilə geri qaytarmayıblar. Yaralı ürəyimizi təmənna ilə sağaltmayıblar. Biz igid oğullarımızı şəhid verdik. Çoxlu sayda anamız oğulsuz, gəlinlərimiz ərsiz, uşaqlarımız atasız qaldı, nişanlı qızlarımız göz yaşlı tökdü. Bizim nə həddimiz var ki, bu xoş günləri, həmin müqəddəs torpaqları bizə qaytaran igid oğullarımıza



lazım olan bütün yardımları etməyək? Açığı deyim ki, biz onlara nə qədər xidmət etsək də, onların qulluğunda dursaq da, şəhidlərimizin, yaralı əsgərlərimizin tökülən bir damla qanına dəyməz bizim bu xidmətlərimiz. Mən Vətənimi öz canımdan artıq sevirəm. Ulu Öndər dediyi kimi: "Mən fəxr edirəm ki, azərbaycanlıyam". Çox sevinirəm ki, xeyli hərbi hissədən və rayonlardan bizə təşəkkür məktubları gəlir. Xüsusi təyinatlı əsgərlərimizin komandanı, Şuşanın fatehi, general Hikmət Mirzəyevdən gələn təşəkkür məktubundan isə çox məmnun oldum. Biz onunla görüşdük. O, bu görüşümüzdə yenə də xüsusi təşəkkürünü bildirdi. Damarında azərbaycanlı qanı axan hər bir iş adamının mənəvi, vicdani borcudur ki, əsgərlərimizə, yaralılarımıza əlindən gələn bütün köməklikləri eləsin.

44 günlük müharibədən dərhal sonra Ali Baş Komandanımızın sərəncamı ilə Qarabağda quruculuq işlərinə başlanılıb. Yollar, işıq xətləri çəkilir. Körpülər, su elektrik stansiyaları tikilir. Yeni salınacaq kəndlərin, qəsəblərin, şəhərlərin layihələri hazırlanır. Artıq bəzi rayonlarda kəndlərin bərpasına başlanılıb. Füzulidə Aeroportun tikintiçi başa çatıb və ora ilk reys olub. Kəlbəcərdə, Laçında Qarabağın gözü olan qəhrəman Şuşada böyük quruculuq işləri görülür. Orada "Xarı bülbül" beynəlxalq festivalının keçirilməsi ermənilərin ürəyini yandırdı desəm, daha düzgün olar. Bu yaxınlarda Şuşada Molla Pənah Vaqifin möhtəşəm məbqərəsinin açılması, orada cənab Prezidentimizin və tanınmış sənətkarlarımızın, ədəbiyyat-incəsənət xadimlərimizin çıxışları ürəyimizdən oldu.

İndi mənim ən böyük arzum ilk öncə Şuşanı, sonra ata yurdum Laçını və bütün Qarabağı ziyarət etməkdir. Bizim "Milan" Hospitalın bütün işçiləri bu arzu ilə yaşayır ki, Qarabağa gedib, orada "Milan" Hospitalın filialını yaradaq və Qarabağ camaatına yüksək peşəkarlıqla tibbi xidmət göstərək.

-Hospitalı da mən öz layihəmlə tikdirmək niyyətindəyəm... Sonda fikrimi bu kəlamla tamamlamaq istəyirəm: " Dörd xasiyyət insan üçün bədbəxtlikdir- kin, qəzəb, rəhimsizlik, ehtiras". Uca Tanrı bizi bu naqisliklərdən qorusun. Qoy xalqımız bundan sonra da yumruq kimi bir olsun. Cənab prezidentimiz İlham Əliyevin ətrafında bir daha sıx birləşək ki, tezliklə Qarabağ cənnətməkan bir diyara çevrilsin və bizim Məkkəmiz, Mədinəmiz, böyük ziyarətgahımız, müqəddəs ocağımız olsun!

***Ağalar İDRİSOĞLU,***
***əməkdar incəsənət xadimi***

# Zəfər yolunun cəngavərləri





O kəşfiyyatçı olub...
Şəhər həyatına məxsus olmayan tərzim, məni tanıyanlara yaxşı bəllidir. Qapım həmişə açıq olur. Hətta, qışın oğlan çağında pəncərəm açıq olmasa, gözlərimə yuxu getməz...

Səhər saat 11:30 radələri, örtülü qapı açıldı və qardaşım oğlu ilə bir yaraşıqlı gənc içəri daxil oldu...

- Mən gəlmisəm ki., MƏRD, CƏSUR ARTILLERİYA KOMANDİRİ, MAYOR VÜSAL HACIYEVİN ANASINI GÖRƏM...

Koronavirus xofundan hürküb, gələn qonaqlara isti su və sabunla yuyunmaqlarını rica etdim. Stolun üstü kitabla dolu olduğundan, hissə-hissə götürüb yerə, xalçanın üstünə düzdüm.

- Ana, mən könüllü cəbhəyə gedənlərdənəm... Əldə silah cəbhədən-cəbhəyə keçmişəm. (Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa uğrunda döyüşmüşəm). Vətəni müdafiə edən ən layiqli, ən cəsur, ən mərd komandirlərlə birgə döyüşlərdə Vətəni müdafiə etmişəm. Həmişə Ordumuzun hərbi şöhrətinin bərpa olacağının həsrətində olmuşam. Oğlunuz Vüsal Hacıyevlə birgə ən böyük hərbi əməliyyatlardan birini müvəffəqiyyətlə qurtarmağımız, məhz onun hərbçi bacarığına, məharətinə bağlıdır. Vüsal Hacıyev təmkinlidir. Ən ümdəsi, məğlubedilməzlik əhval-ruhiyyəsinə malik hərbçi kadr zabitidir. (V.Hacıyev Füzuli, Cəbrayıl, Xocavənd, Hadrut və Şuşa uğrunda döyüşüb)

Əsgər Fərid Həsənovun təqdimatında səslənən "Hərbçinin ləyaqəti də, nöqsanları da döyüş meydanlarında bilinir. Hörmət də, nüfuz da burda qazanılır. Mayor Vüsal Hacıyevin adı əbədi olaraq QƏHRƏMAN DÖYÜŞÇÜ kimi qəlbimdə həkk olunub. O, həyatını təhlükəyə ataraq, düşmənin artilleriya mövqelərini təyin eləmək üçün ən önə gəlmişdi. Yeganə əsgər mən idim. Hərbi hissə komandiri polkovnik Nizami Mövlanov, qərargah rəisi, polkovnik Fariz Məmmədov (familiyasını sonradan öyrəndiyimiz), komandir müavini Valeh artilleriya rəisi, mayor (hazırda polkovnik-leytenantdır) Vüsal Hacıyev və onun köməkçisi mayor Qiyas Bədəlov Daşaltı azad olunandan sonra daha da yuxarı qalxıb, səngər qazımışdıq. Oradan düşmənin strateji mövqeləri görünürdü. Biz də öz qüvvələrimizi strateji əhəmiyyət kəsb eləyən mövqelərə yerləşdirirdik.

Biz, MÜZƏFFƏR ALİ BAŞ KOMANDANIMIZ İLHAM ƏLİYEVİN ƏMRİNİN döyüş səngərində əxz olunmasını olduğu kimi verməliyik!

Fərid Həsənov:

- Erməni daşnaklarının işğal etdikləri torpaqlarımızdan, dəfələrlə bizim Ordumuzun nəzarətində olan postlara olan hücumları, atəşkəsin pozulması faktları yadınızdadır. Biz Ali Baş Komandanımızın "İRƏLİ! ATƏŞ!" əmrindən ilham alırdıq. Biz, cənab Ali Baş Komandanın müraciətindən ruhlanaraq döyüşə atılırdıq.

Düşmənin silah-sursat anbarını partladan artilleriya rəisinin mərdanəliyinə heyran olmuşduq.

...Döyüşlər zamanı əsgər-zabit bağlantısı o qədər sağlam, o qədər möhkəm tellərlə bir-birinə bağlı idi ki, yəni rəsmi əmrləri, tapşırıqları qardaşcasına, canla-başla, ürəklə yerinə yetirirdik. Ən zəif həlqədəki boşluqları aşkarlamağa və xüsusi məhəbbətlə doldurmağa çalışırdıq.

...Vüsal Hacıyev Şuşa istiqamətində, yuxarıda qazdığımız səngərdən yuxarı yamaca qalxanda atəş səsi gurladı. Dərhal polkovnik Nizami Mövlanov onunla "!" əlaqəyə çıxanda, Vüsalın xırıltılı səsi gəldi: "Komandir, vurulmuşam!!!" ...Bax, qəhrəmanlıq verilməsi komandirlərdən biri ODUR! Biri də kapitan Ülvi Hüseynovdur! Onlar mənim komandirlərim olmayıb, amma hamı onların başına AND içirdi. Yeri gəlmişkən deyim ki, baş leytenant kapitan Ülvi Hüseynov təxminən on gün əsgərləri ilə bərabər mühasirədə qalıb. Əsgərlərini xilas edib, lakin özü şəhid olub...

Sual: - Oğlumun qəhrəmanlıqlarının şahidi olmuş kəşfiyyatçı əsgər Fərid Həsənov kimdir?! Lütfən, özünüz haqqında yazılı məlumat verin! (Adını, soyadını və atasının adını vərəqə yazır)

Cavab: - Həsənov Fərid İlham oğlu. 11 yanvar 1991-ci ildə Ağstafa rayonunun Yenigün kəndində anadan olmuşam. Atam Həsənov İlham Məhəd oğlu (1964-cü il yanvarın 6-da dünyaya gəlib) və anam Həsənova Nəzakət Ağalar qızı (1969-cu il sentyabrın 26-da Naxçıvan MR-ın Babək rayonunda anadan olub) birmənalı müharibəyə getməyimə etiraz edirdilər. Çünki, ailənin yeganə oğul övladıyam.

Sual: - Dediniz ki, sentybrın 29-da müharibəyə yola düşdünüz. Ananızın ad gününü

(sentyabrın 26-da) təbrik edə bildinizmi? (rəngi dəyişir - N.A.)

Cavab: - Dostum, iş yoldaşım şəhid Allahverdi Novruzovun Səlyanda dəfninə gedirdim. Səlyan dairəsinə çathaçatda, Səfərbərlik və Hərbi Xidmətə Çağırış şöbəsindən zəng gəldi: "Hazır ol!" - əmri verildi və Bakıya qayıtmağımı tələb etdilər.

Anama zəng elədim ki, gedirəm. O, yeganə oğul övladını, yəni məni qucaqlayanda dedim: "Ana, unutma ki, iki bacım və bir



oğlum var. VƏTƏN DARDADIR! Mən getməliyəm və gedirəm!„ Anam qara saçlarıma sığal çəkib: “Yaxşı yol” dilədi. Arxamca su atdı  Bilal Qəmbərov, Əjdər, Əli, Anar, Xanlar... Əvvəl Beyləqandakı “N” saylı hərbi hissəyə, sonra isə döyüş bölgəsinə... Səbail rayon SHÇ şöbəsindən yüz nəfər idik. Onlara mən rəhbərlik edirdim. O vaxt düşmən Beyləqanı vururdu. Başımızın üstündən düşmənin pilotsuz aparatları görünürdü. O gecə biz kazarmadan çıxdıq. Mən bir gövdəli ağaca söykəndim. Bilal gəlib başını sol çiynimə qoydu. Anar isə sağ çiynimə söykəndi. Beləliklə əsgərlər bir-birinə dirsəklənib səhəri ağac altında keçirdik. Bizə silah-sursat payladılar. Hamımız bir nəfər kimi səfərbər olmuşduq. Yaralananda bir-birimizi xilas edirdik... Sonradan, təkcə mən kəşfiyyat bölüyünə düşdüm. Kəşfiyyat bölüyünün rəisi, polkovnik-leytenant Vüqar Yadigarov ehtiyatdan gəlmişdi. Xüsusilə təcrübəli, zirəng hərbçi idi.

Ermənilər əsasən snayperdən istifadə edirdilər. Onlar əsgəri deyil, zabitləri hədəf alırdılar. Bu baxımdan mayor Vüsal Hacıyevin sinəsini nişan alan düşmən snayperinin atdığı güllə düz Vüsalın ürəyinin başına dəymişdi. Güllə hücum jiletindən asdığı darağın üstündə sıralanan iki güllənin arasına girmişdi. (Sonra isə partlayıb aşağı ətrafına qəlpələr girmişdi.) Buna baxmayaraq koordinatları ölçə bilmişdi. Vüsal vurulandan sonra aşağı-yuxarı (ziqzaqla) fırlanaraq düşmən tərəfdən açılan atəşlərdən yayına bilmişdi. Həmin an biz düşündük ki, Vüsal şəhid olub... Səngərə düşəndə, mən Vüsala su içirdim, üzünə su çilədim. Paltarını qaldırıb sinəsinə baxdıq. Mərmi dəyən yer qıpqırmızı qızarmışdı. Özünü sındırmırdı. Allaha and olsun ki... Dözürdü.

Haşiyə: Fərid Həsənov əllərini birləşdirib deyir ki, bu ölçüdə Vüsalın ürəyinin səthi qan rəngində qızarmışdı...Hərbi hissə komandiri, polkovnik Nizami Mövlanov və digər rəislərin gözləri dolmuşdu... Onlar baş verən hadisədən şok olmuşdular. Bir də əlavə etdi ki, Şuşaya qalxanda heç kim “bronjilet” zirehli jiletdə olmayıb. “Bronjilet”lə hərəkət məhdudlaşır. (Bu barədə Sonra-N.A.)

Sual: - Fərid, sən 1991-ci il təvəllüdlüsən. Saçların nə vaxt ağarıb?!

Cavab: - 44 günlük müharibədə. O qədər stress keçirmişik ki... Qayıdanda atamla anam boynumu qucaqlayıb ağlayırdılar. (Gözləri dolur...)

Gələn kimi döyüş dostlarımın analarının ziyarətinə getdim. Şəhid Bilal Qəmbərovun anasının “Niyə Bilalsız gəlmisən?!” sualı məni hər an təqib edir... Bilalın ən böyük arzusu Şuşaya BAYRAQ sancmaq idi.

Cəsur kəşfiyyatçı əsgər, elə qüdrətlidir ki, elə güclüdür ki, söz deyəndə, şəhid döyüş dostlarının ruhlarına dualar edəndə - dəniz susur, tufan susur. Öz yerində sükut edən dəniz kimi susdum. Onun səcdəgahı, qibləgahı, müqəddəs and yeri ŞƏHİDLƏRİMİZİN MƏZARIDIR! Saçlarında 44 günlük VƏTƏN MÜHARİBƏSİ dağının təzə düşən qarı ƏRZİN YEDDİNCİ qatına ucalır. Yarı İnsan, yarı Tanrı zirvəsinə ucalanları xatırlayır! Öz simasında hər bir gəncdə, ailəsində yeganə oğlu olan analarda, atalarda fədakarlıq ruhu aşılayır.

Fərid Həsənovun nəzərində dostluq ümumi məqsədə yönələndə möhkəmlənir, mənalı və müqəddəs olur. Hər bir tapşırığı ciddi səylə ölçüb-biçən “görünməz cəbhə” döyüşçüsünün rast gələ biləcəyi bütün təhlükələri nəzərə alır(dı). Deyir ki, mayor Vüsal Hacıyev kimi zabitlə ünsiyyət MƏRDLİK MƏKTƏBİNƏ, MÖHKƏM ƏQİDƏ, ŞƏRƏF MƏKTƏBİNƏ çevrilib. V.Hacıyevin hər şeydən xəbərdar olması, geniş biliyi ətrafındakıları valeh edir, heyrətə salırdı. Döyüş şəraitində ən xırda dəyişikliklər ona məlum olduğundan, onu daha ayjq olmağa məcbur edirdi. SİNƏSİNİ HƏDƏF alan düşmənin snayper gülləsindən atılan zərbədən yıxılan, ziqzaqlı tərzdə sürünən VÜSAL HACIYEV özü də bilmirdi ki, o, gizli bir qüvvət, iradə və hikmət çeşməsi ilə mərhəmləşib. O, müalicə almaq üçün Hərbi Hospitala deyil, Şuşa istiqamətinə döyüş kursu götürdü. Könlü şad, ruhu yüksək. Ölümlərin içindən sıçrayıb dikələn məharətli hərbçi.

Fərid Həsənov:

- Naxçıvandakı “N” saylı hərbi hissədə xidmət keçdiyim əsgərlik və Vətən Müharibəsində döyüş dostlarımın hər biri əziz, unudulmazdır. Dostum, iş yoldaşım Allahverdi Novruzov, bir məktəbdə oxuduğum Bilah Qəmbərov, bir məhlədə yaşadığımız Anar şəhid oldu. Döyüşçü Vüqar, Mingəçevirdən Verdiyev Yaşar və kəşfiyyat rəisinin müavini, mayor İlqar Şükürov yadımda mərdanə hərbçi kimi qalıblar. Döyüş dostum Saməddin Zeynalov, Baba Kazımov, Hacıqabuldan İlham Atamalıyev, Səlyandan Əli Nəbiyev, Naxçıvandan kapitan Ülvi Hüseynov öz qanları ilə tarix yazan igidlərimiz kimi qəlbimdə yaşayır (yaşayacaqlar).

Bilirsiniz, döyüş dostlarımın heç birini yaddan çıxara bilmirəm.

Fərid Həsənov:

- Gizir Xəzər Əliyev ağır yaralananda, Hikmət Abbaslı ilə Ülvi Həsənov onu xilas etmək istəyəndə şəhid olublar. Yeri gəlmişkən əlavə edim ki, 300-ə yaxın düşmən məhv edən Xəzər Əliyev 9 güllə və qəlpə yarası alsa da döyüşü davam etdirirdi. Gözümüzün önündə erməni SU-25 qırıcı təyyarəsini vurub. Qırıcı yana-yana yerə düşdü.

HAŞİYƏ: Polkovnik-leytenant Saqi Babayev haqqında danışan kəşfiyyatçı əsgər Fərid Həsənov əlavə etdi: “...Qəlpə onun burnunu və qulağını apardı, özündən getdi. Qospitala apardılar. S.Babayev qısa müddətdə qayıdıb döyüşü davam etdirdi.” Qəhrəman zabitimiz Fariz Məmmədov isə öndə mövqelərimizi yoxlayarkən zınqrov səsi gələn tərəfə gedir. Yaralı giziri xilas edir.

Qəhrəman əsgərlərimizdən Baba Kazımovla Saməddin Zeynalovun fərasətini, bəsirətlərini ehtiva edən cild-cild kitablar yazmaq olar. Bizdə Mirəhməd adında könüllü bir müəllim var idi, onu döyüşçülərin LOĞMANI adlandırırdılar. Yəni, demək istəyirəm ki, əsgər heç nəyi unutmur... Şagird və tələbələr müəllimlərini, əsgərlər isə komandirlərini yaxşı tanıyırlar.

***Qələmə aldı Natella***
***(əsgər anası) …***



# Qarabağ Azərbaycandır!



*Fəridə Hicran*

Xətrini dünyalar qədər istədiyim filologiya elmləri doktoru, dəyərli folklorşünas alim Fəridə Hicran Vəliyevanı uzun illərdir ki, tanıyıram. 80-ci illərin sonu, 90-cu illərin əvvəllərindən Qərbi Azərbaycan, indiki Ermənistandan ölüm-zülümlə məcburi gələn köçlər… Qarabağ faciələrinin, soyqırımların içərisindən ürək dağlayan yazıları, xəstəxanalardan reportajları ilə dünyanı ədalətə, insafa çağıran, bizləri də intiqama səsləyən, için-için ağladan o gənc, incə, zərif qızın harayı - "Qarabağda talan var" kitabından: "İlahi! Dörd yaşlı körpəyə də güllə atarlarmı? Mən Vüsalədən nə soruşum, nə yazım? Dörd yaşlı körpənin də ayağı kəsilərmi, ay Allah? Kaş canavara rast gələydin, Vüsalə, nəinki ermənilərə. Onlar sənə dəyməzdi, aparıb balaları ilə birgə böyüdərdi… Zavallı körpə, daha dəhşətli vəhşilərə rast gəlmisən…

05.03.1992, saat 10:00

Bakı şəhəri, Kliniki Təcili Yardım Xəstəxanası, 5-ci palata".

Üç yüz səhifəlik bir kitab – ili, ayı, günü, saatı göstərilməklə sənədli-sübutlu faktları ilə əlimizdədir - "Qarabağda talan var".

Bu ürək dağlayan yazılarla yanaşı, qucağına alıb, çiynində Ağdam məscidinə daşıdığı körpələrimizin, Xocalılı balalarımızın cəsədləri… fotoları…

Fəridə Hicran:

- Həmişə fikirləşirəm ki, o günləri necə ölmədim, dözdüm, yaşadım… Ürəyim partlayırdı, dilim söz tutmurdu, üst-başım qan içindəydi… Dilimdə bircə o idi ki,-Allah, yaratdıqlarına edilən bu zülmdən keçmə, bu qansızların cəzasını ver. Belə ölüm səhnələrini qorxulu kinolarda görərdik. O da, gözümüzü yumardıq ki, axan insan qanını görməyəsən. Adam cildində görünən bu qaniçən məxluqatın canında, əməlində bu qədər vəhşilik, qəddarlıq haradandı…?

Mən Hollandiyada, Haaqada, İnsan Haqları Məkəməsində çıxış edərkən, beynəlxalq tribunadan da söylədim, kitablarım, məqalələrimdə də həmişə xüsusilə qeyd edib, vurğulayıram ki, bu vəhşi xüsusiyyətə, düşüncəyə, insan qanına susayan toplum dünya üçün, bəşəriyyət üçün faciədir, qorxuludur, üz qarasıdır.

Ya bunlar islah edilməli, qurtulmalıdır bu dəhşətli tələbatlarından… Ya da görən nə etməlisən ki, bəşəriyyətin üz qarası ermənilər bu xislətlərindən əl çəkələr. Fəridə xanımın yarasının qaysağı qopmuşdu…

- Bu dərd qaysaq bağlarmı heç?..

Mən gəncliyimi yaşamadım ki… mənim kimi yüzlərimiz, minlərimiz var… Sonra da gec ailə qurdum, bircə övladım var. Allah millətimizi, xalqımızı balalarımızı qorusun, mənim də Ramizim onların içində.

-Ağdamnan yola saldığım yaralılardan Bakıya gələrkən xəstəxanada gördüklərim oldu. Kiminin ayağını güllə aparmışdı, kimisinin buz kəsmişdi… Əli, qolu, barmaqları ermənilər tərəfindən kəsilən, ağzından dişləri çıxarılan, ağlagəlməz əzablardan ağlını itirib dili tutulan, ürəyi partlayanlar o qədər ki… Bunların heç biri ani də olsa yadımdan çıxmaz. O zaman mən kürsüdən danışdıqca, salonda göz yaşlarını tuta bilməyənlər, mənə öz dillərində, danışın, dünya bunları bilməlidir söyləyənlərə qarşı çaxnaşma törədənlər də oldu. Sonradan bunların ermənilər olduğunu dedilər… Qarabağı düşmənlər qan çanağına çevirdikdən sonra Fəridə Vəliyeva Fəridə Hicran oldu.

-Mən Ağdamda dünyaya göz açmışam Seyidli kəndində. Danışacaqlarım bütün Ağdam, Seyidli əhlinin eşidib bildiyi, fəxr etdiyi hadisələrdi. Əlbət ki, gələcək nəsillər üçün də yazmalıyıq, söyləməliyik ki, yad-

daşlarda qalsın. Xalq dostunu da, düşmənini də tanısın.

Son dərəcə qürur duyduğum Şuşanın tikilməsi, bünövrəsinin qoyulması… bunları ulu nənəm Mənzər xanımın dilindən bütün nəslimiz, Qarabağ əhli ən xırda detalları ilə əzbərdən bilir.

Mən bir az qısa danışacağam…

- Şuşanın qurucusu Pənahəli xan ilk Ağcabədiyə gəlibdi. Ağcabədi də çöl zonası, susuz, yaşayış üçün çətinliklər. Bunlara baxmayaraq Xan o vaxtlar Ağcabədiyə bağlı məşhur Bayat kəndində böyük bir iqamətgah-qala tikdirir. Bayatda bir müddət qalandan sonra yenidən qayıdır Ağdama – bizim tərəflərə Şahbulaq ətrafına. Seyidli də bura çox yaxındır. Qiyaslıdı, Xıdırlıdı, Sarhaclıdı… Ətrafdan gözəl mənzərəli Kötəl çayı axır, sıx meşəlik. Bir sözlə, cənnəti necə təsvir edirlərsə bizim yerlər o misallı. Bəli, Pənahəli xan burada yurd salıb, məskən qurur, bu dəfə Şahbulaq qalasını tikdirir. Və tikinti bitər-bitməz Xanın köməkçiləri ona xəbər gətirirlər ki, - Bəs, Xan sağ olsun, yaxında elə bir yüksəklik var ki, quşqonmaz, ünyetməz, qartalların binə saldığı yerlər.

Xan əvvəlcədən əyan-əşrəfinə, ətrafdakılara tapşırıq veribmiş ki, ona qala tikməyə, yurd salmağa hündür, uca yüksəklik seçsinlər. Xəbər gələn kimi dəliqanlı xan, bizim Oğuz bəyləri belə əlçatmaz, ünyetməz məkanları fəth edən olublar adətən. Əmr edir ki, üç günə həmin zirvəyə yol çəkilsin… Düzdür, yəqin ki, bu yol üç günə başa gəlməyib. Mən nənəmdən belə eşitmişəm. Hazır olunca Xan dağın başına çəkdirdiyi yolla zirvəyə çıxıb burada ürəyincə olan qala ucaldacağına söz verir. Və tezliklə sıldırımlı dağın başında elə bir alınmaz qala tikdirir ki, həm əzəməti, həm də gözəlliyi ilə görənləri valeh edir. Qalanın divarlarına üz çəkilən qiymətli kaşılar günəş düşdükcə par-par yanır, göz qamaşdırırdı. Qala hazır olandan sonra Pənahəli xan ordusu, nökər-naibi ilə Şuşa qalasına yerləşir. Pənahəli xanın özü ilə gətirdiyi köməkçiləri, xanzadələrdən başqa ətrafındakıların bir xeylisi bizim Seyidlidən olublar. Mənim ana nənəmgil tərəf Pənahəli xanla Şuşada yerləşiblər. Malı-mülkü, Seyidlidəki dəyirmanı ilə Qarabağda məşhur olan Mənzər nənəm Xan qızı Natəvanla yaşıd olublar, həmsöhbət imişlər. Biri-birinin saraylarına gediş-gəlişləri olub. Mənzər xanım həm də şairə olub, Xurşud banu Natəvanın “Məclisi-üns” - şairlər məclisinin üzvü imiş. Mənə şairliyin ulu nənmdən keçdiyini deyir qohumlarımız. Xurşud banu Natəvan Seyidliyə tez-tez gələrmiş. Xoşladığı xörək və qırqovul plov, turac plov olub. Üstündən də bizim dağların min bir dərdə məlhəm ətirli dağ çiçəklərindən dəmlənən çay. Qurtum-qurtum içib şeirləşiblər, görəcəkləri işləri məsləhətləşiblər. Bu işlər də xalqın xeyrinə əkin-biçini, yurd salma, evlərinin tikintisi, Qarabağ əhlinin gün-güzəranının nəfinə olan işlərmiş.

Mənzər xanım Seyidlidən Qasım bəylə ailə qurur, bu izdivacdan iki oğlu İldırım və Çərkəz dünyaya gəlir. İldırım xan peşəkar hərbçi olur gələcəkdə.

Biz-anam, xalalarım, dayım Çərkəz xanın evliliyindən dünyaya gələnlərik. Atam tərəfi Qərbi Azərbaycanın Göyçə ətrafından olub. İndi yağı əlində qalan Sarıyer, Meydan onların dədə-baba yurd yerləriymiş. O vaxtlar erməni daşnak-rus bolşeviklərinin törətdiyi qırğınlardan baş götürüb Ağdama köçmüşdülər. Biz də gözümüzü açıb Ağdamın Seyidli, Sarıhacılı kəndlərində böyümüşük. Anam Rəna müəllimə də şeirlər yazıb, gözəl ədəbiyyatçı idi. O, həm də İldırım xandan, babamızdan qalan yeddi mindən yuxarı qiymətli kitab fondu ilə babamın, dövlətə bağışladığı Ağdamda ilk kitabxanaya, oxu zalına da müdirlik edib, xalqının, xüsusilə qadınların savadlanmasında müstəsna rolu olan ziyalılardan olub. Universitetdə təhsil alarkən bir müəlliməm ağdamlı olduğumu bilincə rayonun harasındansan soruşdu: - Seyidlidən deyincə, Rəna müəllimənin qızı olduğumu eşidəndə gözləri yaşardı, sənin anan müəllimim olub. Çərkəz, İldırım babalarının xalqı üçün elədikləri xidmətlər əvəzsizdir, - dedi…

İnanın, içimdə elə bir inam var ki, çox tezliklə yurdlarımıza qovuşacağıq. Axır vaxtlar hər gecə Ağdamı yuxuda görürəm. İmarət qəbiristanlığında uyuyan ölülərimiz üzləri güləş gəlir yuxularıma. Elə bil nəsə demək istəyirlər. Vallahi qələbəmiz uzaqda deyil. Çox tezliklə birlikdə gedəcəyik Ağdama. İnşallah.

Ağrılı notla başladığımız söhbəti Qarabağın bəxtəvər günlərinin xatirəsiylə, üstəlik də Fəridə xanımın mütləqləşdirdiyi qələbə uzaqda deyil, öncəgörüşü elə toxtaqlıq verdi könlümüzə ki, çayımızın dadı da dəyişdi, elə bil gözümüzə işıq gəldi. Fəridə xanıma da mütləq bu xatirələrinizi yazmalısınız, bir kitabınız da bu yaddaş olsun, yoxsa bax dilinizdən alıb, müəllifi özüm olaram, - deyirəm.

- Bəlkə yazasınız…

- Yox, yox… nə danışırsız, söhbət etdikcə üzünüzə işıq, nur gəlirdi, xəyala dalırdınız… Bu xatirələri yaddaşdan, könlünüzdən yalnız özünüz yazıya köçürəcəksiz, yaşadığınız kimi də qələmə alacaqsınız, - deyirəm.

- Qələbəni gözləyirəm – Şuşanı, Ağdamı, bütün Qarabağımızı geri alaq, gör nələr yazacağam.

- Şükürlər olsun, görüşümüzdən cəmi iki həftə keçməmiş 12 gündən sonra Qəhrəman Ordumuzun qələbə yürüşü başladı. Qarabağımız uğrunda Vətən müharibəsi… Ali Baş Komandanımızın rəhbərliyi, xalqla Ordunun birliyi ilə dünyaya örnək, elə bir Zəfər dastanı yazıldı ki, tarixə... Fəridə Hicranın da sorağı cəbhə bölgələrindən eşidilməkdə. Zəngləşəndən, -İnanın ki, əsgərlərimizin bizim öz əllərimizlə bişirib apardığımız yemək-içməyə heç ehtiyacları yox, döyüş boyu bölgələrimizin insanları, dövlətimizin təminatı yerli-yerində, di gəl şirin tikəni, döyüşən balalarımızla bölüşmək istəyirsən. Onlara biz ana-bacıları qurban...

Yuxularımızı çin edən, gözümüzü yollardan yığan, bizi yurd-yuvamıza, Qarabağımıza qovuşduran igidlər, Sizlərin qəhrəmanlığına nə qədər kitablar yazıla, dastanlar bağlana, yenə azdı.

-Hələ görün Fəridə Hicran yazarınızdan nələr gələcək…

-Qəhrəmanlarımızın igidliyinə ən gözəl cavab ölkə başçımızın rəhbərliyi ilə torpaqlarımızda başlayan quruculuq işləridi. Böyük Qayıdışdır, Birliyimizdir, İriliyimizdir, Diriliyi-mizdir. Bu yolda hər kəsə uğurlar!

***Zərnişan Turan***

# KÖMƏK ETMƏKDƏN ZÖVQ ALIRIQ





**Həsənova Ələviyyə Məmməd qızı-"AftF" consulting şirkətinin rəhbəri, buna qədər baş mühasib, trikotaj üzrə texnoloq və digər sahələrdə çalışmış, iki övladı var.**

Şirkətimiz 2009-cu ildən işə başlayıb. Fəaliyyət sahəmiz insanlarımıza xidmət etməkdir. Əvvəlcə bazarı araşdırdıq, hansı sahələrə daha çox ehtiyac var,hansı sahələri əhatə edə bilərik. Və bu düşüncə, istəklə də xidmət sahəsinə innovasiya gətirməyi qarşımıza məqsəd qoyduq. Buna xidmətin yeni növü də deyə bilərik. Beləliklə 2009-cu ildən məsləhətçi-xidməti "AftF"consulting olaraq iş adamlarına, sahibkarlara qapılarımızı açdıq. Əsas işimiz sahibkarlıqla məşğul oımaq istəyənləri yönləndirmək,ehtiyacı olanlara biznes ideyalar vermək, çətinlikdə yanlarında olmaqdır. İstər Azərbaycanda, istər respublikamızdan kənarda apardığımız monitorınq əsasında çalışırıq ki, sahibkar iş qurarkən müəyyən vaxtdan sonra sərmayəsini batırmasın, inkişaf etsin. Apardığımız araşdırmalara, statistikaya görə bizdə qadın gözəllik salonları çoxdur. Rəqabət baxımından bu sahə yüksək faiz təşkil edir. Belə salonların biri bağlanır, biri açılır. Burda işi alınmayan sahibkar, bazarı araşdırmadan başqa bir sahəyə üz tutur, orada da işi alınmır, banklarda borc yığılır. Biz banklarla da əməkdaşlıq edir, müraciət edənlərə işini qurmaqda yardım edir, çətinliyə düşənlərə köməkliyimizi əsirgəmir,onu faydalı tərəfə yönəldirik. Pandemiya zamanı belə bir xeyli sahələr, xüsusilə iaşə müəssisələri bağlandı. Burger xidməti göstərən bir neçə müəssisəyə kömək edib, söhbət apardıq, azdan çoxa getmək üçün ona şərait yaratdıq. Belə məqamlarda maliyyə gücü çatmayanlara biz də dəstək olub,müəyyən banklarla danışırıq. Nəhayət o sahibkar işini qurur. 2019-cu ilin sonunda bir layihəmiz vardı. Uşaq oyuncaqları sərgisi təşkil etdik. Bakıda ilk dəfə idi ki, belə bir sərgi açılırdı.Bütün say-seçmə mətbuat, televiziyalar bu tədbiri işıqlandırdılar. Qonşu dövlətlərdən-Türkiyədən, İrandan, Rusiyadan istehsalçı şirkətlərdən sərgiyə qatılanlar var idi. Tam təbii materiallardan hazırlanan oyuncaqlar sərgisi üç gün çəkdi. Belə sərgilərə istehsalçıları dəvət etməli,onları maraqlandırmalıyıq ki, ən keyfiyyətli, gözəl məhsullar gətirilsin ölkəmizə. Xalqımıza xidmət etməliyik. Gözəl xalq sənəti sahələrimiz olub. Unudulmaqda olanların sıradan çıxmağına imkan verməməli, yaşatmalıyıq. Ötən il Təhsil Nazirliyi ilə maraqlı bir layihəmiz var idi. Qruplar şəklində bölgələrə gedib, yerlərdə xalq sənəti sahələrinin inkişafına dəstək olub, təşkilatçılıq etməli,maraqlananların ehtiyaclarını ödəməliydik. Məsələn, cənub bölgəsində təbii materiallardan-qamışdan hazırlanan elə əşyalar var ki, zənbil, həsir sandıq, döşəmə örtükləri, papaq və sairəyə hər yerdə ehtiyac var. Çox da böyük məsrəf tələb etməyən bu sənətin inkişafına niyə dəstək olmayaq? Eləcə də digər bölgələrimizdə tikmə, toxuma, şəbəkə və beləcə fərqli sənət növləri... Layihələrdə gənclərlə işləməyi çox dəstəkləyirik. Yeni bir layihəmiz də, ölkəyə kənardan gətirilən Rusiyada istehsal olunan ekoloji cəhətdən təbii hazırlanan məhsuldan söz açmaq istərdim. Artıq, Ekologiya Təbii Sərvətlər Nazirliyi, Azad İstehlakçılar Birliyi, bir sıra marketlərin cavabdeh şəxsləri ilə müzakirələr aparıb, görüşlər keçirmişik. Bildiyimiz kimi polietilen əşyaların, torbaların istifadəsinə, istehsalına bütün dünyada qadağalar tətbiq olunmaqdadır. Biz də bu istiqamətdə araşdırmalar aparıb,bu əşyalara alternativ olan boyasız, qatqısız taxtadan hazırlanan qablar istehsal edən böyük potensialı olan fabriklə əlaqələr qurmuşuq. Boşqablar,qaşıqlar, bıçaq-çəngəllər, podnoslar bir dəfəlik istifadə üçün nəzərdə tutulsa da, bu qablardan azı üç dəfəyə qədər istifadə edib, deformasiyaya uğradıqdan sonra faydalı tullantı-gübrə kimi bitkilərin qidalandırılmasında istifadə etmək olar. Ölkəmizdə sahibkarlar üçün gözəl şərait yaradılıb.Yetər ki, işimizdə təşəbbüskar, inadcıl, yeni innovasiyalara açıq olaq.

***Anna Mir***












Xarıbülbül
MUSİQİ FESTİVALI
ŞUŞA, AZƏRBAYCAN 2021








Vətən müharibəsi memorial kompleksinin
və Zəfər muzeyinin təməli
Azərbaycan Respublikasının Prezidenti
cənab İlham Əliyev tərəfindən
27 sentyabr 2021-ci il tarixində qoyulmuşdur.














VAĞZALI

